Bu bir xalq qəzetidi

ƏDALƏT

## Eldar Əzizov qəzalı binaların taleyindən danışdı



**"Artıq Bakıda qəzalı vəziyyətdə olan, öz resursunu başa vurmuş çoxmənzilli yaşayış binalarının inventarizasiyası və bu binalarda yaşayan sakinlərin təhlükəsizliyinin təmin edilməsi ilə bağlı zəruri tədbirlərin görülməsi məqsədilə müvafiq Komissiya yaradılıb".**

Adalet.az xəbər verir ki, bunu Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib.

Onun sözlərinə görə, qəzalı binaların inventarizasiyası aparılır:

"Bu binalar kateqoriyalara bölünəcək. Birinci növbədə informasiya bankını yaratmalıyıq. Daha sonra nəticələr təhlil olunacaq".

İcra başçısı ilkin mərhələdə hansı ərazilərdə qəzalı binaların bərpasının və ya sökülməsinin nəzərdə tutulması barədə də danışıb:

**"Komissiya bölünüb və bütün 12 rayonda da bu inventarizasiya işləri gedir. Ondan sonra dövlət səviyyəsində məsələlər qaldırmalıyıq və müvafiq qaydada bu məsələlərin həllinə çalışacağıq".**

## *Aqil Abbasa mükafat verildi*



**Adalet.az xəbər verir ki, Azərbaycan Yazıçılar Birliyi qədim Qarabağın şanlı tarixinə, işğal illərinin müsibətlərinə, 44 günlük müharibəyə və möhtəşəm zəfərimizə həsr olunmuş bədii əsərlərə veriləcək mükafatlar - poeziya üzrə Əhməd Cavad mükafatı, nəsr və dramaturgiya üzrə İlyas Əfəndiyev mükafatı təsis edib.**

Bu il Əhməd Cavad mükafatına "Vətən" poemasının müəllifi şair Ramiz Qusarçaylı, İlyas Əfəndiyev mükafatına yazıçı Aqil Abbas layiq görülüb. Dəyərli ədiblərimizi mükafatlara layiq görülmələri münasibətilə təbrik edir, yeni yaradıcılıq uğurları arzulayırıq.

***Nə qədər ki, həkimlərin və tibb işçilərinin maaşları qaldırılmayıb özəl xəstəxanalar dövlət xəstəxanalarının yanında toya getməli olacaq. Dövlət xəstəxanalarında çalışanların da nəmər yazdırmağa pulları olmadığına görə heç toya gedə bilməyəcəklər.***



*Aqil ABBAS*

## NİYƏ HƏMİŞƏ PİS ŞEY AXTARIRIQ...

Bax:səh-4

## ABŞ CASUSLARINI BAKIYA TOPLAYIR



"Yeni Müsavat" qəzetində oxudum ki, bu gün və sabah ABŞ öz səfirlərini Bakıya toplayır. Yəqin ki, onlara yeni tapşırıqlar veriləcək ki, özlərini necə aparsınlar və nəyi necə etsinlər, xalqı iqtidara qarşı necə qaldırsınlar, ölkəni necə qarışdırsınlar.

**Məşhur bir kəlam var: "ABŞ-da niyə inqilab olmur?"**

Cavab:

**- Ona görə ki, ABŞ-da ABŞ səfirliyi yoxdur.**

## PUL TOPLAYANI BAŞA DÜŞDÜK, BƏS PUL İSTƏYƏNİ?

**Sumqayıt şəhərindəki 26 nömrəli məktəbin direktorunun rüşvət istəməyi ilə bağlı səs yazıları paylaşıblar. Məktəbin direktoru Arzu Şükürova müəllimələrə bildirib ki, Gigiyena və Epidemiologiya şöbəsinin əməkdaşları məktəbə cərimə yazıblar, pulu ödəmək lazımdır.**

Və buna görə də məktəbin direktorunu və müavinini işdən çıxarıblar.

Bəs, Gigiyena və Epidemiologiya şöbəsinin əməkdaşları cəzalanıblarmı?

Yəni on iki İmama ağlayanda, bir dəfə də Yezidə ağlayın. Yəni ki, direktor öz kefindən bu pulu yığmaq istəməyib. Hər hansı məktəbə belə bir yoxlama göndərilsə, təbii ki, bu hallarla rastlaşar və direktor da məcburdur ki, onları yola versin. Yola veriləndən daha çox yola verən məhkum olmalıdır.

## *MƏN HƏKİMLƏRİ QINAMIRAM...*

**Bu yazının Səhiyyə Nazirliyində oxunmasını qadağan edirik**




**Tez-tez saytlarda və sosial şəbəkələrdə oxuyuram ki, dövlət xəstəxanalarında çalışan həkimlər rüşvət alırlar. Yaxşı eləyirlər, onların aldığı maaşla heç birimiz dövlət xəstəxanalarında işləmərik.**

Allahın Türkiyəsində həkim 5700 dollar maaş aldığı halda, bizdə dövlət müəssisələrində işləyən həkimlər uzaqbaşı 400-500 manat maaş alırlar.

Əgər biz Azərbaycan səhiyyəsinin səviyyəsini yüksəltmək istəyiriksə, həkimlərə də normal maaş verməliyik.

**Normal maaş verin, həkimlər özəl xəstəxanalara qaçmasın.**

## *MİLLİ TƏHLÜKƏLİLİK NAZİRLİYİ*

**Mətbuatda gedənləri oxuduqca adam havalanır. Heç demə, Milli Təhlükəsizlik Nazirliyi Milli Təhlükəlilik Nazirliyinə çevrilibmiş. Adamları salıb orda dərilərini soyubmuşlar. Kimi istəyirdilərsə aparıb orda nə qədər istəyirlər döyüb-söyüb, hətta öldürə bilərdilər.**

Vaxtilə bu nazirliyin adını "Ədalət" Milli İstirahət Nazirliyi yazırdı. Amma heç demə bura Milli İstirahət Nazirliyi yox, Milli Təhlükəlilik Nazirliyi imiş.

Bütün bunlar bu gün Dövlət Təhlükəsizlik Xidməti tərəfindən aydınlaşdırılır.

Bu bir xalq qəzetidi

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | Gündəlik hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 21 (5958) 30 aprel 2022-ci il | Qiyməti 30 qəpik

*Mehman CAVADOĞLU*

## Sülh müqaviləsi və rus sülhməramlıları

Bax:səh-3

# İlham Əliyev: "Sülh sazişini imzalamağın vaxtı gəlib"



*"Biz ərazi bütövlüyümüzü bərpa etmək, sülh və əmin-amanlıq şəraitində yaşamaq istəyirik. Artıq sülh sazişini imzalamağın vaxtı gəlib".*

*Adalet.az xəbər verir ki, bunu Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq" mövzusunda beynəlxalq konfransda bildirib. Dövlətimizin başçısı deyib ki, artıq belə tədbirlər istər Avropada, istərsə də Rusiya, Türkiyə və Amerikada keçirilə bilər, bununla da biz ictimai diplomatiyanı, xalq diplomatiyasını başlaya bilərik. "Bu cür tədbirlərə hətta Ermənistandan da mütəxəssislər dəvət oluna bilər. Yəni, nifrət deyil, sülh təbliğatçıları olan mütəxəssislər də bu cür tədbirlərə dəvət edilə bilərlər. Yəni, bu özü gözəl bir bünövrə olar", - deyə Prezident İlham Əliyev vurğulayıb.*

## Mənsimov növbəti gəmiyə Cəbrayıl Dövlətzadənin adını verdi



**"Palmali"nin növbəti gəmisi Vətən Müharibəsinin ilk şəhidlərindən olan Cəbrayıl Dövlətzadənin adını daşıyacaq.**

Adalet.az xəbər verir ki, bu barədə şirkət rəsmisi Fidan Quliyeva məlumat verib.

F.Quliyeva qeyd edib ki, azərbaycanlı iş adamı, "Palmali Holding"in rəhbəri Mübariz Mənsimov şəhid anası Məleykə Məmmədzadəyə zəng edərək oğlu Cəbrayıl Dövlətzadənin adının növbəti gəmiyə veriləcəyi xəbərini ona çatdırıb.

Əsgər Cəbrayıl Dövlətzadə 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi uğrunda başlanan Vətən müharibəsi zamanı Murovdağ istiqamətində gedən döyüşlərdə xüsusi təyinatlıların tərkibində savaşıb. Cəbrayıl Dövlətzadə sentyabrın 28-də Murovdağ döyüşləri zamanı Kəlbəcər rayonu ərazisində şəhid olub. II Şəhidlər Xiyabanında dəfn olunub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Cəbrayıl Dövlətzadə ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları, həmçinin, "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

## AZAL Naxçıvandan Gəncəyə uçuşlara başlayır

**"Azərbaycan Hava Yolları" aviaşirkəti Naxçıvandan Gəncəyə və geriyə reyslər açır.**

Adalet.az xəbər verir ki, mayın 6-da başlayaraq, Naxçıvan-Gəncə-Naxçıvan istiqamətində uçuşlar həftədə iki dəfə - çərşənbə axşamı və cümə günləri həyata keçiriləcək. Baqaj (23 kq-a qədər) və əl yükü (10 kq-a qədər) daxil olmaqla aviabiletin bir tərəfə qiyməti 60 manat təşkil edəcək.

## *Şuşada Xarıbülbül çiçək açıb*



**Şuşada Xarıbülbül çiçək açıb. Adalet.az xəbər verir ki, bu barədə Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin rəsmi feysbuk səhifəsində fotolar paylaşılıb. "Əziz Şuşanın simvolu sayılan Xarıbülbül gülü artıq çiçək açmağa başlayıb", - deyə paylaşımda qeyd edilib.**

## *SƏLİM MÜSLÜMOV HƏBSXANADA DA XEYİRXAHLIĞINDAN QALMIR*



**ATV-də Zaurun verilişində xəstə Amir Tağıyevə 5 min dollar, ARB-də də Xoşqədəmin verilişində iştirak edən xəstə Nurayın (Allah-Allah, nə gözəl oynayırdı) müalicəsi üçün də 3 min dollar pul köçürüb.**

**Göydə Allah, yerdə Prezident qapısını açsın.**

*Məmməd ARAZ*

## YA RƏBBİM, BU DÜNYA SƏN QURAN DEYİL



*İnsandan insana körpümüz sınıb,*
*Ya rəbbim, hamımız sənə sığınıb.*
*Özünü özündə itirib insan,*
*Didişmə dişləri bitirib insan.*
*İçdiyi zəhərdir, qusduğu zəhər,*
*Qəhəri bəhərdir, bəhəri qəhər.*
*Ya rəbbim, bizlərə qaytar bizləri,*
*Şeytan qulağında axtar bizləri,*
*Tələsi yoxların cələsi işlək;*
*Cələsi yoxların tələsi işlək;*
*Çaparlıq istəsək - yolumuz kəsik,*
*Qılınca əl atsaq - qolumuz kəsik.*
*Ya rəbbim, əl açdıq, tut əlimizdən,*
*Çıxmasın bu doğma yurd əlimizdən.*
*Sən bizi kiçiklər kinindən qoru,*
*Fil tutur, şir tutur hörümçək toru.*
*Ya rəbbim, adilsən, hifz elə bizi,*
*Halal ocaqlara üzv elə bizi.*
*Gör harda, gör necə Məcnunuq hələ,*
*Qəbir qazmağınan məşğuluq hələ;*
*Külüng də bizimdi, torpaq da bizim,*
*Batmış da, yatmış da, oyaq da bizim.*
*Yalanı tuş elə öz ünvanına,*
*Özün çək nahaqqı haqq divanına.*
*Hələ mürgülüyük, xeyli mürgülü,*
*Zurnalı, qavallı, neyli-mürgülü.*
*Hələ öz içində batanımız çox,*
*Düşmən laylasına yatanımız çox.*
*Hələ qoltuqlara sığan nə qədər,*
*Hələ töküləni yığan nə qədər.*

(Ardı 3-cü səhifədə)

***Aqil ABBAS***
***aqilabbas@rambler.ru***



## ALLAH, QOYMA DÜNYANI DAĞIDIRLAR

*(Bu dünyanı sən yaratmısan, axı!)*

***Bütün dünyanın gözü qabağında dəhşətli bir müharibə gedir. Rusiya Ukraynada adını "Xüsusi əməliyyat" qoysa da, açıq-aydın müharibə gedir. Şəhər və kəndlər dağılır, daha dəqiq desək, Ağdamın, Füzulinin gününə salınıb. Təbii ki, Qarabağda olduğu kimi, atdıqları minalar, raketlər, top mərmiləri baxmır kim qocadı, kim uşaqdı, kim qadındı. Ermənilərin və 366-cı batalyonun 1990-94-cü illərdə bizə yaşatdıqları zülmü indi Rusiya Ukraynaya yaşadır. NATO və Avropa dövlətləri də dırnaqlarını bir-birinə sürtərək müharibənin qızışması üçün əllərindən gələni əsirgəmir. Rusiyaya sanksiyalar qoyub Putini hövsələdən çıxarır, Ukraynaya da silah-sursat yardımı edir ki, bərk durun, qorxmayın.***

**Bax: səh.2**

## RÖVŞƏN ƏSGƏROV NƏYİ DÜZ DEMƏYİB Kİ?

**Azərbaycanlı jurnalist, "Çto? Qde? Koqda?"nın liderlərindən biri Rövşən Əsgərov Jukovla bağlı bir status paylaşıb və onun haqqında Rusiyada cinayət işi qaldırıblar.**



Rövşən Əsgərov nəyi düz deməyib ki və orda nə faşizm əlamətləri var? Yazdıqları hamısı mötəbər mənbələrə əsaslanıb. Jukovun müharibə dövrü Almaniyadan gətirdiyi trofeylərlə bağlı neçə-neçə məqalə yazılıb, sənədli film çəkilib, evində axtarış aparılıb, vəzifəsindən çıxarılıb. Marşal, 4 dəfə Sovet İttifaqı Qəhrəmanı Jukovu, bizim Tahir Əliyevin sözü olmasın, göndəriblər Odessaya naçalnik miliçiyanın rəisi.

İxtisasca tarixçi olan Rövşən Əsgərov bilmədiyi şeyi yazmaz. Biz hamılıqla Rövşən Əsgərovu müdafiə etməliyik.

## PUTİN ÇEÇENLƏRDƏN SONRA ERMƏNİLƏRİ QIRDIRACAQ



**Çünki hər ikisi onlara yükdür. Çeçenistanda kim olubsa bilir, orda cənnət yaradıblar. Amma Dağıstanda olanlar da bilir ki, ora əlli il əvvəl necəydi, elə də qalır - infrastruktur da, yollar da, yaşayış məskənləri də. Dağıstandan keçəndə elə bilirsən İranın hansısa kəndindən keçirsən. Amma Çeçenistan az qala cənnətdi.**

Kadırov da özünü Putinə bərabər sayır, ordusu-filanı. Hərçənd ki Rusiya Çeçenistanda çeçenlərə ot yoldurub. Öldürə bildiyini öldürə bilib, zorlaya bildiyini zorlaya bilib, amma gərək ki, bir polkovnik çeçen qızını zorlamağa görə həbs olunub.

İndi çeçenlərdən ibarət 10-15 mindən artıq döyüşçü Ukraynada vuruşur. Əslində vuruşmur, imitasiya yaradır, bunu da Putin gözəl başa düşür.

Mühacirətdə olan çeçenlər də bir neçə batalyon yaradıb gəliblər Ukraynaya öz çeçen qardaşları ilə vuruşur. Yəni ölən də, öldürən də çeçendi.

Putin beləliklə, çeçenlərdən canını qurtarır.

Ramzan Kadırova general-leytenant rütbəsi verdi. Hansısa bir çeçenə də Rusiya qəhrəmanı adı ki, bir-birinizi qırın.

Sonda Axmat Kadırov necə öldürüldüsə, elə bir tale də Ramzan Kadırovu gözləyir.

**Ya bunu Rusiya edəcək, ya ukraynalılar, ya da Dudayevin adını daşıyan mühacirlərdən ibarət çeçen batalyonu.**

## İNDİ MƏLUM OLDU Kİ, BMT RAFAELİN ÇAYXANASI KİMİ BİR ŞEYDİ

**Sovet dönəmində "Qubernant bağı"nın aşağısında bir çayxana vardı. Yığışardıq ora, Sovet hökumətini asıb-kəsərdik . Və bu gün Azərbaycanın milli istiqlaliyyətində kim varsa Elçibəyin rəhbərliyi ilə o çayxanada yetişirdi.**

Danışardıq, asıb-kəsərdik, sonra da çıxıb gedərdik evimizə. Amma sonda nə oldu? O çayxanaya yığışanlar, başda Elçibəy olmaqla, Sovet hökumətini dağıtdılar. Düzdür, bu bizə baha-başa gəldi, amma istəyimizə nail olduq.

İndi həmişə BMT-ni Rafaelin çayxanasına bənzədirəm - çığırırlar, bağırırlar, axırda da durub gedirlər evlərinə, xanımları onlara zoğal mürəbbəli çay içirdir. Əgər Birləşmiş Millətlər Təşkilatı (mən bu təşkilatı Birləşmiş Millətlər Çayxanası adlandırıram) yığışıb bir qələt edə bilmirlərsə, bir p… yeyə bilmirlərsə kimə lazımdırlar.

Rusiya Ukraynanı işğal edir, Birləşmiş Millətlər Təşkilatı da yığışıb "Azərsun"un "Final" çayını içir.

**Ə, gedin hoppanın. Əgər sizi kimsə filan yerinə almırsa, əgər Ermənistan sizin 4 qətnamənizi filan yerinə almadısa Rusiya alacaq?!**

**İdite na…**

## GÜNÜN LƏTİFƏSİ



**- Ata, gəlmişəm səninlə yatam!**

- Tək yatmaqdan qorxursan?

**- Yox, yaxşı yuxular görürdüm, istədim sən də görəsən.**

- Nə görürdün?

**- Görürdüm mənə velosiped almısan!**

# Prezident: “Türkiyə ilə həm sözdə, həm də əməldə bir olduğumuzu bütün dünyaya bəyan etdik”



**”Ötən ilin iyununda Prezident Rəcəb Tayyib Ərdoğanla imzaladığımız Şuşa Bəyannaməsi imzalanması bizim qardaşlığımızın və əməkdaşlığımızın bariz nümunəsidir. Biz bu sənədlə əməkdaşlığımızı bütün formatlarda rəsmiləşdirdik”.**

Adalet.az xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da ADA Universitetində keçirilən ”İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda çıxışında deyib.

Azərbaycanın Türkiyə ilə bütün sahələrdə, o cümlədən hərbi və müdafiə sənayesi sahəsində müttəfiq olduqlarını vurğulayan dövlətimizin başçısı qeyd edib:

”Şuşa Bəyannaməsi biz Türkiyə ilə həm sözdə, həm də əməldə bir olduğumuzu bütün dünyaya bəyan etdik”.

# “Ermənistan Azərbaycanın enerji resurslarına çıxış əldə edə bilər”

**”Azərbaycan indi Ermənistanı dəvət edir ki, regional inkişafın tərkib hissəsi olsun, bunun üçün imkanlar var. Bu, onlar üçün xeyirlidir”.**

Adalet.az-ın məlumatına görə, bunu Prezident İlham Əliyev ADA Universitetindən keçirilən ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda deyib.

İlham Əliyev bildirib ki, Ermənistan Azərbaycanın enerji resurslarına çıxış əldə edə bilər.

”Eyni zamanda, Ermənistan beynəlxalq nəqliyyat dəhlizlərinin iştirakçısı ola bilər”, - deyə İlham Əliyev əlavə edib.

# “Azərbaycanın təkbaşına Madrid prinsiplərini icra etməsi Minsk qrupunu məyus etdi”

**”Biz eşidirik ki, Ermənistan hökuməti sülh gündəliyi barədə anonslar verir. Bu, çox müsbət haldır”.**

Adalet.az-ın məlumatına görə, bunu Prezident İlham Əliyev ADA Universitetindən keçirilən ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda deyib.

”Artıq reallıq dəyişib və bu, hətta vasitəçilər tərəfindən də etiraf edilir.

Hətta Rusiya-Ukrayna müharibəsindən öncə ATƏT-in Minsk qrupunun həmsədrləri arasında məyusluq var idi, çünki Azərbaycan özü təkbaşına Madrid prinsiplərini icra etmişdi. Mən müharibədən sonra həmsədrlərlə görüşdə onlara dedim ki, onlar praktiki təkliflər versin”, - deyə İlham Əliyev deyib.

Prezident deyib ki, Rusiya-Ukrayna müharibəsi başlayandan sonra həmsədrlərin hər hansı funksiyaya malik olmadıqları elan edildi.

# İlham Əliyev beynəlxalq konfransda mina problemindən danışdı

**”Ərazilərimizin minalarla çirkləndirilməsi böyük problemlərdən biridir. Müharibə başa çatdıqdan sonra 200-dən çox hərbi və mülki şəxs, əfsuslar olsun ki, mina hadisələri nəticəsində ya həlak olub, ya da ciddi xəsarətlər alıb”.**

Adalet.az xəbər verir ki, bu fikri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da ADA Universitetində keçirilən ”İnkişaf və əməkdaşlıq” mövzusunda beynəlxalq konfransda çıxışında deyib.

Müharibə başa çatdıqdan sonra da ermənilər tərəfindən ərazilərimizdə minaların yerləşdirildiyini vurğulayan Azərbaycan Prezidenti bildirib: ”Ötən il azərbaycanlı iki jurnalist Kəlbəcərdə yeni basdırılmış minanın partlaması nəticəsində həlak olub”.

Həmin ərazilərin mianalardan təmizlənməsinin çox çətin və uzunmüddətli proses olduğunu vurğulayan dövlətimizin başçısı bunun üçün Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşlarının sayı artırıldığını, ən müasir avadanlığın, o cümlədən dronların alındığını deyib. Türkiyənin bir qrup mütəxəssisinin minatəmizləmə əməliyyatlarında iştirak etdiyini bildirən Prezident İlham Əliyev bu sahədə daha geniş beynəlxalq əməkdaşlığa ehtiyac olduğunu diqqətə çatdırıb.

# “Ümid edirəm ki, Azərbaycanın Ermənistanla da yaxşı əlaqələri olacaq”

**”Azərbaycanın bütün qonşuları ilə yaxşı münasibətləri var. Təkcə Türkiyə və Rusiya ilə deyil, Gürcüstan və İranla da yaxşı münasibətləri var”.**

Adalet.az-ın məlumatına görə, bunu Prezident İlham Əliyev ADA Universitetindən keçirilən ”Cənubi Qafqaz: İnkişaf və əməkdaşlıq” adlı beynəlxalq konfransda görüşdə deyib.

İlham Əliyev ümid etdiyini bildirib ki, Azərbaycanın Ermənistanla da yaxşı əlaqələri olacaq.

”Beləliklə biz sabitlik ərazisini əhatə edəcəyik. Biz bunu istəyirik. Sülh gündəliyinə, iqtisadiyyata köklənməklə bunu edə bilərik.

Hər il milyardlarla dollar silah alınmasına pul xərcləməklə deyil, iqtisadiyyatı və yenidənqurmanı şaxələndirməklə bunu edə bilərik”, - deyə İlham Əliyev əlavə edib.

# Demokratiyanın beşiyində vəziyyət ruscadı

**Payızda amerkanlar Konqressə və Senata növbəti seçkilərin keçirilməsinə hazırlaşırlar. Görünən odur ki, hazırki prezidentin üzvü olduğu Demokratlar partiyası istənilən düzümdə seçkilərdə qalib gəlmək şanslarını itiriblər. ABŞ -ın indiki prezidenti Co Baydenin apardığı aqressiv siyasəti bu partiyanın reytinqini çox aşağı salıb. Qiymət artımı və ümumi yoxsulluğun həddi getdikcə artmaqdadır.**

Müxtəlif misallar göstərmək olar, elektrik enerjisinin qiymətləri son ildə bir dəfə yarım, benzinin qiymətləri isə üç dəfəyə yaxın artıb. Britaniya jurnalistlərinin təqdim etdikləri rəsmi sənədlərdə truşobkalarda yaşayanların acınacaqlı vəziyyətləri, şəhərlərdə sahibsiz, sökülmüş vəziyyətdə atılan avtomobillər, susuz və qazsız yaşayan insanların sivilizasiyadan kənarda qaldıqları nümayiş etdirilir.

Amerikanın nüfuzlu "The Washington" qəzetində "Yumurta bahalaşıb, omleti yumurtasız hazırlayırıq!", "Bir çox yeməklərdən imtina etmişik" kimi başlıqlı yazılara rast gəlmək olar. Bu ölkə hazırda özünü "iqtisadi cəhətdən inkişaf eləmiş birinci ölkə" adlandırmaqdadır. Dünyaya ağalıq etmək istəyən dövlətin bu hala düşməsinin səbəblərindən biri, bəlkə də elə birincisi Rusiyaya qarşı sanksiyalar müharibəsinə başlamasıdır. Bu sanksiyalar yalnız Avropaya və Asiyaya sıxılmış qaz eksport edən bir neçə şirkətləri varlandıracaq. Sıravi amerikanlar isə bu iqtisadi müharibədən daha da soyulmuş vəziyyətdə çıxacaq, əlbəttə salamat çıxa bilsələr. Siyasi ekspertlərin fikrincə, amerikanlar son yarım əsrdə hələ bu gün düşdükləri acınacaqlı günə düşməmişdilər. Respublikaçılar vəziyyətdən istifadə edərək, bu məsələlərlə bağlı öz araşdırmalarını aparıblar və analizlərinin nəticələrini konservativ baxışları ilə seçilən Dineşa D'Suzanın "2000 qatır" adlı sənədli filmində nümayiş etdiriblər.




ABŞ-da və Kanadada narkotacirləri "qatır" adlandırırlar. D'Suza amerikan Dempartiyasının bülletenləri paçkalarla seçki qutulara dolduran muzdlularını "qatır" adlandırır. Seçki məntəqələrində qeydə alınmayan seçicilərin bu qutulara öz bülletenlərini atması həmişə qalmaqal yaradıb. Pandemiya və lokdaun bəhanəsilə bu cür qutuların sayı bir neçə dəfə artırılıb.

Demokratlar partiyası prezident seçkilərində öz "muzdlu qatırlarını" məhz bu qutulara yönəltmişdi. "Muzdlu qatırlar" bülletenləri qeyri-hökumət fondlarından götürərək paçkalarla seçki yeşiklərinə doldururdular və təbii ki, demokratların namizədinin xeyrinə. Bəli "Demokratiya - demokratların hakimiyyəti olmalıdır, burda nə var ki?"

D'Suza sənədləşdirdiyi filmdə iki minə yaxın "muzdlu qatırların fəaliyyətlərini" - onları Demokratlar partiyasının namizədi Co Baydenin xeyrinə bülletenlərin seçki qutularına atılmasını qeydə alıb.

Yəqin ki, noyabrda Konqressə və Senata keçiriləcək seçkilərdə demokratların minlərlə "muzdlu qatırları" bütün ölkə ərazisində onların qələbəsi üçün "fəaliyyət göstərəcəklər. Bundan başqa, Demokratlar yüz minlərlə qeyri-leqal latınamerikalıların xidmətlərindən də yararlanmağa çalışacaq. Onların tərəfində olan ştatlarda qeyri-leqalların seçkilərdə iştirak etməsinə icazə verilən qanunlar qəbul edilib.

Respublikaçıların buna nəzarət etmək təşəbbüsləri, həmin dəqiqə rasizm kimi qiymətləndiriləcək.

Bundan başqa, poçtlar vasitəsilə səsvermə bi çox ştatlarda ciddi qanun pozuntuları ilə qarşılaşır. Demokratların nəzarətində olan ştatlarda ümumiyyətlə seçki bülletenlərində seçici imzalarının həqiqiliyinin yoxlanılması qadağan olunub. "Demokratik dövlətdi də, nə demək olar ki? Ona görə də, demokratlar bu seçkilərdə heç də narahat olmamalıdır. Kütləvi bülleten atışları və saxtakarlıqlar onların qalibiyyətini təmin edə bilər.

Lakin prezident seçkilərində olduğu kimi, kütləvi saxtakarlıq növbəti dəfə də "Kapitoliyaya hücumla" başa çata bilər...

ABŞ-ın düşdüyü hazırki problemlərlə dolu durumundan Respublikaçılar partiyasının istifadə etməyə çalışacağı göz qabağındadır. Lakin ölkə siyasətində onların hər hansı bir dəyişikliklərə gedəcəyini də gözləmək olmaz. Çünki ABŞ-da siyasətin dərin güclər tərəfindən idarə olunduğu heç kimə sirr deyil.

Əslində seçkilərdə kimin qalib gələcəyi o qədər də maraqlı deyil. ABŞ-ın xarici siyasətində kardinal dəyişikliklərin olacağı da gözlənilmir.

Konqressdə və Senatda respublikaçılar çoxluq təşkil edəcək, lakin onlar da siyasi kursu davam etdirmək məcburiyyətindədirlər. Bu siyasət isə müharibələrin qızışdırılmasına yönəlib. Bu gün biz Ukraynanın timsalında bunlara şahidlik edirik.

**"Amerika heç vaxt bu günki kimi dərin böhran içərisinə düşməyib. ABŞ yenə də bir sıra dövlətlərdə vətəndaş müharibələrini qızışdırır və bunu etiraf etmək istəmir" - deyə Kanadalı yazıçı Stiven Marş bildirir.**

**Rüstəm Hacıyev**

# Araz Əlizadə radikal müxalifəti yıxıb-sürüdü

**Son günlər radikal müxalifət nümayəndələrinin bir - birini çox ağır formada ittiham etmələrinə şahid oluruq. Beləki Müsavat Partiyasının sabiq sədr müavini Tofiq Yaqublunun, Əli Kərimli və Gültəkin Hacıbəyli haqqında ittihamdolu səsyazısı yayılıb. Həmin səsyazısının yazılı versiyası bu şəkildədir:**

Tofiq Yaqubludan Əli Kərimli və Gültəkin Hacıbəyli haqqındaaşağıdakışoksəs yazısı yayılıb:" Əli Kərimli özü Elçibəy hakimiyyətinin devrilməsinin qərarını hazırlamış adamdır."

Təsəvvür elə bax indi gəlib, normal təklifdi.Bunu geri çevirmək də olar normal. İndi çıxıblar orda məsələn tutaq ki, Müsavatın tarixini təftiş edir ki, nə bilim filanıncı ildə İsa Qəmbər belə elədi.Burdan arxamıza bıçaq sancdılar, Əli Kərimli özü Elçibəy hakimiyyətinin devrilməsinin, onun impiçmentinin qərar layihəsini harınlamış bir adam Müsavatın tarixini təftiş edir.

Və yaxud Gültəkin xanım Hacıyeva, yəni Müsavat belə , elə ironiya, kinayə. Ay Gültəkin xanım sənə heçkəs heç nə demir axı. Siz indiki bu halda köhnə şeyləri qabardırsınız.?"

Sözügedən səsyazısı ilə bağlı politoloqların fikirlərini öyrənməyə çalışdıq. Bununla bağlı ilk açıqlamanı Azərbaycan Sosial Demokrat partiyasının sədri, siyasətçi Araz Əlizadədən aldıq.

Araz Əlizadə:"Bilirsiniz burda bir məsələ var. Tofiq Yaqublu da Əli Kərimli də Gültəkin Hacıbəyli də simasız insanlardı. Tofiq Yaqublunun Müsavatı müdafiə etməsi, başadüşüləndi. Çünki Müsavatın rəhbərliyində təmsil olunur. Amma bir şey var ki, Müsavatın xalq qarşısında günahlarını yumaq mümkün deyil.Həmin Gəncə hadisələrinin başında İsa Qəmbər Pənah Hüseynlə birlikdə durmuşdu. Əli Kərimli isə hamını sata - sata gəlib.

Gültəkin Hacıbəyli isə YAP-da olanda YAP yaxşı idi. Sonra deputat seçilmədi YAP bunun üçün pis oldu. Yəni bunlar hamısı simasız insanlardır."



Daha sonra Tofiq Yaqubluya məxsus bu səsyazısı ilə bağlı siyasi ekspert Elçin Mirzəbəylinin də fikirlərini öyrəndik. Elçin Mirzəbəyli:"Pandemiyanın daha aktiv mərhələsində videoformatda keçirdikləri toplantılarda bir-birini urvatdan salan, enerji resurslarının qiymətlərinin dünya bazarında aşağı düşməsindən "xoşbəxt olub çəpik çalan" Əli Kərimli, Gültəkin Hacıbəyli və digərləri indi də öz düşərgədaşlarının hədəfində mahiyyətlərinə uyğun olaraq qıvrılmağa başlayıblar. Bunu Kərimlinin ən yaxın ətrafına daxil olan və hətta Azərbaycan siyasətinin zƏlisinə görə qınağa tuş gələn Tofiq Yaqublunun sosial şəbəkələrdə və bəzi internet resurslarında yayılan səs yazısından da sezmək mümkündür. Məlum səs yazısında Tofiq Yaqublu deyir ki, Əli Kərimli Elçibəy hakimiyyətinin devrilməsində yer alıb və sabiq prezidentin impiçment layihəsinin hazırlanmasında iştirak edib. Əslində Əli Kərimlinin siyasi keçmişi və xarakteri son 30 ərzində ictimai-siyasi proseslərin epidsentrində yer alan insanlara bəlli olmasaydı, o zaman Tofiq Yaqublunun iddialarına önəm vermək olardı. Amma Kərimlinin öz liderinə xəyanəti, bir zamanlar onun gözdən salınmasına xidmət edən kampaniyanın başında dayanması, bu proseslərin şahidi və iştirakçısı olan çoxlarına bəlli olduğu üçün Tofiq Yaqublunun açıqlamaları sıradan bir hadisə kimi qəbul olunur. Yəni rezonans doğurmur. Adam, zatən xəyanət dağarcığı, çirkab gölməçəsidir. Nə atırsan, at, özünə doğru çəkir. Əbülfəz Elçibəyin sağalmaz xəstəliyə düçar olduğu günlərdə Kərimli və "yurd"daşlarının bütün zamanlar üçün heç bir ölçüyə sığmayan davranışlarını da, düşünürəm ki, ləyaqət hissini itirməyən hər kəs xatırlayır və ehtiyac duyulduğu təqdirdə xatırlada bilər. "Yağış" yağsa da çatlaqlar örtülməyib. Olub keçənləri, çox güman ki, indi yönünü, donunu, maskasını dəyişənlər də unutmayıblar. Amma "Mövqe"yi, "Məkan"ı, siyasi və ideoloji "Azadlığ"ı olmayanlardan hər şey gözləmək mümkündür...

Tofiq Yaqublu səs yazısında Gültəkin Hacıbəylinin viran qalmış "bostan"ına daş atmağı da unutmur. Lakin Yaqublunun vaxtilə deputat səlahiyyətlərindən istifadə edib əslini-kökünü nəcabətə bağlamaq istəyən, siyasi anlamda isə KÜL təkin olduğunun sübuta ehtiyacı qalmayan Gültəkinin Hacıyevanın ünvanına, hələlik bəlli olmayan səbəblərdən ehtiyatla səslənməsi, vaxtilə əks düşərgədə təmsil olunan bu xanımın "eqzotik" ittihamlarını və ölçüyəsığmaz məddahlığını unutmuş kimi davranması təəccüb doğurur. Adamdan soruşan gərək, bu ehtiyatlılığın səbəbi nədir, Glütəkin Hacıyeva vaxtilə radikal müxalifətin ünvanına səsləndirilən ən fantastik ittihamların müəlliflərindən biridir. Günlərin birində bir dəfə dəyişdiyi düşərgəni yenidən dəyişə bilər. Belələri, Türkiyə türklərinin təbirincə desək, , "isti ocaq-isti qucaq peşindədirlər".

**Belə... Əslində Tofiq Yaqublunun məlum səs yazısının üzərindən keçmək də olardı. Mahiyyət etibarilə bu insanlar Azərbaycan siyasətinin keçmişi olduqlarını hər addımda və həm də dəfələrlə sübuta yetiriblər. Amma sadəcə unudulmasın deyə yazdım. Unudulmasın ki, dövlətinə, xalqına xəyanət yolunu tutanların gerçək mahiyyətinin gün işığına çıxarılması üçün gənclərimiz vaxt və enerji itkisinə məruz qalmasınlar.**

**Bünyamin Bünyadzadə**

# "Azərsun Sənaye Parkı" yandı

**Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində ”Azərsun Sənaye Parkı”nın ərazisində yanğın baş verib. Hadisə yerinə yanğının söndürülməsi istiqamətində operativ və təxirəsalınmaz tədbirlər çərçivəsində FHN-nin Dövlət Yanğından Mühafizə Xidmətinin yanğından mühafizə bölmələri, Mülki müdafiə qoşunları, yanğınsöndürən maşınlardan əlavə, 2 helikopter çağırış üzrə cəlb olunub.**

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətindən bildirilib ki, yanğınla bağlı dərhal polis əməkdaşları hadisə yerinə səfərbər olublar. Polis və FHN əməkdaşları ətraf mühit və insanlar üçün ciddi təhlükə yarada biləcək partlayıcı və zəhərli maddələri anbarlardan çıxararaq təhlükəsiz yerə daşıyıb, işçilərin təxliyəsini təmin ediblər.

Fövqəladə Hallar Nazirliyi (FHN) tərəfindən görülmüş operativ və təxirəsalınmaz tədbirlər, o cümlədən yanğınsöndürmə qüvvələrinin peşəkar və fədakar fəaliyyəti sayəsində Sumqayıt şəhərinin Hacı Zeynalabdin qəsəbəsində yerləşən ”Azərsun Sənaye Parkı”nın ərazisində baş vermiş yanğın söndürülüb.

Baş Prokurorluq və Fövqəladə Hallar Nazirliyi baş verən yanğın hadisəsi ilə bağlı birgə məlumat yayıblar. İlkin araşdırmalar zamanı müəyyən edilib ki, yanğın kompleksin ərazisində plastik tullantıların atıldığı yerdən başlayaraq ərzaq və digər anbarlara yayılmaqla geniş ərazini əhatə edib.

Baş Prokurorluğun İstintaq idarəsində Cinayət Məcəlləsinin 225.2-ci maddəsi ilə cinayət işi başlanıb, prokurorluq və FHN-nin müstəntiqlərindən ibarət istintaq qrupu yaradılıb.

Fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov yanğın baş verən ərazidə olub. Generalın jurnalistlərə verdiyi açıqlamasında bildirib ki, ”Yanğın sahəsinin



kənarında karton tullantılar var. İlkin ehtimal olunan variant budur ki, yanğın ordan başlayıb. Azərbaycan Respublikasının Baş Prokurorluğu və Fövqəladə Hallar Nazirliyi tərəfindən başlanmış cinayət işində bəzi istintaq sirləri olduğundan hər məlumatı deyə bilməyəcəm. İstintaqın gedişi barəsində Baş Prokurorluq və Fövqəladə Hallar Nazirliyi tərəfindən məlumat veriləcək”.

TƏBİB-dən verilən məlumata görə, yanğınla əlaqədar Sumqayıt Şəhər Təcili Tibbi Yardım Xəstəxanasına 9 daxilolma qeydə alınıb.

**”Azərbaycan Sənaye Sığorta” ASC-nin İdarə Heyətinin sədr müavini Samir Məmmədov bildirib ki, ”Azərsun Holdinq” MMC-nin Sumqayıt şəhərinin Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki ”Azərsun Sənaye Parkı”nda baş vermiş yanğına görə sığorta ödənişi veriləcək.**

**Nicat Novruzoğlu**

*Aqil ABBAS*

# ALLAH, QOYMA DÜNYANI DAĞIDIRLAR

## (Bu dünyanı sən yaratmısan, axı!)

***Bütün dünyanın gözü qabağında dəhşətli bir müharibə gedir. Rusiya Ukraynada adını "Xüsusi əməliyyat" qoysa da, açıq-aydın müharibə gedir. Şəhər və kəndlər dağılır, daha dəqiq desək, Ağdamın, Füzulinin gününə salınıb. Təbii ki, Qarabağda olduğu kimi, atdıqları minalar, raketlər, top mərmiləri baxmır kim qocadı, kim uşaqdı, kim qadındı. Ermənilərin və 366-cı batalyonun 1990-94-cü illərdə bizə yaşatdıqları zülmü indi Rusiya Ukraynaya yaşadır. NATO və Avropa dövlətləri də dırnaqlarını bir-birinə sürtərək müharibənin qızışması üçün əllərindən gələni əsirgəmir. Rusiyaya sanksiyalar qoyub Putini hövsələdən çıxarır, Ukraynaya da silah-sursat yardımı edir ki, bərk durun, qorxmayın.***



***Hər iki ölkə məhvə məhkumdu. Rusiya qalib gəlsə də, hərçənd ki bu hələ görünmür, dalı üstə düşəcək. Ukrayna isə…***

***Artıq Ukrayna öz sərhədlərini aşır, Rusiyanın şəhərlərini raket atəşinə tutur.***

***Bu müharibədə Rusiyanın məğlubiyyəti onun imperiyasının sonu ola bilər. Yuxarıda qeyd etdiyim kimi, qələbəsi də məğlubiyyət deməkdi.***

***NATO hamını hədələyir ki, nəinki kim Rusiyaya meyl salsa, hətta bitərəf qalsa gözünü çıxardaram. Çin bir az atılıb düşdü, indi Şanxayı elə günə qoyublar ki, adamlar evdən çölə çörək almağa da çıxa bilmir, böyük bir limanı da bağlanıb, minlərlə yük gəmisi qalıb limanda. Artıq Çinin itirdiyi pulların miqdarı deyəsən, 1 trilyonu keçib. Yəni dünyanı böyrü üstə qoyub NATO.***

***Rusiya da hamını nüvə silahı ilə hədələyir. İndi yeni nüvə başlıqlı raket kəşf edib, deyəsən adı Sarmatdı, özü ilə 12 nüvə başlığı daşıyır, 12-15 dəqiqəyə də Britaniyaya çatır. Hər axşam da telekanallarda, xüsusilə Solovyovun verilişində reklam olunur ki, bunun biri ilə Böyük Britaniyanı məhv eləmək mümkündü. Cavabında da Britaniyanın baş naziri Conson deyir ki, sizdə olandan bizdə də var. Biz də Rusiyanı darmadağın edərik.***

***Bir sözlə, müharibəni durduran olmasa bütün dünyanı faciə gözləyir. Müharibənin durdurulmasına da nə NATO, nə də Rusiya maraqlı deyil. Hələ ki olan Rusiya və Ukrayna xalqlarına olur. Hadisələr göstərir ki, bu müharibənin durdurulmasında əsas Türkiyə maraqlıdır. NATO-nun üzvü ola-ola ABŞ-ın tripaç göstərişlərinə əməl etmir və özünün vasitəçilik missiyasından geri çəkilmir. Ən gülməlisi də odur ki, Rusiya nə yardan doyur, nə əldən qoyur. Yenə çömçə kimi Ermənistanı və Qarabağdakı separatçıları qarışdırır. Özünün şəxsiyyəti, söz sahibi olmadığı üçün Paşinyan da gündə bir söz danışır. Putin çağırıb yanına nətəhər danlayıbsa, başını itirib.***

***İndi də İrəvanda Təhlükəsizlik Şurasının iclasını çağırıb və iclasa Qarabağdakı separatçı qüvvələrin liderlərini də dəvət edib.***

***44 günlük müharibədən əvvəl belə bir iclası Xankəndində keçirtdi və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu təpəsinə necə bir Dəmir yumruq saldısa, hələ də başını tapa bilmir. Düzdür, indi qorxusundan Xankəndinə gəlməyə ürək eləmir, Xankəndindəkiləri İrəvana dəvət edir.***

***Belə getsə, Dəmir yumruq İrəvanda da onun təpəsini əzəcək.***

***İrəvanda da ara qarışıb, hər gün mitinqlər, etiraz nümayişləri… Bir sözlə, Köçəryanla Sərkisyan cütlüyünün barmaqları şeytanın barmağı kimi eşşəyin quyruğunun altındadı.***

***Birləşmiş Millətlər Çayxanasında çıxarılan qərarları da, qətnamələri də ermənilər necə 30 il tualet kağızı kimi istifadə elədilər, ondakı Putin ola.***

***Belə getsə, deyəsən, işə Allah qarışacaq. Ya dünyanı nizama salacaq, ya da birdəfəlik dünyadan və bizlərdən əlini üzəcək. Və öküzə mələkləri vasitəsilə xəbər göndərəcək ki, buynuzunu Yer kürəsinin altından çək, hara cəhənnəm olurlar-olsunlar.***

***Tanrım, müqəddəs Ramazan ayı xatirinə dünyanı nizama sal.***

***P.S.** Bugünki nömrəmizdə Məmməd Arazın "Ya rəbbim, bu dünya sən quran deyil" şeirini də oxuya bilərsiniz.*

*Nicat Novruzoğlu*

# Şükür

**Bu günümüzə min şükür. Hər gün şükür. Gündə min kərəm şükür. Şükür demiyən dillər qurusun.**

**Şükür ən çox sevdiyimiz, tez-tez səsləndirdiyimiz, güvəndiyimiz, dua kateqoriyasına aid olan və təşəkkürlük missiyasını yerinə yetirən bir zaddı. Həqiqətən zaddı. Və bu şükür elə bil zaddı ki, bu zada hər kəs müraciət edir. Qalib də uduzanda, döyən də döyülən də, udan da uduzan da, alan da satan da, yıxılan da yıxılmayan da və s.**

**Şükür elə belə zad deyil. Bütün söhbətləri şükür bağlayır. Bağlanan söhbətdə bağlanan da şükür edir bağlayan da. Demək olar təxminən bizim şükürümüz avtoritet kimi bir şeydi.**

**Şükür həyatımızın bir hissəsidi. Elə ağız yoxdur ki, ordan şükür çıxmasın. Hərə şükürü bu dünyada bir cür görür. Hərə şükürə bir cür yanaşır.**

**Belinə daş düşür deyirlər ki, şükür ki, başına düşməyib.**

**Evin yanır deyirlər ki, şükür ki, canın sağdı.**

**Çörəyin qiyməti qalxır. Deyirlər şükür et ki, tapa bilirsən. Vaxt var idi gecədən çörək növbəsinə dururduq.**

**Meyvə-tərəvəzin qiyməti qalxır. Elə ölkələrdən qiymətlər sadalayırlar ki, deyirsən bu qiymətə şükür.**

**İnfilyasiya baş verir. Elə statistika misal gətirirlər ki, min şükür deyirsən.**

**Ər arvad boşanır. Arada uşaq varsa da şükür deyirik, yoxsa da şükür deyirik.**

**Maşın adam vurur. Sağ qalanda da şükür, öləndə də şükür.**

**Ölümdən söz düşmüşkən şükür o qədər girib ki həyatımıza, hətta ölümümüzdə də şükür var. Özü də cürbəcür variyantda. Yatıb durmursan deyirlər ki, yenə şükür ki, əziyyət çəkmədən gedib. Yatıb durub ölürsən deyirlər ki, yenə şükür ki, son dəfə əzizlərin görüb getdi. Uşaqları evləndirməmiş ölürsən deyirlər ki, yenə şükür ki, yerbəyer etdi. Yatıb durub subay variyantda ölürsən yenə də deyirlər ki, şükürki subay öldü, uşağı olsaydı yetim qalasıydı. Hansı formada ölməyindən asılı olmayaraq şükür ordan üzü ağ çıxır. Elə mənim özüm də az şükür deyən deyiləm.**

**Bax elə bu yazını yaza-yaza şükür edirəm ki, nə yaxşı ki, MEDİA var. O bizə pul ayırmasa harda işləyib maaş alardıq?! Şükür ki, vaxtında evlənmişəm. Yoxsa indi evlənmək olar?! Şükür, siqareti atmışam, çörəklə vidalaşmışam ki, bahalığı bu variyantla sığortalayım. Şükür ki, bu çörək pulu var, ümumi büdcəmizə köməkdi. Şükür k, rayon işğaldan azad edildi. Yəqin ki, bir geniş ev verərlər canımız qurtarar bu beş nəfərin yaşadığı birotaqlı mənzildən. Şükür ki,...**

**İşğaldan söz düşmüşkən bu, günün ən böyük ŞÜKÜRÜ Qarabağdı.**

Məmməd ARAZ

# YA RƏBBİM, BU DÜNYA SƏN QURAN DEYİL

(əvvəli 1-ci səhifədə)

*Yolu çox genişdir gedər-gəlməzin,*
*Ağlımız bu yolla gəlsin-gəlməsin?*
*Bu gəliş nə gəliş,*
*Bəllisə sonu?*
*Bu gediş nə gediş*
*Kim qovur onu?*
*Ya rəbbim, xəlbirlə lovğa "mənləri",*
*Ələyib sovur da bölünənləri,*
*"Bizliyə", "sizliyə" bölünənləri,*
*Dağlıya, düzlüyə bölünənləri,*
*Keçir ələyindən lovğa "mənləri",*
*Keçir bölünməklə öyünənləri.*
*Çoxluğa sədd olan "azlığı" uçur,*
*Çoxluğu azlığın üzərində qur.*
*Kimdir qıl verəni fəndgir azların?*
*Kimdir yaradanı yaramazların?*
*"Əhdini cəhdinə girov qoyanlar?!"*
*Adını deməyək, deyək ki, "onlar"...*
*Gəlir qulağıma bir səs dərindən:*
*"Qoru sən özünü həndəvərindən!*
*Bir dinlə zamanın sevdiyi səsi:*
*Tülkü qaqqıltısı, qurd mələrtisi!.."*
*Ya rəbbim, sən qaytar bizi bizlərə,*
*Cala boz günləri ağ gündüzlərə,*
*Nə qədər itik var, -*
*Min artıq tapan,*
*Naxırsız naxırçı, sürüsüz çoban!*
*Qarışıb: xalq kimdi,*
*Xalqı çapan kim!*
*İşıq paylayan kim, işıq qapan kim...*
*Bu necə yuxudu... ayılmaq olmur,*
*Qaçanı qovandan ayırmaq olmur...*
*Nə qədər qaçacaq bu qaçan yazıq?*
*Nə qədər qovacaq bu qovan yazıq?*
*Ona "qaç" deyiblər - qaçır beləcə,*
*Buna "tut" deyiblər - qovur beləcə...*
*Ya rəbbim, mən sənə olanı dedim,*
*Azacıq yadımda qalanı dedim.*
*Bizə qalmayacaq nə bizə qalsa,*
*Dağ dağa qovuşsa, düz-düzə qalsa,*
*Qalan dərdimizi yükləsək əgər -*
*Kəl olsa, nər olsa - qəddi əyilər.*
*Ya rəbbim, arabir düş yanımıza,*
*Arabir ölçü qoy vicdanımıza.*
*Harda dinimiz var,*
*İmanımız yox,*
*İmana gəlməyə gümanımız yox;*
*Gəlsən tufanla gəl,*
*Tufanla qayıt,*
*Bu yeri, bu yurdu sahmanla, qayıt...*
*Ya rəbbim, bu dünya sən quran deyil.*
*Qudurğan sən görən qudurğan deyil,*
*İndi qudurğanın altında yatır...*
*İndi qudurğanlar uzun ömürlü,*
*Meymunlar yenə də ağacda yatır,*
*Fağırlar yenə də quzu ömürlü...*
*Ya rəbbim, bu dünya sən görən deyil!*
*Bü sədlər, sərhədlər sən hörən deyil.*
*Adını, soyunu dəyiş dünyanın,*
*Odunu, suyunu dəyiş dünyanın,*
*Yolunu, yönünü dəyiş dünyanın,*
*Ya rəbbim, bu dünya sən quran deyil,*
*Fəzada yerini dəyiş dünyanın...*

# Üçüncü dünya müharibəsi yaxınlaşırmı?

**Rusiya Ukraynaya hücumunu "Xüsusi əməliyyat", ABŞ və Qərb isə bunu bəzən müharibə, bəzən də Ukrayna ilə Rusiya arasında münaqişə adlandırırlar. Reallıqda isə Ukrayna torpaqlarında raketlər uçur, bombalar partlayır, insanlar kütləvi şəkildə tələf olur, şəhərlər, kəndlər xarabalığa çevrilir. Bir sözlə ABŞ -ın uzun illərdi Rusiyanı zəiflədib parçalamaq planları bütün gücü ilə davam edir, "çanax" isə Ukrayna xalqının başında çatlamaqdadır.**

ABŞ və Avropanın aparıcı dövlətləri Ukraynaya ən müasir hərbi texnikalar - silah-sursat göndərməkdə davam edir, Rusiya prezidenti Vladimir Putin isə ipə-sapa yatmayaraq hələki geri çəkilmək fikirində olmadığını israrla davam etdirir.

Almaniyanın "Telepolis" nəşrinin şərhçisi Berndt Müller hesab edir ki, "Almaniya kansleri Olaf Şoltsın bütün cəhdlərinə baxmayaraq, ABŞ Ukraynaya silah göndərməkdə davam edir və bununla da üçüncü dünya müharibəsini yaxınlaşdırır.

Əslində hazırda müharibə Rusiya ilə Ukrayna arasında getsə də, onlarla dövlət bu müharibədə hərbi gücləri ilə iştirak etməyəcəklərini bəyan etsələr də, faktiki olaraq ABŞ-ın elan etdiyi antirusiya sanksiyalarına qoşulmaqla və Ukraynaya silah yardımları etməklə müharibənin iştirakçılarına çevriliblər.

Bu günlərdə ABŞ -ın HHQ hərbi bazasında 40-dan artıq ölkənin nümayəndələrinin iştirakı ilə keçirilən iclasda, Ukraynaya əlavə hərbi kömək edilməsi məsələsini müzakirə ediblər. Görünən odur ki, ABŞ və Qərb vəziyyətin yumşalmasına deyil, üçüncü dünya müharibəsinə doğru getməyə daha çox üstünlük verirlər.

Təbii ki, Rusiya ABŞ -ın onun üçün hazırladığı "Ukrayna tələsinə" düşdüyünü gecdə olsa anlayır və artıq geri çəkilməyin onlar üçün, xüsusilə də prezident Vladimir Putin üçün ölümə bərabər olacağını başa düşürlər. Ona görə də son ümidləri olan nüvə silahlarında istifadə edəcəkləri barədə hədəli bəyanatlarla çıxış edirlər.



Rusiyanın xarici işlər naziri Sergey Lavrov açıq şəkildə bəyan edib ki, NATO-nun hərəkətləri nüvə müharibəsi ehtimallarını reallaşdırır. O, həmçinin üçüncü dünya müharibəsinin başlaması üçün, ABŞ- ın Ukraynaya hərbi qüvvələrinin göndərməyəcəyinə ümid etdiyini bildirir.

Rusiyanın Ukraynaya hücumundan iki həftə sonra, ABŞ prezidenti Co Bayden bəyan etmişdi ki, ABŞ və NATO Ukraynada Rusiya ilə müharibə aparmaq niyyətində deyil. Baydenin bu bəyanatından belə başa düşmək olar ki, ABŞ bu müharibəyə hərbi qüvvələri ilə qoşulmayacaq, lakin özləri və müttəfiqlərini Ukraynaya Rusiya işğalının qarşısını kəsmək üçün istədikləri qədər silah -sursat göndərəcək. Niyə də yox?

ABŞ planının əsas məqsədidə elə bu deylmiydimi? Qoy iki qardaş slavyan xalqları bir-birilərini sonsuzluğa qədər qırsınlar. Məhz buna görə də, yaranan böhran vəziyyətində tərəflər arasında atəşin dayandırılmasına, tərəfləri danışıqlar masası ətrafına toplamağa çalışan yegana NATO dövləti Türkiyənin sülh danışıqları təşəbbüsünü hər vəhclə pozmağa çalışdılar və müəyyən mənada hələki buna nail olmağı bacardılar da.

Dünya gücləri özləridə dərk etmədən ( bəlkə də dərk edərək) dünyanı "qaranlığa, cəhənnəmə sürükləyirlər". Anlamırlar və yaxud anlamaq istəmirlər ki, sürükləmək istədikləri bu dünyada qalib gələn tərəf olmayacaq.

**Son illər süni şəkildə yaratdıqları koronavirus həyəcanı ilə insanların psixoloji sağlamlıqlarına vurduqları ağır zərbədən sonra, indi də üçüncü dünya müharibəsi təhlükəsi ilə, özü də nüvə müharibəsi təhlükəsi ilə, deyəsən son nöqtəni qoymaq istəyirlər...**

**Rüstəm Hacıyev**

# Metroda maskadan istifadə ləğv edilsə də, sosial məsafəyə nəzarət olunacaq

**Mayın 1-dən qapalı məkanlarda maskalardan istifadə ləğv edilsə də, metro stansiyalarında karantin qaydalarına əməl olunmasına nəzarət ediləcək.**



Bunu Trend-in sorğusuna cavab olaraq Bakı metropoliteninin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov deyib.

O bildirib ki, tibbi maskanın istifadəsi ləğv edilsə də, ölkədə karantin rejimi hələ də davam etdiyindən metronun stansiyalarında da bu qaydalara uyğun nəzarət tədbirlləri davam etdiriləcək.

"Metropolitenin texniki işçiləri və insan resursları imkanları səviyyəsində karantin qaydalarına, Operativ Qərargahın tapşırıq və tövsiyyələrinə uyğun olaraq nəzarət olacaq. Metropolitendə yaradılan operativ qrup bu məsələlərə diqqət edəcək.

Bununla yanaşı, metropoliten stansiyalarında sosial məsafə və digər məsələlərlə bağlı mütəmadi monitorinqlər də keçiriləcək.

Maskadan istifadə ləğv edilsə də, sosial məsafə və digər qaydalarla bağlı işlər davam etdiriləcək.

Bu proses metropolitenin texniki imkanları çərçivəsində həyata keçiriləcək. Sərnişin sıxlığı yaranacağı təqdirdə bu məsələlərə ciddi diqqət yetiriləcək".

Mehman CAVADOĞLU

# Sülh müqaviləsi və rus sülhməramlıları



*Amerika dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Erika Olson aprelin 27-də Azərbaycana səfər edəcək. Bu ranqlı ABŞ rəsmilərinin bölgəyə səfərləri ənənəvi hadisə olsa da hazırkı gəlişin forması və formatı bir az fərqlidir, yəni, xanım Olson Azərbaycanın bir sıra rəsmi şəxsləriylə görüşdən sonra öz ölkəsinin regionda fəaliyyət göstərən missiyalarının rəhbərlərinin iştirakıyla keçirilən ənənəvi konfransa da qatılacaq. Xatırladaq ki, konfransda Vaşinqtonun Azərbaycan, Gürcüstan və Ermənistan səfirləri Erl Litsenberqer, Kelli Deqnan və Linn Treysi, eləcə də ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) təmsilçisi Mark Simakovski, Avropa və Avrasiya ölkələrinə yardım üzrə əlaqələndiricisi Qreq Naarden və nəhayət, Qafqazda danışıqlar üzrə böyük müşavir Endrü Şofer iştirak edəcəklər. Bildiyimiz kimi bu sonuncu şəxs ATƏT-in Minsk qrupunun həmsədriydi və son vaxtlar onun, eləcə də digər iki həmsədrin vəzifələrinin dəyişdirilməsi çox ilginc məqamdır, yeni reallıqların beynəlxalq güclər tərəfindən də qəbul olunmasının bariz nümunəsidir.*

*Təbii ki, 44 günlük müharibədən sonra bölgədə yaranmış yeni siyasi düzən sözü gedən konfransda da əsas müzakirə predmetlərindən biri olacaq. Müharibənin başa çatmasından ilyarım keçməsinə baxmayaraq, Azərbaycanla Ermənistan arasındakı sülh danışıqları hələ də ölü nöqtədə ilişib qalıb. Əsas vasitəçi rolunu üzərinə götürmüş Rusiya öz missiyasının öhdəsindən gəlməyi bacarmır, ya da ki, bunu istəmir. Sülh müqaviləsinin imzalanması və münaqişənin birdəfəlik həlli onun hazırkı militarist maraqlarına uyğun gəlmədiyini üçün ikinci versiya həqiqətə daha uyğun görünür.*

*Putin əvvəlki illərdən fərqli olaraq daha öz məqsəd və maramlarını diplomatik ibarələrlə pərdələməyə çalışmır, SSRİ-nin xiffətini çəkdiyini, onun süqutundan sonra Rusiyanın itirilmiş mövqelərinin bərpasını prioritet hesab etdiyini və bütün bunlara nail olmaq üçün müharibədən tutmuş siyasi-iqtisadi şantaja kimi ən müxtəlif üsullara əl atacağını gizlətmir, bir sözlə, açıq kartla oynayır. Hazırda Qarabağda yaranmış "nə sülh, nə müharibə" vəziyyəti də onu tamamilə qane eləyir. Çünki belə qeyri-müəyyənlik sülhməramlı kontingent adı altında hərbi baza saxlamaq üçün əla fürsətdir. Üstəlik, Qərbdəki erməni sevgisinə mübtəla qatı düşmənləri də buna görə onu qınamaq nədir, hətta alqışlayırlar.*

*Müharibədən sonra Ermənistanla Azərbaycan arasında Putinin vasitəçiliyi ilə üç sənəd imzalanıb və hər üç sənəddə onun imzası var. Bu gün-sabah 10 noyabr bəyanatının imzlanmasının iki ilii tamam olacaq, amma onun bir çox müddəaları hələ də yerinə yetirilməmiş qalır. Bölgədəki erməni silahlı birəşmələri bu günə kimi nəinki tərksilah olunmayıb, hətta Ermənistandan Qarabağa yeni-yeni silahlı zinvorların gəlməyi barədə vaxtaşırı məlumatlar yayılır. Eləcə də kommunikasiyaların açılması məsələsini götürək. Bundan ötrü üçtərəfli komissiya yaradıldı, bir neçə iclas keçirildi, müəyyən qərarların qəbul edildi, hansısa razılıqlar əldə olundu, nikbin açıqlamalar verildi və ardınca da rəsmi Yerevanın günahı ucbatından hər şey unuduldu, proses dalana dirəndi.*

*Təbii ki, Kreml rəhbərliyinin, xüsusilə Putinin ermənilərin öhdəsindən gələ bilmədiyini düşünmək sadəlövhlük olardı. Paşinyan hər nə qədər Qərbyönümlü olsa da Moskvadan çalınan havaya oynamağa məhkumdur. Nə müharibədəki məğlubiyyətdən sonra keçirilən növbədənkənar seçkilərdəki möhtəşəm qələbə, nə Qərbin dostu statusu hakimiyyətinin ilk dövründə Rusiyaya atdığı təpiklərin bədələni çox pis yaşamış baş nazirə öz şimal süzerəninə arxa çevirmək cəsarəti verə bilməzdi. Müxalifətə gəlincə isə hazırda az-çox elektorata malik müxalif təşkilatların hamısı birbaşa Kremlə bağlı olduqları üçün onların Putinin iradəsinə qarşı çıxmaları apriori mümkün deyil.*

*Bütün bunları ona görə xatırlatmaq zorundayıq ki, razılıqların icra edilməməsinin Ermənistandakı mürəkkəb vəziyyətlə əlaqələndirilməsi düzgün yanaşma deyil. Rusiya yuxarıda adını çəkdiyimiz razılaşmaların özünə lazım olan müddəalarını anındaca reallaşdırdığı kimi digər bəndələrinin icrasını da çoxdan yekunlaşdırardı. Bir mariginal bəzi qrupları çıxmaq şərtilə bu gün nə Yerevanda, nə də Xankəndində hətta Ukrayna müharibəsində ağır duruma düşmüş, gücüylə yanaşı simasını da itirmiş bugünkü Moskvanın iradəsinə qarşı getmək cəsarətində və həvəsində olan heç bir siyasi qüvvə yoxdur. Əgər razılaşma yerinə yetirilmirsə, deməli, bölgədəki hegemonloğunu qoruyub saxlamağa çalışan vasitəçi belə istəyir. Hərçənd, bu cür qeyri-müəəyyənlik bəlkə də qaytardılar xülyasıyla yaşayan və buna görə hər bəhanəylə sülh prosesini əngəlləməyə çalışan ermənilərin də maraqlarına çox uyğundur. Ancaq Azərbaycan və Ermənistan rəhbərlərinin Avrop Birliyinin prezidenti Şarl Mişelin vasitəçiliyi ilə Brüsseldə keçirilən görüşündən sonra bölgədəki nizamlama prosesində yeni situasiya yarandı. İndiyə kimi Rusiya kimi qatı erməniпərəst mövqe tutan AB də bu cür birtərəfliliyin fayda vermədiyini görüb problemin həllinə kifayət qədər neytral mövqedən yanaşmağa başladı. Şarl Mişelin görüşdən sonra verdiyi bəyanatda proseslərə kifayət qədər obyektiv mövqedən yanaşılması siyasi razılaşmaların əldə olunacağına ümidləri artırdı. Onu da qeyd eləyək ki, Putinin qəbulunda daxili bir diskomfort yaşayan Paşinyan üçün bu platforma xeyli doğma və cəlbedicidir. Təsadüfi deyil ki, Brüssel səfərindən qayıtdıqdan sonra münaqişənin mahiyyəti haqqında erməni cəmiyyətini təlatümə gətirən bir sıra açıq, ölkədəki siyasi konyukturanı nəzərə alası olsaq, həm də cəsarətli açıqlamalarla çıxış elədi ki, bu barədə ötən yazılarımızda geniş bəhs etdiyimizdən onların üstündə dayanmaq istəmirik.*

*Putinin tələm-tələsik onu Moskvaya çağırması da, heç şübhəsiz ki, AB-nin çətiri altında keçirilən danışıqların nəticələriylə bağlıydı. Məlumdur ki, bu danışıqlarda əldə olunan razılaşmalara görə aprelin 30- a kimi delimitasiya və demarkasiya məsələləri, eləcə də yekun sülh müqaviləsinin hazırlanmasıyla bağlı komissiyalar yaradılmalıydı. Artıq Azərbaycan tərəfinin həmin komissiyaları yaratmasıdı barədə mətbuatda informasiyalar da gedib.*

*Kremlin bu məsələdə hansı mövqe sərgiləyəcəyi hələlik müəmmalı olsa da bəzi məlumatlardan belə görünür ki, Moskva bu mərhələdə prosesə əngəl törətmək niyyətində deyil. Belə bir niyyət olsaydı, şübhəsiz ki, Paşinyanla ikitərəfli görüşdə bunu söyləyər və baş nazirin hazırkı davranışlaqrında onun əlamətləri gürünərdi. Hələlik, nəinki belə bir ab-hava hiss olunmur, əksinə bu yöndə bəzi nikbin açıqlamalar səslənir. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan sülh sazişinin hazırlanması prosesinin kimin idarə eləməsi barədə verilmiş sualın cavabında beş iştirakçının - Yerevanın, Bakının, Moskvanın, Brüsselin və Vaşinqtonun adını çəkib. Daha sonrasa deyib ki, sənədin imzalanması RF sülhməramlı kontingentinin Qarabağdan çıxardılmasını nəzərdə tutmur.*

*Görünür, Rusiyanın prosesə nisbətən dözümlü yanaşması da məhz bu məqamla bağlıdır. Hərçənd, vur-tut bir neçə gün əvvəl Rusiya XİN-in sözçüsü Mariya`Zaxarova Azərbaycanla Ermənistan arasındakı vasitəçilik təşəbbüsünə görə Brüsseli sərt və qeyri etik ifadələrlə ittiham eləmiş, Moskvanın 9 noyabr 2020-ci il, 11 yanvar və 26 noyabr 2020-ci il bəyanatlarına sadiq qaldığını bidirərək demişdi: " Bizi tarixi dostluq və müttəfiqlik bağlarıyla bağlı olduğumuz Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına hərtərəfli yardım edəcəyik".*

*Qarşıdakı günlərdə ABŞ-ın Bakıda keçirəcəyi regional konfrans da nə qədər ənənəvi tədbir olsa belə, heç şübhəsiz ki, ordakı əsas müzakirələr məhz bölgədəki bu tarixi gəlişmələr ətrafında gedəcək. Hər halda region çox mümüm tarixi mərhələyə qədəm qoyur və ümid edək ki, tərəflər arasında əldə olunmuş bu kövrək konsensus dayanıqlı bir sülh müqaviləsinin imzalanmasıyla nəticələnsin. Doğrudan da, hamı səmimi şəkildə buna çalışırsa, onda müqavilə imzalandıqdan sonra rus sülhməramlıları burda niyə qalmalıdırlar ki? Bax, təəssüf ki, A. Qriqoryan bu incə məqama aydınlıq gətirməyib.*

# "Orda bir köy var, uzaqda..." - 26 illik işğal, 28 illik həsrətim...

**Bu gün 26 apreldir! Bəlkə də hamı üçün adi bir gündür....lap adi...sıradan! Amma mən hər ilin bu gününü göz yaşı ilə keçirmişəm, ağlamışam, sızlamışam, taleyimi, gələcəyimi dəyişən , doğma, cənnət guşəsi kimi yurdumu, qayğısız gəncliyimi, nəvaziş dolu ailəmizi, sevgimi-sevincimi məndən zorla alan, məchulluğa qərq edən 26 aprel tarixini qəbr evinə qədər unudacağımı da sanmıram.**



Niyəsini bilmək istərdin deyilmi, əziz oxucum!?Elə isə həmin o ağladığım, sızladığım, korun-korun yandığım günlərdə 2018-ci ildə yazdığım bu yazını oxu:

İşğalda inləyən torpaqlarımız: Baş Qərvənd kəndinin işğalından 24 il ötdü

### *Bəlkədə alnımızın yazısı, taleyimizin işidir bilmirəm...*

... Çox ağırdı, 24 il köçkünlük adlı bir yükü, yurdsuzluq adlı bir dərdi ürəyinin üstündə gəzdirmək, gözlərinin didəsində saxlamaq, çiyinlərində daşımaq...3-4 yaşlı körpənin ana axtaran, ana soraqlayan gözlərindəki yetimlik ifadəsi ruhumuza hopub, vücudumuza hakim kəsilib elə bil.. Çıxa bilmirik o ifadənin təsirindən, ayrıla bilmirik yetimlik hissindən. Atalı-analı yetimik sanki. Qəribədi, il-il üstünə gəldikcə, aradan 24 il keçdikcə, nə qədər əzizlərimizi, doğmalarımızı itirdik... amma o itkilərlə barışdıq. Barışmadığımız, itkisini qəbullanmadığımız yurd-ocaq itkisi bizi yandırdı yaxdı. Hansı köçkün deyə bilər ki, mən yuxularımda da olsa o yurdu ziyarət etmirəm, o yerlərə dönəcəyimi xəyal edərək yaşamıram? Bunu deyəcək köçkün varmı?

Keçən o 24 il nələrimi almadı məndən? Dünyanın gərdişindən bixəbər uşaqlığımı, qayğısız günlərimi, analı-atalı, bacılı-qardaşlı xoşbəxt anlarımı aldı, apardı. Əyri-üyrü cığırlardan, tozlu-torpaqlı döngələrdən izimi sildi. İlk məhəbbətimi, gələcəyimi, sevgimi-sevincimi yerlə yeksan elədi. Itirdim və gözlərim yenədə anasını axtaran yetim körpənin gözlərinə döndü. Eynən, anasına bənzər bir qadını görən körpənin həyəcanı və xəyal qırıqlığı.. Hardasa bir kəhriz görürdüm, suyunu uçuna-uçuna içirdim, amma təsəlli tapa bilmirdim, çünki bu bizim kəhriz deyildi, heç ona bənzəmirdi də...Əppəkli dərəninin, Tosuyun kövşənliyinin qoxusunu heç yerdən ala bilmədim. 24 ildə nə qədər yağışa düşdüm , yağmurda mən və torpaq birlikdə islandıq...Amma yağış hopmuş o torpağın ətrini heç vaxt təkrar hiss etmədim...Bilirəm. bilirəm ki, eyni hissləri hər didərgin yaşayıb...

### *Axtardığım çörək ətri...*

Hələ Güləndam bibimin təndirindən ətrafa yayılan o əsrarəngiz çörək ətrini demirəm. Köçkünlüyün ilk illərində qəribsədiyim o qoxunu ciyərlərimə çəkmək üçün ondan təndir qalamasını, çörək bişirməsini xahiş etdim. Xahişimi yerə salmadı. Bişirdi təndirdə, qucaq boyda, qırmızıyanaq çörəkləri...Yox, yanılmışdım, nə o kənd bizim kənd idi, nə o təndir Güləndam bibinin təndiri idi, nə də həmişə xəmiri sevgilə-sevinclə yoğuran Güləndam bibi həmin Güləndam bibi idi..

***Kəndimizin yaxınlığından axan, yaz gələndə selə dönüb daşan Xaçın çayı elə bir gurultuyla, elə bir şırıltıyla axardı ki...Hələ gəbə, kilim, palaz yumağa gələn qızgəlinlərin çaylağı başına götürən səs-küyü, qəhqəhəsi... Bizim camaatımız da möcüzə idi. Özləri boyda möcüzə...Kasıbı da vardı, varlısıda vardı. Kasıbıda zəhmətkeş, istiqanlı, canıyanan, həmdərd, mehriban, zarafatcıl idi, varlısıda... Həmkəndlim "pavliyon Ənvər"in imkanı, varı-dövləti rayonda dillə deyilərdi, amma uşaqları bizdən də sadə, bizdən də səmimiydilər. 10 il bir məktəbdə oxuduq varlı-kasıb seçimini hiss etmədik. Köçkünlük tanışdırdı bizi varlı-kasıb seçimiylə..Bir dağ rayonundan kəndimizə yaşamağa bir ailə gəlmişdi. Evin kişisi rəhmətə getdi. Suma xala iki oğlu ilə çarəsiz qaldı. Evi yox, işi yox. Camaatımız onlara ev də tikdi, oğlanlarını işlə də təmin etdi, yeri gələndə "pay-pürüş" adı altında yardımda elədi...O kasıbın qəlbinə dəymədən, qürurunu sındırmadan kimin əlindən nə köməklik gəldi, bu ailəyə dəstək oldular.***



### *1994-cü ilin 26 aprelindən sonra biz yazı hiss etmədik*

Böyük bir kənd bir nəfərin ölüsünə elə onun qədər yas saxlayardı. 40 gün o böyük kənddə toy çalınmaz, musiqi səsi eşidilməzdi. Bayramlarda da yaslı ailəni unutmaz, onun süfrəsinin boş keçməsinə razı olmazdılar. Bayram demişkən, hər il kəndin gəncləri-qızlı oğlanlı axır çərşənbə gecəsi kəndin lap ortasında qurduqları çadırda təntənəylə bayram şənliyi keçirərdilər. Hər kəs evindən bayram xonçası-şirniyatlar gətirər, çay süfrəsi açılardı. Vüqarın nağarasının, Seymurun qarmonunun səsi səhərə qədər kəsilməzdi. Rəqs edərdik, yorulanda lətifə danışar, bəzəndə hamını yamsılamaqda "ustad" hesab edilən Abilin "çıxışlarına" qulaq asardıq. Heç kəs incimirdi. Hamı elə ürəkdən gülürdü-ki...Səhər obaşdan hamımız kəhrizin üstünə gedər, yeni gün münasibətilə su içər, əl-üzümüzü yuyar, apardığımız boş qablarda su gətirib həyət -bacaya səpərdik... Burnumun ucu göynədi, gözlərim doldu. ..Biz necə xoşbəxt imişik, İlahi!

### *Orda bir köy var, uzaqda...*

Yuxularımda gəzirəm qatı qaranlıq çökmüş o yolları, aralıqları, elə hey axtara-axtara gəzirəm.. tapa bilmirəm itirdiklərimi...Yuxudan ayılanda içimdə bir boşluq, bir ümidsizlik gözlərim elə hey yol çəkir... Təəssüf!Yüküm yeyir məni, zərrə-zərrə bitirir, çürüdür məni... Dodaqlarım isə asta-asta pıcıldayır:

*Orda bir köy var, uzaqda.*
*O köy bizim köyümüzdür.*
*Getməsək də, gəlməsək də.*
*O köy bizim köyümüzdür.*

*Orda bir yol var, uzakta.*
*O yol bizim yolumuzdur.*
*Dönməsək də, varmasak da,*
*O yol bizim yolumuzdur.*

***P.S.*** **Baş Qərvənd inzibati ərazi nümayəndəliynin sədri Zakir Əliyev: 1994-cü il aprel ayının 26-da təcavüzkar Ermənistannın silahlı qüvvələri tərəfindən işğala məruz qalan Baş Qərvənd Ağdam rayonunda ən böyük kəndlərdən biri hesab olunurdu. Kəndin sovetliyinə Baş Qərvənd, Şıxlar, Orta Qərvənd, Ayaq Qərvənd kəndləri daxil idi.**

**Kəndin ümumi ərazisi olan 3719 hektarın 2469 hektarı (Baş Qərvənd və Şıxlar kəndləri) Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub. Hazırda Orta Qərvənd və Ayaq Qərvənd kəndləri olmaqla 1250 hektar ərazi faktiki bizdədir.**

**Kəndimizin əhalisi 5750 nəfərdən ibarətdir ki, bu da 1337 ailə deməkdir. Hazırda 1140 ailə respublikanın müxtəlif bölgələrində köçkünlük həyatı yaşayır, işğal olunmamış kəndlərimizdə isə 197 ailə yaşamaqdadır. Erməni işğalçıları ilə döyüşərək həlak olan 16 igid döyüşçümüzü, bombardman zamanı isə 8 dinc sakini itirmişik".**

### *28 ilin həsrətlisiyəm...*

Bəli, bu yazını ağlaya-ağlaya yazanda ağlımın ucundan keçmirdi ki, cəmi iki ildən sonra mən kəndimizin bir köşəsində durub dəli ağlamaqla -dəli gülməyin arasında girinc qalacağam... Bilmirəm, indiyənə qədər doğma kəndimə gedib evimizə, həyətimizə məktəbimizə, ayaqyalın gəzdiyim çölə-çəmənə getməməyimin səbəbi rəsmi orqanlardır, yoxsa onlardan küsən - inciyən mən...

Amma, mənim sevgilim olan Vətən, ilk eşqim olan kəndim azaddırsa, xoşbəxtdirsə, deməli, ona qovuşmağa xeyli əngəl qoyulsa belə ondan uzaqlarda elə mən də xoşbəxtəm! Xoşbəxt olduğum üçün də tez-tez deyirəm: Azərbaycan Ordusui, xilaskarı olduğun azad yurduma görə, sənə qurban olum! Sənin ayaqların dəyən (mütləq o ayaqlar Baş Qərvəndə də dəyir) yerdən öpürəm!

***P.P.S.*** **Baş Qərvənd kəndi işğaldan 26 il sonra işğaldan azad olundu, amma mən yenə də ona 28 ildir həsrətəm!**

**Əntiqə Rəşid**

Aqil ABBAS

# NİYƏ HƏMİŞƏ PİS ŞEY AXTARIRIQ...

*Saytlarda, sosial şəbəkələrdə bir video paylaşıblar. "Baku TV"nin müxbiri Mübariz Aslanov Zelenskinin metroda keçirdiyi konfransda Ukrayna prezidentinə bir sual ünvanlayır. Sual qalıb qıraqda, onun belə bir mətbuat konfransına düşməyi, ön cərgədə oturmağı, sualda Azərbaycanı xatırlatmağı qalıb kənarda, düşüblər üstünə ki, rus dilində qrammatik danışmır.*



*Bir tərəfdən rus dilinin əleyhinə gedirlər, digər tərəfdən də kimisə rus dilini bilməməkdə günahlandırırlar.*

*Bizim Ukraynadakı səfirliyimizin əməkdaşlarının çoxu, başda səfir Elmira Axundova olmaqla hələ güllə səsi eşitməmiş bu ölkəni tərk edəndə "Baku TV"nin bu əməkdaşı yollanıb Ukraynaya, birbaşa bombaların, raketlərin, güllələrin altına, öz vəzifə borcunu yerinə yetirməyə. Və iki aydan çoxdur ki, ölümü gözünün qabağına alıb reportajlar hazırlayır Azərbaycan tamaşaçıları üçün. Həm də özəl televiziya işçisidir. Getməyə də bilərdi.*

*Onun da ailəsi var, yəqin ki övladları var, valideynləri var. Və bu müddətdə görün onun valideynləri, ailəsi nə çəkir. Allah eləməmiş hər bir an ölüm xəbəri gələ bilər.*

*Bəs, rus dilini qrammatik bilən jurnalistlər hardaydı?*

*Allahın amanında, Həzrət Abbasın zamanında ol, qardaş. Qısqanclıqdan və paxıllıqdan gələn belə şeylərdən də dilxor olma.*



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

# ...Ölməyə də yeri yoxmuş...

**...Bir çoxları çətinə düşəndə ya dünyanı qınayır, ya da zəmanəni və deyir ki, əşi, bu dünyanın və zəmanənin üzü qara olsun, bizi pis günə qoyub. Amma dərindən düşünəndə görürük ki, bizi pis günə qoyan nə zəmanədi, nə də dünya. Və bizi pis günə qoyan elə biz özümüzük. Yəni biz insanlar heç vaxt tamahına üstün gələ bilmir. Tamahına üstün gələ bilməyəndə də bir insan digərinin haqqını yeyir, ədalətini mənimsəyir və utanıb qızarmadan üstündən də su içir...**

**...Bu gün hara gedirsən, kimə işin düşürsə, çox nadir halda səni incitməzlər və nəsə ummazlar. Hətta bəzi vəzifəli şəxslər o qədər qudurub ki, hər hansı bir işi yoluna qoymaq, düzəltmək üçün şəhid ailəsindən, iki ayağını və qolunu itirmiş Qarabağ qazisindən rüşvət alır. O qədər belə vəzifəli şəxslər olub ki və bu gün də var, onları saymaqla qurtarmaq olmaz. Zalım bir vəzifəli şəxsi çıxarıb, onun yerinə bir başqasını qoyurlar, elə bilirlər ki, hər şey dəyişəcək. Düzdü, hər şey dəyişir, amma vəziyyət əvvəlkindən də dözülməz və ağır olur. Belə olanda təzə vəzifəyə gəlmiş adam özündən əvvəlkilərin yeddi arxa dönəninə rəhmət oxutdurur. Hərçənd ki, onların da ölənlərinə rəhmət düşmür. Oğrunun, quldurun fərqi yoxdur. Biri az oğurlayır, biri ondan bir az artıq oğurlayır, biri də lap çox oğurlayır. Yəni həmin adamlar eyni bir medaldır, bir üzü əvvəlkidir, bir üzü də indiki...**

**Böyük Bəxtiyar Vahabzadənin bir fikri yadımıza düşür. "Allah, sən bizi aclardan yox, tox vəzifəlilərdən qoru. Çünki onların qarınları doysa da, var-dövləti başlarından aşsa da, tox olsa da, gözləri doymur ki, doymur". Bəli, bizim vəzifəli şəxslərimizin bir çoxunun, lap açığı deyək, əksəriyyətinin gözü doymur ki, doymur. Dünyanı onlara versən də, yenə deyəcəklər ki, acından ölürük.**

**...Kasıb adamın bu gün yası düşməsi çox müsibətdir. Ən azından ona görə ki, Bakıda hər hansı qəbiristanlıqda yer almaq üçün nə qədər pul ödəməlisən. Düzdü, qanunda göstərilir ki, həmin yerin qiyməti 200-300 manat civarındadı. Amma bu görünən tərəfdi. Görünməyən tərəf də ondan ibarətdir ki, hətta şəhərin ən ucqar yerində qəbir yeri min manatdan aşağı deyil. Qəbrin qazılması və digər lazım olan tələbləri də əlavə edəndə bu bir ətək pul edir. Qəfil rəhmətə gedəni olan kasıb adam isə bu pulu hardan tapıb ödəməlidir? Bakının Yasamal qəbiristanlığında, eləcə də digər mərkəzi yerlərdə bir qəbir yerinin qiyməti beş min, altı min manat və daha bahadır. Üstəlik də bəzi işbazlar qəbir yerləri ilə alver edirlər. Yəni kimlərsə əvvəldən cüzi məbləğdə pul ödəyib yeri alır, indi onun on qat, iyirmi qat qiymətinə satır. Düzdü, pulu olanlar əziyyət çəkmədən onu alır. İmkanı olmayanlar isə məcbur olub borc-xərcə düşərək Hovsanda və ondan da uzaq yerlərdə qəbir yerləri alsınlar və rəhmətə gedənlərini dəfn eləsinlər.**

**İndi deyilənlərə görə, Bakının qəsəbələrində və eləcə də digər yerlərdə qəbiristanlara nəzarəti bələdiyyələr edirlər. Hamıya da məlumdur ki, bələdiyyələrin də elə bir səlahiyyəti yoxdur. Ancaq səlahiyyəti olmasa da bu nəzarət onların ixtiyarındadı. Nə başınızı ağrıdaq, bizim məmləkətdə də ixtiyar sahibi olan kiməsə görüm-baxım eləməsən, saqqalının altından keçməsən və bığını yağlamasan çətin ki, sənə müftə-müsəllim məzar yeri verər.**

**Qardaş Türkiyədə imkansız adamların yas məclisləri və dəfn mərasimi bələdiyyələr tərəfindən təşkil olunur. Düzdü, bizdə bələdiyyələrin bayaq dediyimiz kimi, imkanları türklər qədər deyil, amma tamahlarına üstün gəlsələr, heç olmasa imkansız və kasıb adamlara az da olsa kömək göstərmək mümkündür. Ancaq bir şərtlə ki, o vəzifəli şəxslər vicdanlı və ədalətli olsun. Bunu isə məmləkətimizdə, vəzifə kreslosunda əyləşmiş vəzifəli şəxslərin çoxuna aid etmək olmaz. Ən azından ona görə ki, onları xalqa xidmət yox, gündə qazanacaqları pul maraqlandırır. Vəzifəli şəxs var ki, bir gün işə gedib-qayıdanda pul qazanmasa, səhərə qədər rahat yatmaz və ürəyi partlayar...**

**...Adam o qədər ümidsizləşir ki, heç Bakıda dəfn olunmaq istəmir. Yenə qurban olum öz elimizə, obamıza, torpağımıza. Yəni rayonda yas vermək də asandı, qəbir yeri üçün də heç bir pul ödənilmir. Yası düşən adamların çox çətinlikdən və yükdən xəbəri olmur. Çadırın qurulmasından tutmuş, qəbirin qazılmasına, sementin, qumun, mişar daşının gətirilməsinə qədər bütün məsələləri qohum-əqrəba təşkil edir. Yas sahbinə bircə qalır rəhmətə gedəninə normal dəfn eləmək. Bax, hər yerdə belə olsa, camaat da qəbir yeri haqqında, çadır haqqında düşünməz və dərdi başından aşmaz. Amma nə eləmək olar ki, məmləkətimizin əksər yerlərində dəfn mərasimləri çox ağırdır, kasıb və imkansız adamlar həmin anlarda çox böyük sıxıntı və ehtiyac içində yaşayırlar. Bu isə birmənalı olaraq insanlarda ümidsizlik, inamsızlıq və cəmiyyətə bir etinasızlıq yaradır.**

**Yazımızı Vaqif Bayatlı Odərin aşağıdakı misraları ilə bitirmək istəyirik:**

**Bu dünyada sirr axtarma,**
**Bu dünyanın sirri yoxmuş.**
**Yaşamağa yer axtarma**
**Ölməyə də yeri yoxmuş...**

# Blinken: "Putin qarşılıqlı diplomatik əlaqələrdə maraqlı deyil"

**ABŞ-ın dövlət katibi Entoni Blinken Senatın beynəlxalq əlaqələr komitəsinin dinləmələrində bəyan edib ki, Rusiya prezidenti Vladimir Putinin Kiyevlə qarşılıqlı diplomatiq əlaqələr yaratmaqda maraqlı deyil.**



"Biz həläki prezident Putinin konstruktiv danışıqlara qarşı pozitiv niyyətlərini görmürük"- deyə Blinken dinləmələrdəki çıxışında bildirib.

Ötən bazar günü, dövlət katibi Entoni Blinken və müdafiə naziri Lloyd Ostin Ukrayna prezidenti Volodimir Zelenskiylə körüşmək üçün gözlənilmədən Kiyevə səfər ediblər. Bu görüşdən sonra dövlət katibi ilk olaraq senat komitəsinin dinləmələrində Ukraynadakı vəziyyətlə bağlı çıxış edib. Blinken çıxışında qeyd edib ki, Ukraynaya silah göndərilməsi davam etdiriləcək. Onun sözlərinə görə, ABŞ Ukraynadan sorğu alandan cəmisi 72 saat ərzində hərbi köməkləri Ukraynaya çatdırır.

"Rusiyanın ilk həftələr ərzində işğal etdikləri ərazilər artıq tam olaraq Ukraynanın nəzarətinə keçib. Biz Kiyevdə canlanan şəhərin cizgilərini gördük, insanlar küçələrdə rahat gəzir, skamiyalarda oturaraq dincəlirlər. Biz gözlərimizlə gördük ki, ukraynalılar Kiyev uğrunda döyüşlərdə qalib gəlib" - deyə Blinken məlumat verib. Dövlət katibi sözlərinə əlavə edərək bildirib ki, ABŞ-ın Ukraynaya dəstək göstərməyə çalışmasında əsas məqsədi, Ukraynanın Rusiya aqresiyasını dəf etmək imkanlarının olmasına inanmasına nail olmaqdı. ABŞ dövlət karibi bildirib ki, Ukrayna hücum etməmişdən qabaq Rusiya ilə aparılan danışıqlar zamanı bizə məlum oldu ki, Putinin Ukraynanın NATO -ya daxil olması ilə bağlı şikayətləri, bu ölkəyə hücum etmək üçün bir bəhanədir. "Biz danışıqlara ciddi yanaşaraq, müzakirə olunan məsələlərə diqqəti yönəltməyə çalışırdıq. Lakin Putinin öz dilindən eşitdiyimiz sözlərə görə, söhbətin Ukraynanın NATO -ya daxil olmaq potensialından getmədiyini, Kremlin sadəcə olaraq Ukraynanın suveren, müstəqil dövlət olmağa hüququ yoxdur prizmasından yanaşdığına əmin olduq".

**ABŞ-ın Xarici şiyasət idarəsinin başçısı ABŞ-ın Ukraynaya köməklik etmək məsələsinə sadiq qalacağını bir daha təsdiq edib. "Mən, ABŞ-ın Ukrayna hökumətinə və xalqına göstərdiyi dəsdəyə görə qürur duyuram və əminəm ki, sona qədər bu dəstəyi göstərməkdə davam edəcəyik"- deyə Blinken bildirib.**

**Rüstəm Hacıyev**

# Media nümayəndələri üçün təlimlər keçirilib

**"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin 2021-2023-cü illər üzrə "Kommunikasiya Strategiyası"nın Fəaliyyət Planına əsasən media nümayəndələrinin içməli və tullantı su sektoru ilə bağlı bilik və təcrübələrinin artırılması məqsədilə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə birgə media nümayəndələri üçün təlimlər keçirilib.**



Adalet.az-ın məlumatlına görə, təlim və İnnovasiyalar Mərkəzində təşkil olunan tədbirdə 40-dan artıq media orqanının nümayəndələri iştirak edib.

Təlimdən əvvəl iştirakçılar Təlim və İnnovasiyalar Mərkəzi və mərkəzin təcrübə poliqonunda yaradılmış şəraitlə tanış olublar.

"Azərsu" ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Cəbrayıllı bildirib ki, təlimin keçirilməsində məqsəd son dövrlər müşahidə olunan iqlim dəyişiklikləri, su ehtiyatları və onlardan səmərəli istifadə, əhalinin içməli və tullantı su xidmətlərindən istifadəsinin yaxşılaşdırılması sahəsində "Azərsu" ASC-nin həyata keçirdiyi tədbirlər barədə mətbuat nümayəndələrinin bilik və təcrübələrini artırmaq, onların bu sahədə ixtisaslaşmasına dəstək göstərməkdən ibarətdir.

Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli kommunal sektorda, o cümlədən su təchizatı sahəsində jurnalistlərin ixtisaslaşmasının vacibliyindən danışıb və qeyd edib. Bildirib ki, təlimlər kütləvi informasiya vasitələri nümayəndələrinin bu sahə üzrə biliklərinin artırılmasını və gələcək fəaliyyətlərində ictimaiyyətə dolğun informasiyanın çatdırılmasına kömək göstərəcək.

Təlimdən öncə "Azərsu" ASC-nin fəaliyyətin ilə bağlı təqdimat keçirilib.

"Azərsu" ASC-nin Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadur Kəngərli "Azərbaycanda həyata keçirilmiş içməli su layihələri və onların əhəmiyyəti", Medianın İnkişafı Agentliyinin şöbə müdiri Natiq Məmmədli "Media subyektlərində ixtisaslaşma və onun üstünlükləri", Xəzər Universitetinin mərkəz rəhbəri Rövşən Abbasov "İqlim dəyişikliklərinin Azərbaycanın su ehtiyatlarına təsiri və sudan səmərəli istifadə", "Sukanal" Elmi Tədqiqat və Layihə İnstitutunun direktor müavini Elnur Nəsirov "İqlim dəyişikliklərinin içməli su mənbələrinin məhsuldarlığına təsiri", Texnoloji proseslərə nəzarət, suyun təhlükəsizliyi və ekologiya şöbəsinin rəisi Cəmil Babayev "Suyun keyfiyyəti insan sağlamlığı üçün əsas amillərdən biridir", Elektron idarəetmə və müasir texnologiyalar departamentinin rəis müavini Cabbar Cabbarlı "Sudan səmərəli istifadə, israfçılığın və qanunsuz qoşulmaların qarşısının alınması ilə bağlı görülən tədbirlər" mövzularında təqdimatla çıxış ediblər. Tədbir zamanı mövzularla bağlı müzakirələr aparılıb, jurnalistlərin sualları cavablandırılıb.

**Təlimin sonunda iştirakçılara sertifikatlar təqdim edilib.**

# Könül Nurullayeva AŞPA-da Azərbaycanın sülhə dair təklif etdiyi baza prinsiplərinin detallarını açıqlayıb

**"BMT Təhlükəsizlik Şurasının təxminən 30 il əvvəl qəbul etdiyi Azərbaycanın ərazilərinin işğaldan azad olunmasını nəzərdə tutan 4 qətnaməni 2020-ci ilin payızında Azərbaycan özü icra etdi. 44 günlük müharibə dövründə Azərbaycan beynəlxalq humanitar hüququn təməl prinsiplərinə ciddi şəkildə riayət edib."**

Milli Məclisin deputatı Könül Nurullayeva AŞPA-nın sessiyasında çıxışı zamanı bu fikirləri səsləndirib. Deputat bildirib ki, 2-ci Qarabağ savaşı başa çatandan dərhal sonra Azərbaycan Ermənistana sülh təklif etdi.

Hazırda Brüssel sülh gündəliyi formalaşıb və Azərbaycan qarşı tərəfə 5 prinsip təqdim edib:

"Belə ki, 2021-ci il dekabrın 14-də Brüsseldə, eyni zamanda bu il fevralın 4-də videoformatda, aprelin 6-da Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Azərbaycan və Ermənistan rəhbərləri arasında görüş baş tutdu. Aprel görüşündə tərəflər sərhəd üzrə komissiyaların və eyni zamanda, sülh sazişi üzrə işçi qrupların yaradılması barədə razılığa gəldi.



Aprel görüşündən əvvəl Azərbaycan iki dövlət arasında münasibətlərin normallaşması üçün beş baza prinsipini qarşı tərəfə təqdim edib.

Bu prinsiplər dövlətlərin bir-birlərinin ərazi bütövlüyünü tanıması, bir-birlərinə qarşı ərazi iddialarının olmamasına dair hüquqi öhdəliyin götürülməsi, bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən çəkinmək, sərhədlərin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, eləcə də nəqliyyat və kommunikasiyaların açılışını nəzərdə tutur.

Yəni, Azərbaycanın təklif etdiyi prinsiplər istənilən ölkələr arasında dövlətlərarası münasibətlərin təməl prinsipləridir."

K.Nurullayeva qeyd edib ki,Brüssel görüşünün nəticələrinə uyğun olaraq Azərbaycan tərəfi sərhədlərin delimitasiyası və demarkasiyası üzrə komissiyanın və iki ölkə arasında sülh müqaviləsinin hazırlanması üzrə nümayəndə heyətinin tərkibini də artıq müəyyən edib.

Azərbaycan qarşı tərəflə "Bakı-Yerevan" formatında danışıqlara hazırdır:

"Biz Ermənistandan da real addımlar gözləyirik. Amma təəssüf ki, bu razılaşmalara baxmayaraq, Ermənistan sərhəddə təxribatlar törədərək, sülhə mane olan addımlar atır."

Deputat həmçinin humanitar məsələlərin həllinin də vacibliyini qeyd edib. Diqqəti mina terroruna və 1-ci Qarabağ müharibəsi zamanı itkin düşmüş azərbaycanlıların taleyinə yönəldib: "Bölgədə dayanıqlı sülhü şərtləndirən amillərdən biri də humanitar məsələlərin həllidir.

İşğaldan azad olunmuş ərazilərdə Azərbaycan ermənilərin basdırdığı minalardan ciddi şəkildə əziyyət çəkir.

Son ilyarımda əksəriyyəti mülki insanlar, hətta media nümayəndələri olmaqla 200-dən çox azərbaycanlı minaların qurbanı olub. Eyni zamanda birinci Ermənistan-Azərbaycan müharibəsindən etibarən itkin düşmüş hesab olunan 4000 nəfərə yaxın azərbaycanlının taleyinə də aydınlıq gətirilməlidir. "

**Deputat beynəlxalq təşkilatların sülh prosesinə töhfə verməsini vacin hesab edib: "Beynəlxalq təşkilatlar Azərbaycan və Ermənistan arasında etimad quruculuğu prosesinə töhfə verə biləcək bir platforma rolunu oynamalıdır. Bu, bölgədə dayanıqlı sülhün və əməkdaşlığın möhkəmlənməsi, insanların rifahını təmin etmək üçün vacibdir."**

# "Rusiya Qəhrəmanı" Adam Delimxanov kimdir?

## Kadırovun ögey qardaşı, "Cəllad" ləqəbli deputat, 314-cü milyarder...

**Rusiya prezidenti Vladimir Putin Dövlət Dumasının deputatı Adam Delimxanova "Rusiya Qəhrəmanı" adı verib.**



Adalet.az Vesti.ru-ya istinadən xəbər verir ki, fərman hüquqi informasiyanın rəsmi internet portalında dərc olunub.

Qeyd olunur ki, bu ad Delimxanova "xüsusi hərbi əməliyyat zamanı göstərdiyi şücaət və qəhrəmanlığa görə" verilib.

Kimdir bu Adam Delimxanov?

Rusiya üçün önəmli çeçnlərdən biridir desək yanılmarıq. Çünki bu şəxs özünü tanıyandan Rusiya kimi bir ölkədə vəzifə və yüksəliş pillələri ilə irəliləyib. O, dövlət xadimi, Çeçenistan Respublikası Baş nazirinin müavini (2006-2007).

V, VI və VII çağırış Rusiya Dövlət Dumasının deputatı, Vahid Rusiya Partiyasının üzvü, VII çağırış Dövlət Dumasında Dövlət Dumasının Təhlükəsizlik və Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin üzvü, İçkeriya səhra komandiri Salman Raduevin şəxsi sürücüsü olub.

Maneəsiz yüksəlməyində bir səbəbdə Çeçeistan Respublikasının Prezidenti Ramzan Kadırovun yaxın qohumu olmasıdır.

25 sentyabr 1969-cu ildə Çeçen-İnquş Muxtar Sovet Sosialist Respublikasının Noji-Yurt rayonu Benoy kəndində anadan olan qəhrəman bəzi mətbuat orqanalrında Kadırovun ögey qardaşı kimi qeyd edilir. Çeçenistanda "Cəllad" ləqəbi ilə tanınan Delimxanovun, iddialara görə, yüksək vəzifəli bəzi məmurların ölümündə əli olub .

Belə ki, 2008-ci ildə Moskvanın mərkəzində keçmiş Dövlət Dumasının deputatı Ruslan Yamadayevin öldürülməsindən sonra qardaşı İsa Yamadayev "Moskovski Komsomoles" qəzetinə verdiyi müsahibəsində Delimxanovu cinayəti birbaşa təşkil etməkdə günahlandırır.

2014-cü ilin iyul ayında ABŞ Maliyyə Nazirliyi Delimxanova qarşı sanksiyalar tətbiq edir. ABŞ-dakı aktivlərin dondurulmasını və bu ölkə vətəndaşları ilə ticarət əməliyyatlarının qadağan edilməsini təmin edilir. Maliyyə Nazirliyi hesab edir ki, Adam Delimxanov "Qardaşlar dairəsi" transmilli cinayətkar qrupunun Qafur Rəhimovun "əsas üzvünün adından və ya maraqlarından çıxış edir"

**"Finans" jurnalının 2011-ci ilin əvvəlində tərtib etdiyi 500 rusiyalı milyarderin reytinqində Adam Delimxanov 314-cü yeri tutur. Onun kapitalı 300 milyon dollar və ya 9,1 milyard rubl olaraq qiymətləndirilir.. 2011-ci ilin rəsmi məlumatlarına görə, Delimxanov 1,9 milyon rubl, həyat yoldaşı isə 187 min rubl gəlir əldə edib.**

**Əntiqə Rəşid**

**(Yazıda Vikipediyanın məlumatlarından istifadə edilib)**

Emin Piri

# MÜHARİBƏ GÜLMƏCƏLƏRİ



*Bilirəm, deyəssiniz gülməcələri, zarafatları niyə indi yazır?*

*Bəs, nə vaxt yazmalıydım? Ən azından insanların acısı vardı, ağrılıydı. Ona görə də ən azından bir ili gözləmək lazım idi. Öncə bəzilərini yazmışdım, indisə bəziləri...*

## MƏNİM SUBAYLIQ MƏSƏLƏM

*İllər öncə N saylı hərbi hissədə xidmətdəyəm. Əlahiddə tabordu. Hazırda yerləşdiyi yer ləğv olunub. O vaxtı həmin rayonda bir neçə terrorist aktivlik yaranmışdı deyə yaratmışdılar.*

*Nə isə, həmin gün hərbi hissə növbətçisi mənəm.( ayrıca tabor növbətçisi də deyə bilərik. Zatən bizdən başqa tabor yoxdu.)*

*Həvəsim yarandı, əsgərləri yığdım, futbol oynamağa başladıq.*

*Yarım saat sonra NBM növbətçisi gəldi ki, bəs iki polkovnik gəlib türkcə danışırlar. Təlim və.s bildiyiniz belə şeylər üçün ara-sıra təkrarlanan məsələlərdir. Getdim. İdman formasındayam. Rütbə və.s təbii ki, üzərimdə deyil. Türkiyəli polkovnik qayıtdı ki, subay senmisin?*

*Bir anlıq özümü itirdim. Subaylığın hərbiyə nə dəxli, Türkiyə-Azərbaycanın, ordularımızın ortaq problemi, məsələsi mənim subaylığımdı?*

*Yaşım az idi, bir anlıq elə bildim bura gəlmək səbəbləri mənim subay olmağımdı. Bikef hərbi hissədə oturub nə olacağını gözləyirəm. Elə bilirəm nəsə olacaq. Hərbi Hissə komandirimiz də gəldi.*

*Sonda bildim ki, subay deyərkən zabit olmağımı soruşurlar. Türklər zabitə subay deyirlər.*

## MƏN EMİN PİRİYƏM, E

*Çıxış olmayıb. Düzülüşdəyik. Nəyəsə əsəbləşdim. Bir anlıq kiməsə hirsləndim, dedim; Emin Piriyəm, e..( ardına ehtiyac yoxdu)...*

*Zabit yoldaşlardan biri yaxınlaşdı ki, Allah canını sağ eləsin, orda nə idin, özün bilərsən. Burda Piriyevsən, get xidmətini elə!*

*Ta ondan sonra demədim...)*

## BU NƏ SAÇDI?!

*Müharibə bitəndən 15 gün sonra Xocalı-Şuşa istiqamətindən Cəbrayılın kəndinə-toplanış yerinə qayıtdıq( vaxtilə bu kənddə ermənilərin hərbi hissəsi yerləşirdi.)*

*Dedim ta bitib müharibə, şairliyim və.s eqom artıb.*

*Dedim yuxarı komandanlıqda olan şəxslərlə görüşüm, yazı,müsahibə hazırlayım. Baxma da, orda hazırlayanda babat mövzu olar deyə düşünürəm. Başımda çeçenka papaq getdim. Həmin vaxt korpusun qərargah rəisi olan general-mayorun qarşısına çıxdım.( müharibədən sonrasa korpus komandiri oldu. Ta özünüz bildiniz kimdi)*

*Ağzımı açmamışdım ki, çeçenka papağı başımdan dartdı.*

*-Cənab leytenantttt, bu nə saçdı?*

*Açığı saçımı heç kəsdirməmişdim bu müddətdə. İtaliya klublarının kubok oyununda ehtiyatda gözləyən futbolçuların saçlarına bənzəyirdi. Əslində, bu baxımdan haqlı idi.*

*Yanında olan iki polkovnik leytenant tez üzərimə düşdü;*

*-Tez elə bölməni de.*

*Özümü itirdim, anidən qaçmağa başladım palatkalarımıza doğru...*

## ERMƏNİ RAKETLƏRİNİ ALQIŞALAMAQ

*İlk günlər Abşeronada yerləşən N saylı hərbi hərbi hissəyə bizim hissəni iki günlük təlimçün apardılar. Biz çatar çatmaz hərbi hissənin bir neçə yüz metrliyində dəhşətli ballistik raket partladı. Ermənilər atmışdı, eyni vaxtda üst-üstdə düşməsi və s aydındı niyə.*

*Plasda olan əsgərlər anidən alqışlamağa başladı. Elə bildilər bizimkilərdi, təlim keçir.*

*Bu vaxt alqışlara hirslənən yüksək rütbəli zabitlərdən biri:*

*-Bu g..laqları hardan gətiriblər?*

*-Sumqayıtdan, Bakıdan...*

*15 dəqiqə sonra hərbi hissə ətrafından səmanı yaran iki ədəd raket boy verdi.*

*Həmin zabit bu kərə:*

*-Bax, indi bunu alqışlayın, Bakıdan birbaşa Xankəndiyə getdi...*

## NƏTƏR DEYƏK Kİ, NƏ ÜSTÜNDƏ ÖLDÜ?

*İlk günümüzdü. Uzandığımız səngər dərinliyi yarım metri keçməz. Baxan kimi, istiqamətinə və.s. bilirsən ki, I Qarabağ savaşından qalan, bizimkilərin qazdığı səngərdi. İçini də ot basıb.*

*İlk günlər belə idi, yağış kimi minamyot və top mərmiləri düşür.*

*Yüngül ehtiyacım var. Səngər həyatına və.s özü-özlüyündə səngəri zibilləməmək və bu kimi yüngül nəsə etməmək düşüncəsi hələ də qalıb.*

*Hər dəfə qalxıram ki, nəsə edim, mərmi düşür, mən də tullanıram səngərə. İki dəfə bu təkrarlandı. Axırda əsgərim Mansur qayıtdı ki, komandir, qurban olum, iş.. səngərə. İndi mərmi tutacaq səni, ölsən nətər camaata deyək ki, Piriyev qəhrəmanlıqla i..əmək üstündə həlak oldu?*

*(ardı var)*

## *Arxayınlıq*

**Nazirlər Kabineti yanında Operativ Qərargah may ayının 1-dən tibbi maskalardan məcburi istifadə etməyi ləğv edir. Yəni, mayın 1-dən kim istəsə, könüllü olaraq tibbi maskaları taxa da bilər, taxmaya da. Başqa sözlə demiş olsaq, maskadan istifadə etməməyə görə, heç kim cərimə edilməyəcək. Əlbəttə, əhali bu məhdudiyyətin götürülməsini çox böyük sevinclə qarşılayır.**



Amma bu o demək deyil ki, ölkəmizdə pandemiya bitib. Pandemiya bitməyibsə, deməli bizdə arxayınlıq yaranmalı deyil. Ən azından ona görə ki, digər gigiyenik sanitar-qaydalara əməl etməliyik. Yəni, əlimizi yumalı, dezinfeksiya etməli və bir sözlə, təmizliyə riayət olunmalıdı. Çünki arxayınlıq COVİD-19-un yenidən tüğyan etməsinə gətirib çıxara bilər.

## *Sürücülər sürət həddini aşırlar*



**Bir çox sürücülər respublikanın avtomobil yollarında radarlar olsa belə, sürət həddini aşırlar. Bu isə o deməkdir ki, qəzalar qaçılmaz olur. Avtomobili yüksək sürətlə idarə olunması birmənalı olaraq yol hərəkəti qaydalarının pozulması deməkdir. Yol hərəkəti qaydasının pozulması isə bir çox halda ölümlə nəticələnir. Axır vaxtlar respublika əhəmiyyətli avtomobil yollarında sürət həddinin aşılması ilə əlaqədar qəzalar xeyli artıb. Hətta bu yaxınlarda Bakı-Qazax yolunun Kürdəmir istiqamətində xarici markalı avtomobilin sükanı arxasında əyləşmiş sürücü yüksək hərəkət edərkən idarəetməni itirib və nəticədə avtomobil beton maniyə çırpılıb. Qəza zamanı həm sürücü, həm də həyat yoldaşı hadisə yerində dünyasını dəyişiblər.**

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polis baş leytenantı Toğrul Nəsirli bir daha sürücülərə müraciət edərək bildirir ki, respublika əhəmiyyətli avtomobil yollarında sürət həddinə əməl etsinlər, ötmə əməliyyatını dəqiq yerinə yetirsinlər, ara məsafəsi saxlasınlar və yuxulu vəziyyətdə sükan arxasında əyləşməsinlər. Ancaq yol hərəkəti qaydalarına əməl etməklə bu qəzalardan və təhlükədən xilas olmaq mümkündür.

**Emil FAİQOĞLU**

# Ünsiyyət

**...Bu gün bizim çox şeyimiz çatışmır; ünsiyyətimiz çatışmır, səmimiyyətimiz çatışmır, mehribanlığımız çatışmar, sədaqətimiz və sevgimiz çatışmır. Belə baxanda elə düşünürük ki, hər şey yerli-yerindədi. Amma dərindən fikirləşəndə görürsən yox, balam, heç də hər şey yerində deyil və pərən-pərən düşüb. Pərən-pərən düşən həm də bizim arzularımız və istəklərimizdi. O arzular ki, uzun illərdi, onu gözləyirik, qarşılamaq istəyirik. Amma həyata keçdiyini görmürük. Əlbəttə, heç də hər şey birdən-birə və bir anın içərisində üzə çıxmır. Üzə çıxmayan həm də bizim bir-birimizə olan ünsiyyətimizdir...**

...Adam var deyir ki, ata-anasını, qardaşını, bacısını düz 2 ildi görmür. Ən yaxşı halda onlarla ya mobil telefonla, ya da ev telefonları ilə əlaqə saxlamalı olur, bir çoxları bunu pandemiya ilə əlaqələndirirlər. Düzdü, COVİD-19-un yayılması və 2 ilə yaxın tüğyan eləməsi də insanlar arasında ünsiyyəti, mehribanlığı, gediş-gəlişi tamamilə azaldıb. Amma mobil telefon çıxandan, eləcə də kompüterlərdən istifadədən sonra insanlar sanki robotlaşıblar, yadlaşıblar və bir-birini axtarmaq belə istəmirlər.

Düzdür, pandemiya ilə bizim aramızda bir soyuqluq yaratdı və biz də onun qorxusundan ən doğmamızın evinə belə gedə bilmədik. Burda müəyyən qədər həqiqət də var. Ancaq həqiqət olmayan odur ki, axı, heç biz pandemiyadan əvvəl də biz doğmalarımızı, əzizlərimizi axtarmırdıq. Amma yaxşı bəhanə tapdıq. Koronavirus var, buna görə də heç kimin qapısını, daha doğrusu, qardaşın, bacın qapısını açmadıq...

...Qapı da açılmayanda insanlar bir-birinə yadlaşır, hətta doğmalar da yaddan çıxır, unudulur. Belə məqamda insan hətta insanlıqdan belə



uzaq düşür. Birindən soruşurlar ki, qardaşın rəhmətə getmişdi, yasında iştirak elədin, ya yox?! O da deyir ki, koronanın üzü qara olsun. Elə bir dəfnə getdim, tay ondan sonra o qapını açmıram.

İndi ki, koronavirus tüğyan eləmir. Bəs indi niyə doğmalar bir-birini axtarmırlar, aramırlar?! Hətta kimsə toy edir, ən yaxın adamlar min bir bəhanə ilə o toydan yayınır. Yaxud da yaxın bir qohumu dünyasını dəyişir, heç onun da bir dəfə olsun belə yas məclisinə getmir. Bəhanə gətirir ki, hələ pandemiya bitməyib. Qorxuram ki, xəstələnəm...

...Bax beləcə zaman-zaman biz bir-birimizdən uzaqlaşırıq. Uzaqlaşdıqca da ünsiyyətimiz, mehribanlığımız və səmimiyyətimiz bizdən uzaqlaşır. İndi siz deyin, biz hansı yolu tutaq ki və hansı yolla gedək ki, əvvəlki səmimiyyətimizi və ünsiyyətimizi qaytara bilək. Bütün günü telefondan sallaşırıq, televizora baxırıq, kompüterdə eşələnirik, amma bir saat vaxt tapıb xəstə bacımıza, qardaşımıza dəymək istəmirik. Və o vaxt hər şeyi başa düşürük ki, əzizimizi, doğmamızı, yəni qardaşımızı, bacımızı itirmişik. Bax, onda da hər şey gec olur.

Heç mənim özüm də yönlü deyiləm. Pandemiya dövründə bir dəfə olsun qardaşımla görüşə bilmədim. Ən yaxşı halda yas məclislərində bir-birimizin üzünü gördük. Və o rəhmətə getməmişdən əvvəl əmim oğlu Ziyanın üçü günü kənddə görüşdük. Adam o qədər çox idi ki, heç bilmirdim kimlə söhbət edəsən. Qardaşım Elxan qonaq-qaradan ayrılıb gəlib mənimlə görüşdü. Sonra da yanımızda əyləşdi. Qaynı Əli müəllim də onun yanında idi. Elə oldu ki, qonaqlar ayağa qalxdı və Əli müəllim də durdu. O da həmin qonaqları ötürüb harasa getdi. Bir tikə çörək yeyəndə heç onu görmədim. Elə bir ürəyimə nəsə dammışdı. Bakıya qayıdanda onu axtardım. Dedilər ki, çadırın içindədi. Girdim yas yerinə. Gördüm ki, tək oturub küncdə çox fikirlidi. Çünki əmim oğlu Ziyanı həddindən artıq çox istəyirdi. Məni görən kimi ayağa qalxdı. Beli ağrıdığına görə dedim ki, əyləş, gəldim səninlə görüşüb gedəm. Dedi yox ey, qoy səni ötürüm! Gördüm çox əziyyət çəkir. Dedim ki, qardaş, belin ağrıyır, əziyyət çəkmə. Qucaqlaşıb, öpüşüb, görüşüb ayrıldıq. Deyirəm, nə yaxşı, onunla sonuncu dəfə belə səmimi görüşə bildim. Yoxsa ürəyim partlayardı. Və bu mənə böyük təsəllidi. Özü də mən gedəndən sonra deyib ki, Faiqlə çox mehriban görüşdük. Dərdi çoxdur. Amma nə lazımsa, ona kömək edəcəm. Onsuz da o mənə həmişə kömək eləmişdi. Ən çox mən onun sağlığını istəyirdim və çətin anımda heç ona bildirmirdim. Amma bir də gördün hardansa eşidib və mənə kömək göstərir...

**Bax, ona görə deyirəm ki, doğmalarınızla, əzizlərinizlə ünsiyyəti itirməyin. Çünki o ünsiyyət olmayanda hər hansı əziziniz Allahın dərgahına qovuşanda sizi yandırıb yaxacaq. Çünki ünsiyyətin itməsi İnsanlığın, Adamlığın itməsi deməkdir. Həm də ünsiyyətin itməsi doğmalarının, əzizlərinin və səni sevənlərin yaddan çıxması ilə bitir. Deməli, biz nəyimizi itirsək də, onu sonradan tapa bilərik. Amma ünsiyyəti itirsək, bizim itirdiklərimiz daha ağır olacaq. Bax, belə! Bilmirəm, necə alındı. Bildiyim odur ki, mən qardaşım Elxanı itirəndən sonra axırıncı dəfə onunla görüşüm mənə böyük təsəllidi. O təsəlli olmasaydı, bəlkə də ürəyim çoxdan partlamışdı...**

**Faiq QİSMƏTOĞLU**

# Toyunda özünə şəhidlik arzulayan qəhrəman

**(oçerk)**



İri addımlarla səhnəyə tərəf addımladı. Onun bu qətiyyəti toy iştirakçılarının təəccübünə səbəb oldu.

Birinci dəfə idi ki, bəy, öz toyunda səhnəyə çıxır və çıxış üçün söz istəyirdi. Toyun aparıcısı, məşhur müğənni də təəccüblə sözü bəyə verdi. Pəncəli Teymurov mikrofonu götürərək, ürəyindən gələn bu sözləri dedi:

"Dostlar, həqiqətən bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidq ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".

Hamı bir anlıq donub qalmışdı. Onun ürəyindən çıxan bu sözlər heç də indi düşünülməmişdi. Bu illərin arzusu idi. Pəncəli Teymurov hələ uşaq yaşlarından müəllim olmaq istəyirdi. Ancaq günlərin bir günü onun qərarı başdan ayağa dəyişdi. Xocalı soyqırımı ilə bağlı kadrlara baxan 9 yaşlı Pəncəli Teymurov birdən ayağa durmuş və qətiyyətlə demişdi: "Mən müəllim yox, hərbçi olacağam. Vətəni bu yağı düşməndən təmizləyəcəyəm!".

Ətrafdakılar alqışlamağa başladılar. Pəncəli Teymurovun öz toyunda bu cür ürəkdən çıxış etməyi hər kəsi qürurlandırmış, onların ürəyini dağa döndərmişdi.

Pəncəli Teymurov uşaqlıq arzusunu daim həyata keçirməyə çalışırdı. 1999-cu ildə hərbi xidmətə yola düşdü. Burada kəşfiyyatçı kimi özünü göstərə bilmiş, bir sıra əməliyyatları uğurla həyata keçirmişdi. Əsgərlikdən sonra könüllü olaraq ordu sıralarına yazılan Pəncəli, Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin taborlarından birində xidmətə başlamışdı.

Kəşfiyyatçı kimi daim düşmənin cəbhəsinin arxasında xidmət göstərmişdi. Bu xidmətlərdən biri də 2015-ci ildə olmuşdu...

O, Kəlbəcərə, düşmən tapdağı altında olan torpaqlara ayaq basmışdı. Bu dəfə gizli yollarla keçsə də, bilirdi, daha doğrusu buna bütün qəlbi ilə inanırdı ki, bu torpaqlara bir də qayıdacaq. Pəncəli Teymurov kəşfiyyat dəstəsi ilə birlikdə verilmiş gizli tapşırığı həyata keçirməli, düşmənin hərbi texnikasını məhv etməli idi. Bu məqsədlə meşənin içərisində gizlənərək, gecənin düşməyini gözləmişdilər. O qədər ehtiyyatla hərəkət edirdilər ki, hətta gecənin səssizliyində belə onların hənirtiləri diqqət çəkmirdi. Tapşırıq üzrə düşmənin hərbi texnikasına əvvəlcədən hazırladıqları patlayıcı maddələri yerləşdirdilər. Bu tapşırığın ən çətin tərəfi güllə atmadan, heç kimə görünmədən bu işi həyata keçirmək idi. Məhz bu çətinliyi nəzərə alan komandan heyəti bu işi Pəncəli Teymurova tapşırmışdı.

Pəncəli Teymurov tapşırığın birinci mərhələsini həyata keçirib, arxaya meşəyə çəkildi. Artıq səhərə qədər gözləmək qalırdı. Səhərin ilk şəfəqləri açılırdı, dan yeri təzəcə sökülürdü ki, səhərin sükutunu böyük gurultu pozdu. Qığılcımlar ətrafa yayıldı. Pəncəli Teymurov isə olanları uzaqdan müşahidə edirdi. Üzündə acı bir gülümsəmə var idi. O, uşaqlıq arzusuna yavaş-yavaş çatdığını hiss edirdi. Ancaq arxayın olmaq olmazdı. Hələ görüləcək işlər qabaqda idi. Vaxt itirmədən geriyə, hərbi hissəyə qayıtdı. Bu partlayışın səsi-sorağı uzun müddət davam etdi. Ermənistan Silahlı Qüvvələrində böyük çaxnaşma yaranmışdı. Təhlükəsizliyin düzgün qurulmaması, xidmətin düzgün təşkil edilməməsindən dolayı Ermənistan ordusunun bir neçə yüksək rütbəli hərbçisi vəzifəsindən uzaqlaşdırıldı, rütbələri aşağı salındı. Hadisə ilə bağlı hətta cinayət işi də açıldı. Məlumatlara görə, Pəncəli Teymurovun bu ustalığı nəticəsində düşmən ordusuna məxsus bir neçə hərbi texnika, ağır artirelliya və iyirmidən çox hərbçi məhv edilmişdi. Onun bu uğuru qarşı tərəfin böyük qəzəbinə səbəb oldu. Bir səhər bütün cəbhəyanı bölgələrə əmr göndərildi: "Pəncəli Teymurovun başına 1 milyard dram qoyulsun. Onun ölüsünü ya da dirisini gətirən mükafatlandırılsın". Əmr birbaşa Ermənistan ordusunun ən yüksək postu tərəfindən imzalanmışdı.

Bu xəbəri eşidən Pəncəli Teymurov rahat bir nəfəs aldı. Artıq istəyinə çatmaq üçün bir addım atmışdı. O, düşmənin qorxulu röyasına çevrilə bilmişdi. Komandirləri onunla təkbətək görüş keçirir, bundan sonra daha da ehtiyyatlı olmağı ona bərk-bərk tapşırırdılar. Pəncəli Teymurovun ürəyində isə özü də bilmədiyi bir arxayınlıq var idi, bəlkə də əməliyyatın verdiyi rahatlıq onu buna sövq edirdi. Heç təsadüfi deyil ki, Pəncəli Teymurovun bu xidməti uğuru Ali Baş Komandan cənab İlham Əliyevin də diqqətini çəkdi və onu "İgidliyə görə" medalı ilə təltif etdi. Cənab prezidentin bu mükafatı onun ürəyindəki rahatlığı daha da artmışdı. O, artıq doğru yolda olduğuna bir daha əmin olmuşdu.

Gizir Pəncəli Teymurov Azərbaycan hərb tarixində xüsusi yeri olan Aprel döyüşlərində də şücaəti ilə ön plana çıxa bilmişdi. O, Talış yüksəkliyində çox sayda düşmən əsgərini məhv etmişdi. Son döyüşündə də Pəncəli Teymurov son damla qanına qədər döyüşmüş, ölümü ilə də düşmənlərə böyük zərbə vurmuşdu. Aprelin 3-ü, Talış yüksəkliyi uğrunda döyüşlər gedirdi. Pəncəli Teymurov yüksəkliyin alınması üçün yoldaşları ilə birlikdə döyüşə girmiş, saatlarla davam edən döyüşdə onlarla erməni hərbçisini məhv etmişdi. Nəhayət onun olduğu komandanı dağıtmaq haqqında Ermənistan baş qərargahından xüsusi əmr gəlmişdi. Bundan sonra Pəncəli Teymurovun komandası mühasirəyə alındı.

Onlar təslim olmur, dayanmadan döyüşürdü. Son mərmisinə qədər döyüşən gizir sonda komandiri ilə birlikdə şəhidlik mərtəbəsinə ucalır. O, doğulub-böyüdüyü Astara rayonunun Əzərüd kəndində torpağa tapşırıldı. Pəncəli Teymurovdan geriyə göstərdiyi igidliklər və bu sözlər qaldı:

**"Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".**

**Emin Piri**

## *İstehlakçılara 214 milyon manata yaxın ƏDV məbləği qaytarılıb*

**2020-ci ilin may ayından ölkədə pərakəndə ticarət və iaşə obyektlərindən alınmış mallara görə ödənilən ƏDV-nin bir hissəsinin geri qaytarılmasını nəzərdə tutan mexanizm uğurla tətbiq edilir, layihə iqtisadiyyatın şəffaflaşdırılması istiqamətində mühüm nəticələr verir.**

Dövlət Vergi Xidmətindən verilən məlumata görə, bu günədək alınan mallara görə ödənilən ƏDV-nin bir hissəsinin qaytarılması üçün www.edvgerial.az portalında 1,7 milyona yaxın istifadəçi qey-



də alınıb."ƏDV geri al" layihəsinin tətbiq edildiyi vaxtdan 2022-ci ilin 1-ci rübünün sonunadək portalda qeydiyyatdan keçmiş istehlakçılara ümumilikdə 536.252.529 kassa çeki üzrə 213,9 milyon manatdan çox, təkcə bu ilin yanvar-mart ayları ərzində isə 107.998.512 çek üzrə 42 milyon manatdan çox ƏDV məbləği geri qaytarılıb.

Qeyd edək ki, 2021-ci ilin 1-ci rübü ərzində istehlakçılara 67.101.388 kassa çeki üzrə 26,7 milyon manatdan çox ƏDV məbləği qaytarılıb.

Qeyd edilib ki, ƏDV-nin müəyyən hissəsinin qaytarılması üçün ilk növbədə, istehlakçı, yəni alış-veriş edən və ya xidmətdən yararlanan tərəf fiziki şəxs, satıcı və ya xidmət göstərən tərəf isə ƏDV ödəyicisi olmalıdır.

”Eyni zamanda, alınan mal və ya xidmətlər də ƏDV-yə cəlb olunmalıdır. Digər məqam satıcının yeni nəsil kassa aparatlarından istifadə etməsi ilə bağlıdır. ƏDV-nin bir hissəsinin qaytarılması yalnız yeni nəsil kassa aparatlarının tətbiq olunduğu obyektlərdə mümkündür. Hazırda ölkə üzrə tətbiq edilən onayn kassaların sayı 58.095-dir.

**İstehlakçı alınan malların dəyərini nağd və ya nağdsız qaydada ödəyə bilər. Nağd ödəmələr zamanı satıcı istehlakçıya onlayn nəzarət-kassa aparatının çekini təqdim edir. Malların dəyəri nağdsız qaydada ödənildikdə və POS-terminal nəzarət-kassa aparatı ilə inteqrasiya olunmadıqda, istehlakçıya əlavə olaraq POS-terminaldan çıxarış da verilməlidir”,- deyə əlavə edilib.**

## *Daha bir məntəqə ruslardan geri alındı*

**Ukrayna ordusu Xarkov vilayətinin Ruska Lozova kəndini azad edib.**

Bu haqda ”Ukrayna 24” telekanalı rəsmi məlumat yayıb.

Qeyd edək ki, kənd Xarkov-Belqorod xətti üzərində yerləşir və xüsusi strateji önəm daşıyır.

# Düşmən tanklarından "yəhudi buterbrodu" hazırlayan – ALBERT AQARUNOV

**Hava buludlu idi. Göyüzü qaşqabağını töküb, ağlamağa bəhanə axtarırmışcasına buludları sağdan sola, soldan sağa sovururdu. May ayının 8-i idi. Erməni silahlı qoşunları Şuşaya girməyə çalışırdı. Tank komandiri Qaqik Avşaryan rəhbərlikdən Şuşaya ilk girən erməni olmaq üçün icazə istəmişdi. Rəhbərliyin razılığını aldıqdan sonra 442 nömrəli tankına oturdu. Sürücü mexanik Aşot Avensyana göstəriş verdi:**

***- Ara, sür e, sür. Şuşa bizi gözləyir.***

Sonra ağzının ucu ilə mahnı mızıldanmağa başladı. Kefi kök idi, Şuşa bir neçə kilometr uzaqlığında idi. Adını tarixə yazdıracaqdı. Cəld arxaya çevrildi. Atıcı-artirelist Şahen Sarkisyandan soruşdu:

***- Bayrağı götürmüsən?***

***- Hə, komandir.***

***- Göstər görüm. Sən huş şeysən.***

Sarkisyan bayrağı qaldırdı. Avşaryanın üzündəki gülümsəmə yenidən peyda oldu.

***- Bəlkə də, siz başa düşmürsünüz. Amma bu böyük gündür. Şuşaya bayrağı ilk asan ermənilər olaraq tarixə düşəcəyik.***

442 nömrəli tank ağır-ağır irəliləməyə - onları gözləyən sona doğru addımlamağa başladı.

***

Tankın lüləyini gah sağa, gah sola çevirdi. Albert Aqarunov 553 nömrəli tankda oturub ətrafı izləyirdi. O, Elçin Məmmədovun başçılıq etdiyi 777 nömrəli xüsusi təyinatlı batalyonun tərkibində Şuşanın müdafiəsində durmuşdu. O, batalyona könüllü yazılarkən, əslən yəhudi olsa da, Azərbaycan torpaqları uğrunda döyüşməyi özünə şərəf duyduğunu demiş, özünü bu vətənin balası kimi ölkəsinə borclu olduğunu bildirmişdi. Bu sözlər Elçin Məmmədovun ürəyini dağa döndərmişdi. Gözləri yaşarmış, Albert Aqarunovu bağrına basmışdı. Albertin gözü dağlarda, fikri-xəyalı isə çox uzaqlarda idi.Doğulub-böyüdüyü Əmircan kəndini xatırladı. Necə qayğısız-xoş günlər keçirirdi. Bir zamanlar musiqi aləti tutan bu əllər indi, silah tuturdu. Bu fikir beynində cövlan etdiyi andaca, bir anlıq bədəni ürpəşdi. Yenidən diqqətini qarşısına yönəltdi. Uzaqdan onlara tərəf gələn bir qaraltı görünürdü. Diqqətini cəmləyib çox uzaqdan görünən qaraltıya baxdı. O, tankı yaxşı tanıyırdı. Bu düşmən tankı idi. Ancaq səbrli olmalı idi. İndi atəş açsa düşməni hürküdə bilərdi. Odur ki, gözləyib tankın daha da yaxınlaşmağını gözləməli idi. Ümumi təchizatı yoxladı. Hər şey qaydasında idi, lazım gələndə atəş aça bilərdi. İndi isə sadəcə gözləmək qalırdı. Cəbhəyə gəldiyi günü xatırladı. İsrailə vizasını stolun üstünə atıb gəlmişdi. Müharibə gedə-gedə dostlarını, vətənini qoyub gedə bilməzdi. Bəlkə ölkədə sabitlik yarananda sonra bu barədə düşünmək olardı. Vaxt ötür, düşmən tankı isə daim irəliləyirdi...

***

Qaqik Avşaryan Şuşanın mərkəzinə doğru irəlilədikcə çəpik çalır, oynayır, yanındakıları da oynamağa səsləyirdi.

***- Ara, oynayın da, oynayın. Belə günü bir də harda görəcəksiniz?***

Bu an göy guruldadı, yerlə göy sanki bir oldu. Avşaryanın sözü ağzında qaldı, 442 nömrəli erməni tankı göyə sovruldu. Tankdan qalxan alov sanki buluda qədər çatırdı.



Albert Aqarunovun üzündə xəfif bir gülümsəmə peyda oldu. Artıq o, buna öyrəşmişdi. Vurduğu düşmən hərbi zirehli texnikasının sayını itirmişdi. Bu dəfəki uğuru isə başqa bir məna daşıyırdı. Şuşanın mərkəzinə bayraq sancmaq üçün üçün gələn düşmən tankını məhv etmişdi. Bayrağı da, düşmənlərin bədənlərini olduqları yerə gömmüş, tikələrini göyə sovurmuşdu.

***

Tankın vurulmağı düşmən cəbhəsində böyük təşvişə yol açmışdı. Rəhbərlik nə edəcəyini bilmirdi. Bu hərbi uğursuzluq əsgərlər arasında qorxuya səbəb olmuşdu. Odur ki, çox gec olmadan hücuma başlanılmalı idi. Divizion komandiri hücuma keçməklə bağlı əmr verdi. Dayanmadan Şuşaya yiyələnmək lazım idi. Düşmən qüvvələri özünü cəmləməyə, hücuma keçməyə hazırlaşırdılar.

***

Əks tərəfdə isə əhval-ruhiyyə yüksək idi. Elçin Məmmədov batalyonu başına yığmışdı. O, Albert Aqarunovu xüsusi təbrik etdi.

***- Yoldaşlar, Albert Aqarunov döyüş tapşırığını layiqincə yerinə yetirdi. Buna görə ona təşəkkür edirəm! Ancaq rahatlaşmaq olmaz. Döyüşü qazanmışıq, müharibə isə qabaqdadır. Çox keçməz ki, düşmən böyük hücuma başlayar. Ehtiyyatlı olmaq lazımdır. Mövqelərimizdə möhkəm durmalıyıq.***

Bu çıxışdan sonra hər kəs öz mövqeyinə çəkildi.

Albert Aqarunov da mümkün döyüş meydanını nişan almaq üçün özünə mövqe uyğun seçdi. Axşam tərəfi idi. Düşmən qüvvələri onlara tərəf irəliləyirdi. Ermənilər say baxımından üstün idilər. Hərbi texnikaları da onlarındakından çox idi. Bu Alberti xüsusi düşünməyə vadar edirdi. Başqa nə edə bilərdi? Düşmən artilleriyası atəşə başladı. Düşmən əsgərləri atəşin altında irəliləyirdi. Artilleriya qarşı tərəfə göz açmağa imkan vermirdi. Azərbaycan əsgərləri səngərlərdə, sığınacaqlarda dayanıb, atəşin kəsməyini gözləyirdilər. Elçin Məmmədov artilleriyaçılara göstəriş verdi. Ətrafda qulaq tutulurdu. Yer-göy bir olmuşdu.

İrəliləməyə çalışan düşmən əsgərləri bir-bir yerə sərilirdi. Düşmənin yan-yana dayanan tankı, Azərbaycan hərbçilərinin mövqe seçdikləri təpəni dayanmadan vururdu. Toz-torpaq ətrafı bürümüşdü. Əsgərlər sərgərlərdən çıxıb atəş aça bilmirdilər. Albert Aqarunov ümumi mənzərəni izləyir, aradabir atəş açırdı. Ancaq bu kifayət etmirdi. Daha nəsə etməliydi. Əsgər yoldaşlarına köməklik göstərməliydi. O, Sovet dövründə Gürcüstan artilleriyasında qulluq etmişdi. Burada tankla bağlı bir çox yenilikləri öyrənmişdi. Hələ o dövrdə, tankla çevik hərəkətinə və dəqiq nişanalmasına görə fərqlənirdi. Hətta ermənilər ona öz tərəflərində Qarabağda döyüşməyi təklif etmişdilər. O, isə bunu deyən ermənini döyməklə cavab vermişdi. Həmin dövrlərdən qalan biliklərini cəmlədi. Tankı geri sürməyə başladı.

Elçin Məmmədov digər təpədən döyüşü durbinlə izləyirdi. Albertin geri çəkildiyini görüb, bir anlıq tərəddüd etdi. Axı, o, niyə belə bir şey etsin? Bəlkə vurulub? Ya da tankda nəsə xüsusi nasazlıq yaralanıb? - deyə düşündü. Ancaq çox keçmədi ki, 533 nömrəli tank cəbhənin başqa istiqamətində göründü. Elçin Məmmədovun ürəyi sakitləşdi. O, bilirdi ki, təcrübəli tankçı Albert Aqarunova güvənmək olar. Mövqeyini dəyişibsə, mütləq nəsə bilir. Albert yeni mövqeyində möhkəmlənib, koordinatları dəqiq hesabladı. Tankın lüləsini şimal-şərqə tərəf çevirdi. Dərindən nəfəs aldı. Planını həyata keçirsəydi, dostlarına çox böyük xeyir verəcəkdi. Gözlərini yumdu və bir daha dərindən nəfəs aldı. Gözlərini açan kimi atəş açdı. Sanki bir anlıq cəbhədə döyüş dayandı. Kimsə nə baş verdiyini anlamamışdı.

Hamı çaşqınlıqla ətrafına baxırdı. Düşmənin iki tankı birdən məhv edilmişdi. Bu hərb tarixində görülməmiş bir hadisə idi. Albert Aqarunov bunu bacarmışdı. Bir güllə ilə iki dovşan-düşmən tankını vurmuşdu. Hamı bunun necə baş verdiyini anlaya bilmirdi. Hətta təcrübəli döyüşçü Elçin Məmmədov da gördüklərinin bir xəyal olduğunu zənn etdi. Ancaq çox keçmədi ki, onun üçün hər şey aydın oldu. Qışqıraraq ”Albertə eşq olsun”, ”ermənilərdən ”yəhudi buterbrodu” hazırladı” dedi.

Döyüş davam edirdi. Təəssüf ki, vurulan tanklara, göstərilən şücaətə rəğmən düşmən qüvvələri sayca çox olduğu üçün geri çəkilmir, əksinə irəliləyirdilər. Hər iki tərəf itki vermişdi. Azərbaycan əsgərləri qarşıdakı meşəlikdəki mövqeləri möhkəmləndirmək üçün getdikdə, beziləri düşmən gülləsinə tuş gəlmiş, yolun içindəcə canlarını tapşıraraq şəhid olmuşdular. Albert sözügedən mövqeni dəstəkləmək üçün tankını yenidən hərəkətə gətirdi. Dayanmadan irəliləyir, oradakı əsgər yoldaşlarına tez bir zamanda kömək etmək üçün tələsirdi. Tank avtomobil yoluna çıxdı. Çox az məsafə qalmışdı. Ancaq yolda onun şəhid olan hərbçi yoldaşlarının cəsədləri var idi. Cəsədlərə çatanda tankı dayandırdı, yanındakı yoldaşına dedi:

***- Şəhidlərimizin üzərindən keçmək olmaz. Buna razı ola bilmərəm. Gözlə burada mən yolu açım, şəhidlərimizi yuxarı qoyum, sən də yavaş-yavaş irəlilə. Albert tez qapağı açıb, tankdan düşdü. Göz yaşları içində şəhidləri bir-bir qucağına alır, yolun yaxınlığındakı qayalığın üzərinə qoyurdu. Daha bir cansız bədəni götürəndə, arxadan çiynindən bir ağrı hiss etdi. Geri qanrılmağa fürsət tapmamış, ikinci güllə onu yaxaladı. Albert Aqarunov vətəni uğrunda gedən döyüşlərdə şəhid oldu.***

Onun dəfnində minlərlə insan iştirak edib. Albert Aqarunov Şəhidlər Xiyabanında dəfn edilib. Onun dəfn mərasimində həm İslam dininə uyğun olaraq molla, həm də iuadizmə uyğun olaraq ravin məzarı başında dua oxuyub.

Adını hərb tarixinə əfsanəvi tankçı kimi yazdıran Albert Aqarunov ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülüb. Onun təhsil aldığı 154 nömrəli məktəbə Albert Aqarunov adı verilib.

**Emin Piri**

## *“Ədalət” qəzetinin iki əməkdaşı finalist oldu*





**Ədəbiyyatın həm ölkə daxilində, həm də beynəlxalq miqyasda təbliğinə yönələn, gənc yazarların yaradıcılığına dəstək məqsədi güdən Beynəlxalq Silkway ədəbiyyat festivalının (Silkway International Literary Festival) Azərbaycan turunun müsabiqə mərhələsi başa çatıb.**

Silkway International Writers Union təsisatının təşkilatçılığı, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın, Dünya Gənc Türk Yazarlar Birliyinin, ”Azərkitab” Kitab Təbliğatı Mərkəzinin, ”Şahdağ Quba Truskavets” Sanatoriyasının təşkilati dəstəyi, ”Ədəbiyyat və incəsənət” portalının informasiya dəstəyi ilə keçirilən və devizi ”Sonda ədəbiyyat qalib gələcək” olan festivalın ekspertləri tərəfindən 30 (+2) finalçı müəyyənləşdirildi. Festivalın Əsasnaməsinə görə ekspertlərin ən yüksək balla qiymətləndirdiyi 30 finalçıya olduqca istedadlı 2 Vətən müharibəsi qazisi olan gənc şair də müsabiqədənkənar əlavə edilib.

Qeyd edək ki, finalçılar arasında ”Ədalət” qəzetinin iki əməkdaşı, Emin Piri və Eminquey Akif də var.

## *Əxlaq dindən qədimdir...*

**"İslamın təməli imandır" deyənlər "bir insan ömür boyu haqq-hüquq tanımasa, yalnış işlər görsə də imanı onu xilas edəcək" kimi bir anlayışı da sərgiləmiş olurlar. Digər tərəfdən, dini vəzifələrin (ibadətlərin) yerinə yetirilməsi kimi görülən dindarlıq "ehtiyat əxlaqı" adlanan haqq-hesab əxlaqını doğurub. Yəni " bu işi görsəm, Allah məni mükafatlandıracaq, bunu etməsəm, Allah məni cəzalandıracaq". Belə bir inancın əxlaqı ola bilərmi?**



Əxlaqın əmrləri şərti deyil. Bu məqamda İslamın prioritetinin iman, yoxsa əxlaq olması məsələsini müzakirə etmək lazımdır.

İnancla əxlaq arasında olan əlaqə əsasında aparılan müzakirələri Allahı mövzudan kənarda saxlamaq cəhdi kimi dəyərləndirilməsi doğru deyil. Ancaq problemləri rasional gerçəkliklərə əsaslanaraq müzakirə etmədən insanlıq həqiqətinə uyğun nəticələrə gəlmək mümkün deyil. Maturidiyə əsaslanaraq deyək: Əxlaq mövcud deyil, əldə edilən bir şeydir. Dində, əqidədə və təlimdə olmaq insanı əxlaqlı etməz. Əxlaq iradə işidir.

Hər bir ideologiya, hər bir intizam, hər bir təlim son nəticədə özünü əxlaq üzərində qurur. Nə qədər keçmişə getsək, bir o qədər əxlaqdan danışmaq olar. Ona görə də əxlaq haqqında dinlərdən asılı olmayaraq danışmaq mümkündür, amma dinləri əxlaqdan ayrı danışmaq olmaz. Bəşəriyyətin tarixi təkcə 1500 illik İslam tarixindən ibarət deyil. Deməli, əxlaq insanlarla mövcud olan bir məfhumdur. Hz. Məhəmmədin "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm" ifadəsi bu həqiqəti təsdiq edir. Bütün peyğəmbərlər istismar nizamına qarşı üsyan edərək var olublar. Onlar təkəbbür, marjinallaşma, ədalətsizlik, zülm, narazılıq, qohumbazlıq və ayrı-seçkilik kimi sosial problemlərlə mübarizə aparırdılar. Buna görə də Firon Musaya qarşı çıxdı. Hz. İsanı çarmıxa çəkənlər şərin müdafiəçiləri idilər. Əbu Cəhl və Əbu Ləhəb kimi Məkkənin görkəmli şəxslərinin İslamı rədd etmələrinin arxasında imtiyazlı mövqelərini itirmək qorxusu dayanırdı.

**"Deməli, sən bizi qullarımızla eyniləşdirirsən, Məhəmməd, biz belə dini qəbul etmirik" iradları dövrün oliqarxlarının nöqteyinəzəridir. Hakimiyyət/güc əldə etdikdə həm islamçılığı müdafiə edən, həm də xalqdan qoparaq yaşayanlara baxmayın. Məscidlərdə, televiziyalarda yoxsulluqdan danışan, amma padşah kimi yaşayanlara baxmayın...**

**Eminquey**



*Əbülfət MƏDƏTOĞLU*

# "ATƏŞ"i oxucu kimi görmək və duymaq...

## *Bu mənim ilk və isti təəssüratımdı*

*Ötən şənbə günü "Ədəbiyyat" qəzetini gözdən keçirirdim. Adətimdi, çalışıram ki, həftədə bir dəfə işıq üzü görən bu qəzetin saylarını diqqətdən yayındırmayam. Və açığını deyim ki, qəzetdə çap olunan əksər materiallar həmişə diqqətimi çəkir. Bu dəfə də belə oldu və mən "Ədəbiyyat" qəzetində "ATƏŞ"lə qarşılaşdım. Və...*

*Bəri başdan deyim ki, imzasını da, özünü də kifayət qədər tanıdığım, necə deyərlər, iç dünyasına yaxşı bələd olduğum Arzu Əsəd "ATƏŞ"i mənə əlyazması formasında olanda oxumuşdu... İlk dinləyici, ilk oxucu mən olmuşdum. Elə Arzu "ATƏŞ"i oxuyub bitirəndə mən onu təbrik etdim. O da üzümə baxa-baxa dayandı və baxışlarından oxudum ki, fikrimi bilmək istəyir. Təbii ki, fikir bildirmədim. Amma dedim ki, çap olunar, bir də oxuyaram. Sonra baxarıq. İndi Arzuya da, elə oxuculara da etiraf edirəm ki, yaxşı ki, tələsik münasibət bildirməmişəm. Çünki dinləməklə bəzən şeirin alt qatına enmək olmur. Çünki səs, intonasiya və xüsusilə də öz şeirini Arzu Əsəd kimi söyləmək özü oxucunu yönəldir və bu "yönəltmə" dinləyicini elə gipnoz edir ki, o, bəzən nə deyəcəyini və yaxud reallığı tam tuta bilmir.*

*Bax, bu mənada mən ötən istirahət günümün müəyyən hissəsini "ATƏŞ"ə həsr etdim, iki dəfə oxudum. Elə indi də masamın üstündə, əlimin altındadı. Və şeiri gözdən keçirə-keçirə ilk, isti düşüncələrimi bilgisayara diktə edirəm. Başlayaq elə atəşin özündən...*

*Bəllidi ki, atəş bir döyüşün, bir silahın, bir öldürməyin ilk aurasını, ilk təəssüratını yaradan sözdü. Atəş həm də "od", "alov" ifadəçisidi. Deməli, bu iki çaları bir araya gətirəndə insanın gözü qarşısında yaranan mənzərə daha çox yandırmaqdan, öldürməkdən qidalanan əmri, hökmü ortaya qoyur. Və məlum olur ki, bu söz atəş açanın yox, atəşi alovlandıranın yox, həm də daha çox ikinci şəxsin iradəsini icra etməkdir. Bax, elə mənim ilk təəssüratıma görə Arzu Əsəd burada məhz ikinci şəxsi, daha doğrusu, atəş əmri verən İNSANI, bir az da konkret desəm, bu yerdə 44 günlük savaşımızın sərkərdəsini, Ali Baş Komandanını poetik dillə tərənnüm edibdi.*

*Arzu Əsəd "ATƏŞ"lə əslində 30 il yol gəlib. Daha doğrusu, 2020-ci ilin sentyabr ayının 27-dən noyabr ayının 10-na kimi olan dövrün fonunda 30 il geriyə qayıdıb. Torpaqlarımızın zaman-zaman işğalına, itirdiklərimizə, itkilərimizə, qəhrəmanlarımıza, şəhidlərimizə üz tutub, onların ruhu naminə, onların qisası naminə atəşin vacibliyini və o vacib olanın da öz yerində, öz məqamında reallaşdığını şeirləşdiribdi. Arzu Əsəd yazıb ki:*

*Atəş!*
*İllərcə yetər gözlədik, atəş!*
*Biz səbr elədik,*
*haqq dedik, haqq istədik, atəş!*
*Bildik ki, sonunda, haqqın dili atəş,*
*Zalım bu nahaq dünyada*
*bir dil bilir - atəş!*

*Zənnimcə elə bu misraların hər birinin ip ucundan yavaşca tutmaqla Şuşa Zəfərinə doğru bir yola çıxmağımız mümkündür. Ona görə ki, artıq içimizdə bir əminlik var. Bu yolda bizim qayəmiz də, məramımız da, istəyimiz də, xəyallarımız da, yuxularımız da, reallığımız da Atəşdən asılıdı! Yalnız 30 illik həsrətə və sadaladığım nüanslara atəş bizi qovuşdura bilər. Bəzən deyirlər ki, söz pərən düşüb, fikir dağınıqdı, amma bu kiçik parçada söz bir-birinin içindədi, fikir bir-birinin davamı kimi sərgilənir. Və əmin olursan ki, bəli, illərin gözlətdiyini atəş bizə qaytaracaq. Çünki gözləntinin sonu gəlib çatıb və sonun çatdığını da, məqamın yetişdiyini də həm atəş, həm də o atəş əmrini verən dəmir yumruq kimi ortaya qoyubdur!.. Ona görə də Arzu Əsədin misraları inandırıcıdı, fikirləri gerçəkdi. Axı:*

*Atəş!*
*İllərcə, əsrlərcə yığılmış,*
*bir millətin atəş deyə*
*ruhunda sıxılmış*
*nifrət və qəzəbdən!*
*Atəş- ölümün, sürgünün, talanın,*
*tarixin qusduğu min bir yalanın*
*doğduğu min türlü səbəbdən.*
*Atəş - bəlalardan, çilələrdən,*
*kədərin, həsrətin inlətdiyi*
*qəlblərdə qalan xatirələrdən!*
*Atəş - əlli milyon sinədə*
*"İntiqam" deyə çarpan tək ürəkdən.*
*Atəş - keçmişdən,*
*bu gündən,*
*gələcəkdən!*
*Atəş - İHA-lardan,*
*Atəş - SİHA-lardan,*
*toplardan, tanklardan,*
*ən modern, ən qorxunc silahlardan,*
*bətnində cəhənnəm daşıyan*
*dev füzələrdən.*
*Atəş!*

*Mən özüm üçün "uzun şeir" adlandırdığım bu "ATƏŞ"in sizə təqdim etdiyim parçasının bir neçə dəfə oxumuşam və özüm üçün əmin olmuşam ki, bu parçanı oxuyan hər kəs gözünün önünü mütləq döyüş səhnəsini gətirəcək. Qulaqlarında "atəş!" hayqırtısı gözlərinin önündə yeri, göyü qovuşduran mərmilərin, güllələrin, tankların, topların nəriltisinin yaratdığı "cəhənnəm"...*

*Yəqin ki, oxucular real döyüş səhnələrinin nə demək olduğunu yaxşı bilirlər. Bax, mən də həmin səhnənin əslində bu dünyanın cəhənnəmi olduğunu görmüşəm, şahidi olmuşam və bu "uzun şeir"də onu bir daha yaşadım.*

*Arzu Əsədin "ATƏŞ"ini oxuduqca bir gerçəyin də şahidi oldum. O da şairin nəyə, kimə, hara atəş açılmasının vacibliyini seçib təyin etməsidi. Yəni o gülləni havaya atmır. Bir şair olaraq bir anlıq kənara çəkilib bir döyüşü idarə edən zabit kimi atəş nöqtələrini göstərir. Bu da şeirə sadə şəkildə desəm, dirilik gətirir, həyat verir. adam elə bilir ki, o şeirin içərisindədi, o məqamın içərisindədi. Sözlər onun ürəyindən, onun dilindən gəlib keçir. Lap bir az da dəqiqləşdirsəm, atəş açan da, atəş əmri verən də elə hər kəsin özüdü. Yəni, şeirin içindəki adamdı. Bu anlamda bir məqamı da qeyd etməyi vacib sayıram. O da Arzu Əsədin "ATƏŞ"indəki siyasi, ictimai çalarlardı. O, həm şair- müəllif kimi, həm də vətəndaş-döyüşçü kimi proseslərin içindədi. Özünü kənara çəkməyibdi. Əminəm ki, şeirin bu cür uğurlu alınmasında məhz bu məqamın əlahiddə xidməti olubdu. Və bir də şeirin dipdiri olmasının bir səbəbi də biz oxucuların həmin hadisələri qan yaddaşımıza köçürməyimizlə bağlıdı. Biz hələ o zamanın, yəni 44 günlük müharibənin coşqusunun içərisindəyik. Ona görə də şair bizim nəbzimizi tuta bilibdi. Üstəlik poetik dilin şirinliyi, "tutulan nəbzimizə" balıqçı qarmaq atan kimi ,özünü atıb və ruhumuz o şirinliyin məstliyini yaşayır.*

*Mən Arzu Əsədin bu "uzun şeirin"däki tarix çalarlarını keçib gəldiyimiz zamandakı qarşılaşdığımız nüansları ayrıca xatırlatmaq istəyirəm. Bu xalqın, yəni türkün keçdiyi, yazdığı tarixdi. İstər Nadirin, istər Qacarın, istər Atatürkün, istər Ulu Öndərin və istərsə də bu gün Ərdoğanla Ali Baş Komandanın obrazlarının bütün gerçəklik lə ifadəsi və buradakı tamlıq oxucunu, yəni məni qane edib, razı salıb. Çünki bu atəş:*

*Yanmış sinələrdən qopan üsyan*
*"Noldu, Paşinyan?"*
*Atəş deyir, atəş!*

*Hər birimizin, uşaqlı-böyüklü, dilimizin əzbəri olan həmin o məşhur ifadənin atəşə tutulması şairin tapıntısı, poetik uğurudu.*

*Bəli, Arzu Əsədin "ATƏŞ"i barəsində isti-isti içimdən gəlib keçənləri bilgisayara diktə edəndə mən bir daha əmin oldum ki, bu atəş hədəfə birbaşa dəyibdi. Ona görə də müəllifi, eləcə də oxucuları təbrik etmək lazımdı. Mən də bu təbriki böyük sevgi ilə sizə çatdırıram.*

# Səmimiyyət və inamın poetik dilə hopması

## "Xilaskar atanın xilaskar oğlu"nda gördüklərim

**Məlum olduğu kimi yaradıcı insanın görmə, müdaxilə etmə, həmçinin görüb müdaxilə etdiyini poetik sözə çevirmək imkanı fərqli olur. Yəni bəzən həmin o yaradıcı insan təbiəti, cəmiyyəti daha çox görür və dəyərləndirir. Həmçinin başqa bir nüasn da var ki, bu da ictimai-siyasi aspektdir... Burada da yaradıcı insan öz görmə və müdaxiləetmə imkanlarını həm dövrün, həm zamanın, həm də siyasi arenanın izləyicisi kimi dəyərləndirir. Hətta bəzən onun bir hissəsi olaraq fikri ortaya qoyur. Bu mənada yaradıcılıq imkanları fərqli olan söz adamlarının durumu, eləcə də oxucuya təqdim etdiyi fikirləri mənim üçün təbii sayılır və düşünürəm ki, hər kəs öz prizmasından, öz baxış bucağı altından dəyərləndirib fikir söyləməsi və həmin dəyərli fikirləri də oxucuya birbaşa təqdim etməsi normaldır. Üstəlik də, bu normal olanı oturuşmuş sözü və özü bir-birini tamamlayan müəllifin təqdim etməsi sevindirici olduğu qədər də təqdirəlayiqdir, təbliğ olunmalıdır. Ən azından ona görə ki, bu müəllif həm hadisələrin içindədir, həm hadisələri inkişaf etdirənlərdəndi, həm də içərisində olduğunu öz canından, qanından keçirib sözə çevirəndir. Deməli, məntiqə görə burada nəticə reallıqdır. Bax, həmin o reallığın bir nümunəsi də "Xilaskar atanın xilaskar oğlu" kitabıdır.**

Bu kitabla bağlı düşüncələrimi qələmə almazdan öncə xeyli düşündüm. Ona görə ki, həm kitabın müəllifini çox yaxından tanıyıram, həm də bu kitabdakı eyniadlı poemanın müəyyən hissəsini öncədən oxumuşdum. Hətta müəlliflə bu barədə fikir mübadiləmdə olmuşdu. Bax, bu aspektdə artıq mənə tanış olan bir kitab barəsində oxucu qarşısında fikir söyləmək nisbətən asandır, çətin olan budur ki, söhbət burada xalqın xilaskarından, xalqın prezidentindən, Ali Baş Komandanından gedir. Əgər mövzu təbiətimiz, gözəlliklərimiz, məişətimiz, sevgimiz olsaydı, burada bir oxucu olaraq daha rahat fikir söyləyə bilərdim. Amma indi məsuliyyət birə beş artıbdır. Odur ki, bu kitabın müəllifi oxucuların yaxşı tanıdığı və Sovet dönəmindən başlayaraq şeirlərini, kitablarını maraqla oxuduğu Tahir Rza ədəbi məkanda daha çox klassik poeziyamızın təmsilçilərindən biri kimi özünü təsdiq edib. Bu kitabda isə o, bir ağsaqqal qələm adamı kimi ictimai-siyasi mövzuya üz tutub. Elə özü də kitabının girişində "Müəllifdən" yazdığı qeydlərində vurğulayıb ki, "8 noyabr 2020-ci il Zəfər günü, tarixi ədalətin bərpa edildiyi, Azərbaycan Respublikası Prezidenti, Ali Baş Komandan İlham Əliyevin düşünülmüş siyasəti, mətin iradəsi, qüdrəti ilə düşmənin başının əzildiyi, torpaqlarımızın işğaldan azad olunduğu gün bütün xalqımız, Türk dünyası, tərəqqipərvər, sülhsevər insanlar üçün əziz və unudulmazdır. Bu gün Azərbaycanın tarixinə qızıl hərflərlə, əbədi yazılan bir gündür. Çünki cənab İlham Əliyev xilaskar atasının - Ulu Öndərimiz Heydər Əliyevin unudulmaz, ali missiyasını daha böyük fədakarlıqla, qəhrəmanlıqla yerinə yetirdi və xalqımızın, torpaqlarımızın xilaskarı kimi yeni bir tarix yazdı, yaratdı.



"Xilaskar atanın xilaskar oğlu" poeması da məhz bu istəkdən yarandı. Bu sətirləri yazmağı özümə bir borc hesab etdim".

Bəli, artıq oxucuya da məlumdur ki, bu poema hardan, nədən və kimdən söhbət açır, qaynağı, mənbəyi nədir və kimdir! Bu gerçək bəlli olduğu üçün kitaba Ön söz yazmış şair Əkbər Qoşalı da vurğulayıb ki, poema "İqtisadiyyatdan ordu quruculuğuna, ordu quruculuğundan Zəfərə, Azadlıqdan abadlığa - işğal mədəniyyətsizliyindən quruculuq mədəniyyətinə götürən sürəcin poetik ifadəsidir". Bax, belə bir təəssüratla poemanı oxumağa başladım. Misralar, bəndlər bir-birini əvəz etdikcə, xalqın xilaskarı, ümummilli lideri və onun ikinci dəfə hakimiyyət kürsüsündən başlayan yolu anbaan xəyalımda, gözümün önündə canlandı. Və müəllifin həmin o canlanmanı təqdim etmək məharəti, ustalığı ruhumu oxşadı. Çünki xilaskar atanın şəninə deyilən bu fikir öz dəqiq ünvanına çatmaqda səmimiyyətin, həssaslığın imkanlarından yararlanır. Tahir müəllim yazıb ki:

*Yaratmağa, yazmağa sevən ürək gərəkdir,*
*Yanmasan, düşünməsən, duymasan, yaratmazsan.*
*Yaşadıb ucaltmağa arzu, istək gərəkdir,*
*Ürəyini Vətənçün qoymasan, yaratmazsan.*

Tam səmimi və gerçək olan bu fikir poemanın özünün yaranmasnın da mənəvi çalarlarını, tələbatını ifadə edir. Göstərir ki, şair yazmaq xatirinə yox, yaşadığını ifadə etmək üçün , sevincini, sevgisini, düşüncələrini bölüşmək üçün qələmə sarılıb. Ona görə də misraların düzümü bir bulaq qaynarlığı ilə, bir dağ çayının zümzüməsi ilə həmahəng görünür. Həm sadə, həm dolğun, həm də adi görünən sözlərin böyük tutumunda ortaya həqiqətin ifadəçisi olan fikirlər qoyulur. Şair yazır ki:

*Ədalətə, hikmətə güvənən unudulmaz,*
*Torpağını sevənlər ad alıb, ucalırlar.*
*Haqsız tökülən qanlar heç zaman yerdə qalmaz,*
*Bir gün bağlanan yolun bir gün açılmağı var.*

Əgər diqqət yetirdinizsə, təkcə bu kiçik parçada xalqdan, onun folklorundan qaynaqlanan və hər birimizin də bu və ya digər şəkildə yararlandığımız deyimlər poetikləşdirilib. Axı müdriklərimiz deyib ki, "Bir gün bağlanan qapı bir gün açılar", "Nahaq qan yerdə qalmaz". Bax, həmin o iki deyimin mayasına şairin əlavə etdiyi "Ədalətə, hikmətə güvənən unudulmaz,Torpağını sevənlər ad alıb, ucalırlar" fikirləri bütövləşir, daha möhtəşəm görünür. Bax, şairin ustalığı, peşəkarlığı, qulpundan tutduğu mövzuya ürək qoyduğu burda öz təsdiqini tapır.




Poemanı oxuduqca bir zamanın içərisində neçə zamanla baş-başa qalırsan. Bu zamanın yaşı 30 ili ötür. Və oxucu artıq həmin 30 ilin poemanı oxuduğu zaman içərisində söz-söz əridir, özü də yaşaya-yaşaya. Bu yaşam da şairin ona bəxş etdiyi yaddaş kartının təzələnməsindən ibarətdi.

Həmin kartda oxucu 30 il yaşadığı yurdsuzluğu, vətənsizliyi, siyasi gəlişmələri, ATƏT-i, Minsk qrupu, erməni təxribatları... daha nələri, nələri, həm xatırlayır, həm də bütün bunları böyük ustalıqla Ali Baş Komandan tərəfindən necə səbirlə dəyərləndirib Zəfərə qovuşdurulduğunun şahidinə çevrilir.

*Düşünür, düşünür yenə də rəhbər*
*Bir gözündə ümid, birində kədər...*
*Ordudan, xalqından o arxayındır,*
*Ancaq müharibə... - ölümdür, qandır.*

Bu parçada da 30 il xalqını, ordusunu, yeni güvəndiyini müharibə hazırlayan, qələbəyə kökləyən bir rəhbərin düşüncələrinin görünən tərəfi ilə yanaşı, həm də alt qatı ortaya çıxır. Axı, bütün müharibələr həm də şəhid deməkdir, ölüm deməkdir, göz yaşı deməkdir... Bu qərarı vermək yalnız o zaman sevincə çevrilir ki, qərarı xalq alqışlayır, ordu icra edir və ... Həmin şəhidlər də ucaldıqları zirvədə bir ruh rahatlığı tapır. Çünki Zəfər var ortada, Qələbə var ortada. Elə şairin də tərənnüm etdiyi və hardasa oxucuya təlqin etdiyi gerçəklik də budur.

30 illik zamanı əhatə edən bu poema əslində Azərbaycanın yeni tarixinin həm də 30 ilinin poetik ifadəsidir. Onun 17 ilini Xilaskar Oğul yuxusuz gecələrlə, böyük siyasi iradə ilə ölkəni Şuşaya, Qarabağa qovuşdurdu. Və sübut etdi ki, bəli, Qarabağ Azərbaycandır!

**Mən Tahir Rzayevin bu kitabı, bu poeması barəsində fikirlərimi bilgisayara diqtə etdikcə, bir oxucu olaraq gəldiyim nəticə bundan ibarət idi ki, müəllif istəyinə çatıb. Qarşısına qoyduğu məqsədi reallaşdırıb. Yəni onun qələmə aldığı poema həqiqətən xalqımızın Ulu Öndərinin və Prezidentinin şəninə yazılmış ən gözəl əsərlərdən biridir. Bu poemada dilimizin ən zərif sözlərindən, düşüncəmizin ən mükəmməl fikirlərindən çıxış edərək oxucunun sona qədər müəlliflə üz-üzə oturmağa həvəsləndirən bir gerçəklik var. Təbii ki, bu Tahir Rzayevin həm şair kimi, həm ictimai-siyasi xadim kimi böyük əməyinin və ilhamının bəhrəsidir. Məndə bir oxucu kimi fikirlərimi şərh edərkən onu da nəzərə alıram ki, bu poema haqqında ən mükəmməl sözü ədəbiyyatşünaslarımız , ədəbi tənqidin önündə gedənlər deyəcəklər. Sadəcə mənim oxucu düşüncələrim, sözün gerçək mənasında bir ürək çırpıntısı, yaxşı, mükəmməl bir əsərə olan diqqətimin ifadəsidir. Yəqin ki, bu yazdıqlarım müəyyən zamandan sonra yenidən məni "Xilaskar atanın xilaskar oğlu"na qaytaracaqdır. Və onda yəqin ki, yeni oxucunun yeni fikirlərinin də şahidi olacaqsınız.**

Əbülfət MƏDƏTOĞLU

# Xəyallar çin olanda

## Əbülfət Mədətoğlunun yaradıcılığında Qarabağ mövzusu



*Zemfira Məhərrəmli*
*yazıçı-publisist*

**Sən demə, hökmü zaman verirmiş. Zaman qılıncını çəkmiş, xəzan yelləri əsmişdi. Dərd-qəm səpib, kədər biçmişdik. Günümüzün, güzəranımızın batan çağıydı. Yurd yerlərimizi əsarətdən qurtarmaq, düşmən fitnəsindən, işğaldan nicat tapmaq üçün yollar aramış, yollar yormuşduq. Yollar da bizi yormuşdu. Bəndə düşmüş kilidin açarı tapılmırdı ki tapılmırdı. Dərd daşımızdan, qəm yükümüzdən ağır nə vardı görəsən? Bir də ayrılığın havası... Boşalmış kəndlərimizdəki evlərin qapısındakı paslı qıfıllar öz yiyəsinin hənirtisinə, əlinin istisinə həsrət qalmışdı. Elə çarəsiz, elə dərbədər idik ki... Gərilmiş yay vəziyyətində olsaq da, oxu çəkib ata bilmirdik. Ruhumuz sıxılır, heysiyyətimiz, duyğularımız tapdanırdı.**

Ədəbi cameəmizin yaxşı tanıdığı bənzərsiz şairimiz, istedadlı yazıçı-publisist Əbülfət Mədətoğlunun poetik nümunələrində belə ağrılı fikirlərlə hələ illər öncə qarşılaşmışdım.

"Mən əlimi dərdə atsam, qoşa çıxar" deyən şairi dilləndirən daim ürəyində gəzdirdiyi yurdsuzluq dərdi olub:

*Mən dərdlərin sirr yeri,*
*Başqa bir kəsləri yox.*
*Zülm çəkib onları*
*Öyrətmişəm gözütox.*
*Mən dərdlərə nümunə,*
*Özümə dərd özüməm.*
*Yurd-yuvasız ömrümə*
*Arsız-arsız dözürəm.*

Köçkünlük dərdini özünə dərd edən şairin fikrincə, zülm-zillətlə çıxdığımız kəndlərdəki saçını yolan söyüdlər, arxların kənarında bitmiş, doğma hənirə həsrət çöl çiçəkləri də xiffət edir.

Gavurların ayaqları altında qalan, elatın qürbət ömrünə dözməyib soluxan boynubükük bənövşələr bu nisgili öz ləçək dilində nəql edir.

Qırx arşınlıq quyuda olduğumuz, dünyanın kor-kobud ələyində ələndiyimiz, çarəsizlik girdabında boğulduğumuz illərdə şair Əbülfətin "Neyləyim" adlı bir şeiri də vardı:

*Dağılmış yurd yerimdə*
*Nə qalıb ki daşına?*
*Dərdlərin sinəsində*
*Dönüb bir başdaşına -*
*Bitməyim, bəs neyləyim?*

"Dərd məni ortaladı, doğradı, baltaladı" deyən şairin "Özümə yazdığım şeir" adlı poetik nümunəsində yeniyetməlik, gənclik çağlarının ağrılı xatirələri ilə qarşılaşırıq:

*Hardasan, görünmürsən,*
*Səsin, ünün itibdi...*
*Ardımca sürünmürsən,*
*Ayın, günün itibdi...*
*Yaşayırdın hamı tək,*
*İndi yükü özün çək,*
*Ay qaçqın kənd uşağı...*
*Qaldın quru bir cəsəd.*
*Sənə bu durumunda*
*Kim aparacaq həsəd?*

Bu şeirlər, düşündürən misralar bizə bir daha təlqin edir ki, Ə.Mədətoğlu yaşadığı zamanın nəbzini tutub, dövrün ovqatını, fikrini şeirə çevirib. Şairin iç dünyasının pıçıltıları olan poeziyasının dili oxunaqlı, anlaşıqlı və rəvandır. Özünün gözəl bir deyimi var:

"Söz Allahdan gəlir. Şeirin zamanı birdir. O da oxucusunu tapdığı zamandır. Şeirin özülü bayatı, layladırsa, lap elə iki bəndlik obrazlı ifadədirsə, onun zamanı heç vaxt keçə bilməz."

Qarabağ həsrəti onun söz dünyasının haqq səsi, harayıdır. Vətən sevgisi, yurda bağlılıq bu qələm adamının fəlsəfi düşüncələr, təsvir və ifadələrlə zəngin poeziyasının, mübariz publisistikasının ana xəttidir. "Mən qəriblik çəkdim" şeiri də bu baxımdan diqqəti çəkir:

*Mən qəriblik çəkdim, anam,*
*Özümü sıxdım, saxladım.*
*Öz şəklimi çəkdim, anam,*
*Xəlvətdə baxdım, ağladım.*

Üzümüzə bağlı yolları çal-çarpaz düyünlənmiş qollara bənzədən müəllif ömrün-günün qəm şələsi belində olanların?

Vətəndə vətənsiz qaçqın balalarının, doğma el-obanın həsrəti içində əsirlik çəkən bəndələrin iztirabına dözə bilmir, "mən Əbülfət bəxti kəm" deyir özü-özünə:

*Ruhum uçdu, yuvası boş,*
*Çarpazlandı əlim, qolum.*
*Boşa çıxdı, duası boş -*
*Bu dünyadan keçdi yolum.*

Bəs, "gözünün lap dibində, diqqət çəkməyən bir yerdə dizlərini qucaqlayıb, büzüşüb oturan nisgili" necə yox edəsən? Özü də "duzsuz, mənasız, hər yanda köhnə hava oxunan" bir dövrdə. Həm də "içində dava gedən" şair "küldü odum, ocağım, gülmür daha o çağım" deyir.

Qarabağ savaşına laqeyd qalan susqun dünyaya kəskin etiraz nidası tək müharibəni qan-qada, ölüm cildində görür.

Qarabağ cəbhələrində igidlik göstərmiş İlyas Hüseynovun xatirəsinə yazdığı şeirində oxuyuruq:

*Bu ölüm adi olmadı,*
*Göynətdi, yandırdı bizi.*
*Təkcə bizdən can almadı,*
*Gör necə sındırdı bizi.*

Elin vətənpərvər, cəsur oğlu Ramil Səfərova həsr etdiyi şeirində onu yüksək dəyərləndirir, hünər nişanəsi, hər əsgərin, zabitin örnəyi hesab edir.

Müəllifə görə, Ramil "bu qaydasız döyüşdə haqqın ilk Zəfəri, Şuşa deyən millətin ilk sözü" kimi dəyərlidir, əzizdir:

*Yağılar caynağında*
*Didilən Qarabağsan.*
*Qürursan, əzəmətsən -*
*Sən yenilməz bir dağsan.*

"Göylərə boylanıb, yerlərə üsyan edən" şair hər qaranlıq gecənin bir işıqlı sabahının açılacağına, hər müşkülün də bir çözülən yönü olduğuna inanır, ədalətsizliyə dözən dünyanı yamanlayır.

Zəli qana daraşan kimi torpaqlarımıza daraşan, susayan, yurdumuzda at oynadan, ziyarətsiz, "gözü yolda qalan" qəbirləri uçuran düşməndən qisas almaq istəyir:

*Mənim Qarabağım dönə bayrağa*
*Millətin əlində, taxtın əlində -*

söyləyən şair yurdun ərənlərinə, hünərvər oğullarına çağırış edərək, "bitsin bu zülm-sitəm" deyir.

Mərhum Xalq şairimiz Musa Yaqub qələm dostu Ə.Mədətoğlunun yaradıcılığından, şeirlərinin ruhuna hopan incə mətləblərdən, həyəcan və əhval-ruhiyyədən söz açarkən bu poetik nümunəni yüksək dəyərləndirmiş, "vətənpərvərlikdə dəlilik" adlandırmışdı:

*Heyif deyil adamın*
*Dəli damarı ola...*
*Və bir də görə ki,*
*İməkləyə, iməkləyə*
*Çıxıb gedib Cıdır düzünə.*
*Dirsəklənib səhnəsinə Şuşanın.*

Ə.Mədətoğlu hələ1991-ci ilin oktyabr ayının 30-dan 31-nə keçən gecə elə gözünün önündə erməni quldurların yandırdığı evinə baxa-baxa doğma Tuğ kəndindən qovulmuş, didərgin düşmüşdü. İllər boyu qəlbini göynədən bu iztirab barədə sonralar yazmışdı:

"Bizə 30 il qaçqın dedilər. Amma bu fikirlə heç vaxt razılaşmırdım. Çünki biz qaçmamışdıq, bizi qovmuşdular, özü də bütün dünyanın gözü qarşısında. Həmin gecənin ən gerçək şahidi həm də Allah idi!" O vaxt şair bu misraları yana-yana dilə gətirmişdi:

*Bir ev yanıb, od tutmuşdu o gecə,*
*Allah harda oturmuşdu o gecə?!*

Qələm dostumuz həm də dörd sənədli povestin müəllifidir. Bunlardan ikisi Birinci Qarabağ müharibəmizə, qaçqınlıq illərinə həsr olunub.

İşğaldan azad edilmiş Hadruta, doğma Tuğ kəndinə ölkə başçımız və bir qrup ziyalı ilə birgə ötən ilin noyabrında səfər etmək Əbülfət Mədətoğluna da nəsib oldu.

Özünü Allahın xoşbəxt bəndəsi hesab edirdi. Qürur hissi keçirirdi ki, bu nəhayətsiz sevinci və aşıb-daşan coşğunu yurddaşlarımıza yaşadan, bəxş edən 44 günlük Vətən müharibəmizdə müdrik Sərkərdəmizin qətiyyəti, müzəffər ordumuzun rəşadəti ilə qazanılmış möhtəşəm Qələbəmizdir.

**Əbülfət müəllim doğma "Ədalət" qəzetində dərc etdirdiyi "Özünəqayıdışın başlanğıcı" adlı silsilə yazılarında qeyd edir ki, "mən bu başlanğıcı 30 il gözlədim... Ata-baba yurdumda mənim uşaqlığımın da, gəncliyimin də izləri, xatirələri güllələnib. Dünyaya göz açdığım ev-eşikdən, vaxtilə Tuğ əsilzadələrinin mülkü olmuş məktəb binasından əsər-əlamət belə qalmayıb. Çünki mənfur düşmən faşist kimi davranıb, çox şeyi məhv edib... Meşə və dağ massivli dolamaları qalxdıqca dərələr sanki daha da dərinləşib. Bəlkə də bu, uzun illər axan sel-suların və bir də mənim həsrətimi yuyub aparan çamurlarıdır. Mənimlə orada danışan ancaq kədər, ağrı-acı idi. Cənab Prezidentin dediyi "Tuğ əsl cənnətdir!" kəlamı isə bütövlükdə Qarabağ sevginin ifadəsi idi." Bu cənnətməkana səfər edənlərin hər birinin ürəyində bir ümid var: "Tuğ indi əvvəlkindən də gözəl olacaq!".**

## *Neolit dövrünün ən əhəmiyyətli yaşayış məskəni: Göbəklitəpə ziyarətçi rekordunu qırdı*



**Dünyanın Neolit dövrünün ən əhəmiyyətli yaşayış məskənlərindən biri olan Göbəklitəpə 2021-ci ildə 567453 nəfəri qəbul edərək, müasir tarixində ən çox ziyarətçi sayına çatıb. 2018-ci ildə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib və ziyarətçilərə açıq olduğu gündən yerli və xarici turistlərin böyük marağına səbəb olub. Göbəklitəpənin 2022-ci ildə daha çox ziyarətçi cəlb edəcəyi**

Adalet.az bildirir ki, Türkiyənin Şanlıurfa şəhərinin 15 kilometr şimal-şərqində, Örəncik kəndi yaxınlığında yerləşən Göbəklitəpə kəşf edildiyi gündən yerli və xarici turistlərin diqqətini çəkir. Dünyanın ən qədim dini abidələrinin yerləşdiyi 12000 illik Göbəklitəpə Meydanını 2021-ci ildə ümumilikdə 567453 nəfər ziyarət edərək, pandemiyanın təsirinə baxmayaraq ziyarətçi rekordunu qırıb.

### Neolit Dövrünə Yeni Baxış: Göbəklitəpə

Göbəklitəpənin tarixi eramızdan əvvəl 9600-cü ilə aiddir. Göbəklitəpədə hündürlüyü 5,5 metr olan "T" formalı obelisklər insan tərəfindən yaradılmış memarlığın ilk nümunələridir.

Mifoloji hekayəni xatırladan heyvan motivləri, həndəsi formalar və insan fiqurları olan bu obelisklər Göbəklitəpənin inanc mərkəzi kimi istifadə edildiyini göstərir.

**Metal alətlərin hələ mövcud olmadığı bir dövrdə ildırımdan oyulmuş Göbəklitəpə obeliskləri həm də dünyanın ən qədim heykəlləri və bəşər tarixinin ən qədim sənət əsərləridir. Göbəklitəpə həmçinin oturaq həyatın ən qədim nümunələrinə də ev sahibliyi edir.**

# OPERAMIZIN ŞAH ƏSƏRİ



*Səadət QARABAĞLI*
*Üzeyirbəyşünas*

**Aprel ayının 30-da Azərbaycan mədəniyyətinininincisi, operalarımızın tacı sayılan ”Koroğlu” operasınınilk tamaşasının 85 ili tamam olacaq. Ötən illər ərzində Üzeyir bəy Hacıbəylinin bu əsəri mütəmadi olaraq Azərbaycan Akademik Opera və Balet Teatrının repertuarında möhkəm yer tutmuş, son dövrlərə qədər hər il bu sənət ocağı öz mövsümünü ”Koroğlu” ilə açmışdır. ”Koroğlu”təkcə Azərbaycanda yox, onun hüdudlarında kənarda da daim böyük maraqla qarşılanmış,bir qayda olaraq anşlaqla keçmişdir.**

Üzeyir bəy Hacıbəylinin tələbəsi, ”Koroğlu” operasının əhəmiyyətini dərindən dərk edən görkəmli bəstəkarımız Qara Qarayev yazırdı: ”Koroğlu”Üzeyir bəy Hacıbəylinin böyük və mürəkkəb yaradıcılıq yolunun yüksək kulminasiya nöqtəsidir, özünün heyrətamiz keyfiyyətləri ilə valeh edən bu əsər musiqi sənətinin ölməz nümunəsidir...”

### Bəs, bu əsər necə meydana gəlmişdir?

Məlumdur ki, operanınsüjet xəttini Azərbaycanda, ümumiyyətlə, Zaqafqaziyada, Orta Asiyada, Türkiyədə, İranda geniş yayılmış ”Koroğlu” dastanı təşkil edir.Üzeyir bəy1919-cu ildəailəsi ilə bərabər Gürcüstanın Qacar yaylağında istirahət edərkənordakıKoroğlu qalasını görəndən sonra bu dastanın motivləri əsasındaopera yazmaqfikrinədüşüb. O hər günbuqalanın yanına gələr, onun əzəmətinə tamaşa edərdi. Növbəti dəfəordaolarkən yaşlı bir aşığın ”Koroğlu” dastanını əzbərdən söylədiyini eşidir. Ona yaxınlaşır və diqqətlə qulaq asır. Aşığın oxuması Üzeyir bəyin çox xoşuna gəlir. Elə oradacabu möhtəşəmdastanıklassikmusiqinindiliylə də əbədiləşdirməyi qət edir.

***Aradan 13 il keçir. Altı opera, üç operetta və müxtəlif əsərlər müəllifi olan Üzeyir bəy Hacıbəyli ”Koroğlu” operası üzərində işə başlayır. 1936-cı ildə isə əsəri tamamlayır. ”Koroğlu” operasının librettosu Heydər İsmayılova, şerləri isə Məmməd Səid Ordubadiyə məxsusdur. Üzeyir bəy özü librettonun yazılmasında yaxından iştirak etmiş, mətndə və şeirlərdə bəstəkar tərəfindən çoxlu düzəlişlər olunmuşdur. Beş pərdədən ibarət olan ”Koroğlu” operasında Ü, Hacıbəyli xalqının istək və arzularını, qəhrəmanlığını, şücaətini, istiqlal həvəsini böyük məharətlə, ecazkar musiqi dili ilə ifadə etməyə çalışmış və buna çox yüksək səviyyədə nail olmuşdur.***

Dahi bəstəkar 1937-ci ildə ”Koroğlu”nun musiqi dili haqqında yazırdı: ”Mən ”Koroğlu” üzərində işlərkən qarşıma müasir musiqi mədəniyyətininnailiyyətlərindən istifadə edərək, formaca milli opera yaratmaq vəzifəsini qoymuşdum. ”Koroğlu”da opera əsərinə məxsus bütün elementlər - ariyalar, duetlər, ansambllar, reçitativlər və s. vardır. Lakin bunların hamısı Azərbaycan musiqi folklorunun əsasında qurulmuşdur. Mən xalqdan hazır nəğmələr almamışam. Yalnız xalq yaradıcılığının əsaslarını öyrənmişəm. ”Koroğlu”nu aşıqlar tərənnüm edib və edir. Ona görə də operada üstün gələn stil aşıq stilidir”.

### “Koroğlu” operasının əsasını

istər məzmun, istərsə də musiqi cəhətdən dərin xəlqilik təşkil edir. Üzeyir bəy deyirdi ki, musiqidilinin xəlqiliyi mənim bütün musiqi əsərlərimdə, xüsusilə ”Koroğlu” operasındaçoxgüclü əksolunub.

***Üzeyir bəy Hacıbəylinin ən böyük nailiyyətlərindən biri də o idi ki, novator bəstəkar simfonik orkestrdə Qərb və Şərq musiqi alətlərinin sintezini yaratdı. O, ”Koroğlu” operasının partiturasına milli musiqi alətlərindən tar, kamança, zurnavəbalabanıdaxil etmişvəqarşısına qoyduğu məqsədə tamamilə müvəffəq olmuşdur.***

”Koroğlu”nunbəstəkar tərəfindən tamamlandıqdan sonra tamaşaya hazırlanması, səhnələşdirilməsi üçün ciddi işlərə başlanmışdır.İlk tamaşanınquruluşçu rejissoru İsmayıl Hidayətzadə, rəssamı Rüstəm Mustafayev, bədii rəhbəri Şəmsi Bədəlbəyli, dirijoru isə müəllif özü olmuşdur. Sonrakıtamaşaları isəÜzeyir bəyin də sənətinə yüksək dəyər verdiyi dirijor Əşrəf Həsənov idarə etmişdir. Operada əsas rollarda Koroğlu - Bülbül, Nigar - Gülarə İsgəndərova ( Bülbülün birinci həyat yoldaşı), Əhsən Paşa - Əli Zülalov, Həsən Paşa - Məmməd Tağı Bağırov, İbrahim Xan - Böyükağa Mustafayev, Alı kişi - Əjdər Sultanov, xanəndə qız-Məhbubə Paşayeva, rəqqasə - Qəmər Almaszadə, Həmzə Bəy - Q. Hüseynov, Eyvaz - Əlövsət Sadıqov, Təlxək - Q. İsgəndərov oynamışdılar.

”Koroğlu” operasının ərsəyə gəlməsi möhtəşəm, təntənəli bayrama çevrildi. 30 aprel 1937-ci ildə Ü Hacıbəylinin operanın premyerası baş tutdu. Həmin günAzərbaycan mədəniyyəti tarixinə qızıl hərflərlə əbədi həkk olundu.

Böyük şair və dramaturq Hüseyn Cavid operanın premyerasından sonra ”Yeni yol” qəzetində yazmışdı: ” Koroğlu” operası Azərbaycanın opera aləmində öz revolyusion coşqunluğu ilə, bədii yenilikləri ilə, parlaq xalq musiqisi ilə son dərəcə yüksək bir yer tutmaqdadır”. Görkəmli şairimiz Səməd Vurğun isə belə demişdir:” Koroğlu” operası musiqi və opera sənətimizin mükəmməl bir abidəsidir ki, nəsillər boyu yaşayacaqdır”.

***Əsərə başqa xalqların nümayəndələri tərəfindən də çox yüksək qiymət verilmişdir. Moskva şair Pavel Pançenko operaya baxdıqdan sonra öz təəssüratlarını belə ifadə etmişdi:” Koroğlu” operası əsl xalq sənətəsəridir. Bizə - Azərbaycan dilini bilməyən Moskva şairlərinə bu operada hər şey anlayışlı və yaxın idi. Operanın musiqisi, iştirak edənlərin obrazı canlı, ehtiraslı, rəqsləri isə cazibəlidir. Rejissorluq işinəgəldikdə isə respublikanın əməkdar artisti Hidayətzadə yoldaşın işində daha qiymətli cəhət onun xor dəstəsinə verdiyi canlılıqdır. Əldə edilən nailiyyəti səmimi təbrik edirik”.***

Hələ 11 aprel 1937-ci ildə ”Kommunist” qəzetində opera haqqında qeydlərdə yazılırdı ki, ”Koroğlu” operası üçün xor gücləndirilmiş və dəstəyə 120 nəfər daxil edilmişdir. Ümumiyyətlə, operada 600 nəfəriniştirak edəcəyi nəzərdə tutulurdu ki, bu da əsərin möhtəşəmliyindən xəbər verir. Xordan başqa əsərdə, həm də ariya, arioza, vokal ansamblı, simfonik fraqmentlər, milli baletin inkişafı üçün rəqs səhnələri və s. kimi klassik janrlar öz təzahürünü tapmışdır.

Üzeyir bəy Hacıbəylinin ”Koroğlu” operası o qədər şahanə idi ki, 1938-ci ildə Moskvada keçirilən birinci Azərbaycan İncəsənəti ongünlüyü də bu şah əsərlə açılmışdır. Bu barədə ”Ədəbiyyat qəzeti” (5 aprel 1938-ci il) qeyd edirdi:” Bu gün Moskvada Azərbaycan incəsənəti dekadası ”Koroğlu” ilə başlanır”. Dekadadan sonra 21 aprel 1938-ci il tarixli ”Kommunist” qəzetində Üzeyir bəy Hacıbəylinin təəssüratı dərc edilmişdir.

### Bəstəkar yazırdı ki,

operanın Moskva nümayişi vaxtı-Voroşilovona”Koroğlu” kimi daha iki opera yazmağın vacib olduğunu deyəndə Stalin ”iki yox, üç belə opera yazmalısınız” - deyə onun sözünə düzəliş verib.

***”Koroğlu” Moskvada o qədər böyük müvəffəqiyyət qazanmışdır ki, onu Böyük Teatrın səhnəsində tamaşaya qoymaq haqqında qərar qəbul edilmişdir. SSRİ XKŞ yanında incəsənət işləri komitəsinin rəisi Solodovnikov ”Kommunist” (2 iyul 1938-ci il) qəzetinin xüsusi müxbiri Ramazan Xəlilova verdiyi müsahibədə demişdir: ”Moskvada Azərbaycan incəsənəti dekadası zamanı SSRİ xalq artisti, ordenli bəstəkar Üzeyir bəy Hacıbəyovun göstərilən ”Koroğlu” operası ümumi rəyə görə dekadanın ən yaxşı əsəri idi. ”Koroğlu” operası hamıya gözəl təsir bəxş etmiş və yüksək qiymət qazanmışdır. Odur ki, bu klassik əsərin Böyük Teatrın səhnəsində tamaşaya qoyulması haqqında hökumətin qərar qəbul etməsi tamamilə təbiidir. Biz ”Koroğlu” operasını 1939 - cu ilin əvvəllərində tamaşaya qoymaq fikrindəyik... Şair Rurik İvnevlə müqavilə bağlayıb ”Koroğlu” operasını rus dilinə tərcümə etməyi Böyük Teatrın müdiriyyətinə tapşırılmışdır”.***

Lakin Üzeyir bəy şəxsiyyətinə və onun ölməz yaradıcılığına hər zaman qısqanclıqla yanaşan qara qüvvələr, bu dəfə də özlərini ”səfərbər” edib,

### “Koroğlu”nun Böyük Teatrın səhnəsində

tamaşaya qoyulmasına mane oldular. Beləliklə də əsərin Moskva Böyük Teatrında səhnələşdirilməsi gerçəkləşməmiş qaldı. Bütün bunlara baxmayaraq, 15 mart 1941-ci ildə ”Koroğlu” operası SSRİ-nin ən ali ödülünə - Stalin mükafatına layiq görüldü.

”Koroğlu”ya qədər əməkdar incəsənət xadimi fəxri adını daşıyan Üzeyir bəyə 1937-ci ildə Azərbaycan xalq artisti fəxri adı verildi. 1938-ci il dekadasından sonra isə dahi bəstəkarımız bütün sovet bəstəkarları arasında birinci olaraq SSRİ xalq artisti adına layiq görülür, Lenin ordeni ilə təltif edilir, M-1 avtomobili ilə mükafatlandırılır.

***Ü. Hacıbəylinin ”Koroğlu” operasına tamaşa edən hər kəs əsərin sehrinə düşür, ona məftun olur. ”Koroğlu” xarici qonaqların da həmişə diqqət mərkəzində olmuş, onları valeh etmişdi. 1944-cü ildə Bakıda olan Fransa Respublikasının sabiq prezidenti general Şarl de Qoll noyabr ayının 27-də Azərbaycan Opera və Balet Teatrında operalarımızın tacı ”Koroğlu”ya baxmış,əsərdən vəcdə gələrək, çox zövq aldığını söyləmiş, operanın müəllifi Üzeyir bəy Hacıbəyli ilə tanışlığından isə məmnun qaldığını dönə-dönə vurğulamışdı.***

### Arxiv sənədlərindən məlum olduğu kimi,

30 aprel 1962-ci ildə ”Koroğlu” operasının 500-cü tamaşası göstərilib. 25 illik yubileyində 500-cü tamaşasıoynanılan operabəs görəsən, 85 illik zaman kəsiyində neçə dəfə ifa olunub. Təəssüf ki, bu barədəindiyə kimi heç birrəsmi hesablama aparılmayıb. Koroğluobrazınıntəkrarolunmaz ifaçılarından biri olan Bülbül bu rolu 400 dəfədən çox oynamış, Koroğluya görəbir sırafəxri adlara layiq görülmüşdü.

Bu obrazın digər gözəl bir ifaçısı da sevimli müğənnimiz, SSRİ xalq artisti, özünün yüksək tembrli səsi və səhnə dinamikası ilə seçilən Lütfiyar İmanov olmuşdu.

L. İmanov 1959-cu ildən etibarən Koroğlunu sevərək, özünəməxsus ustalıqla oynamışdır. Müğənni bu barədə deyirdi ki, ”Koroğlu” mənim həyatımın mənasına çevrilib. Mən bu obraz üçün yaşayıram, onunla nəfəs alıram. Operada Koroğlunun dəliləri onu necə sevirlərsə, ona necə sədaqət, etibar göstərirlərsə, mən də bu əsəri, bu obrazı o qədər sevirəm. Koroğlunu hansı şəhərdə, hansı ölkədə ifa etmişəmsə, tamaşaçıların dahi bəstəkarın musiqisinə valeh olduqlarını görmüşəm. Bir nəfər kimi hamının fikri belə olub ki, bu opera dünya miqyasına çıxmalı, bütün dünyada göstərilməlidir.

***Üzeyir bəy Hacıbəylinin ”Koroğlu” operasına 1937-ci ildən sonra bir neçə dəfə səhnə quruluşu verilmişdir. Belə ki, 1943-cü ildə Azərbaycan Opera və Balet Teatrında rus dilində ( dirijor Niyazi), 1959-cu ildə ( rejissor Mehdi Məmmədov, dirijor Niyazi, rəssam Əyyub Fətəliyev), 1967-ci ildə ( rejissor Mehdi Məmmədov, dirijor Niyazi, rəssam Mikayıl Abdullayev), 1975-ci ildə (rejissor Firidun Səfərov, dirijor Rauf Abdullayev, rəssam Tahir Salahov) yeni quruluşlarda tamaşaya qoyulmuşdu. Əsər 1939-cu ildə Aşqabadda türkmən, 1942-ci ildə İrəvanda erməni, 1950-ci ildə Daşkənddə özbək dillərindədə oynanılmışdı.***

Azərbaycan Opera və Balet Teatrının qastrol səfərləri zamanı ”Koroğlu” operası Təbrizdə, Tiflisdə, Kiyevdə, Sankt-Peterburqda və s. şəhərlərdə uğurlanümayiş olunub. 1959-cu ildə Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə ”Koroğlu”növbəti dəfə də paytaxt tamaşaçılarınınhədsizrəğbətiniqazanmışdır.

”Koroğlu”nun ilk tamaşasından keçən 85 il ərzində Koroğlunu -Bülbül, Lütfiyar İmanov, Adil Məlikov, Aleksandr Drozdov ( rus dilində), Nigar rolunusaGülarə İsgəndərova, Firəngiz Əhmədova, Fidan Qasımova, Mariya Titarenko (Azərbaycan və rus dillərində), Rəhilə Cabbarova, Səfurə Əzimiməharətləifa ediblər.

Son illər ”Koroğlu” operası zaman-zaman opera və balet teatrının səhnəsində göstərilir. Bəzi müğənnilərözlərini Koroğlu rolunda sınaqdan keçirsələr dətamaşalarheç də arzu olunan səviyyədə hazırlanmayıb. Odur ki, ölkəmizin musiqi ictimaiyyəti, bütövlükdəxalqımız Üzeyir bəy Hacıbəylinin ”Koroğlu” operasının əvvəlki şöhrətini özünə qaytarmaq, onu mükəmməl quruluş və ifalardayenidən səhnədə görmək arzusundadır.

Böyük sənət əsəri olan ”Koroğlu” operası haqqında xalq yazıçısı Süleyman Rəhimov yazırdı: ”Tamaşaçı salona düşüncə səhnə ilə, ”Koroğlu” ilə yaşayır, operanın musiqisi ürəyimizin incə tellərini tərpədir, cəngiləri sümüklərimizə düşür, iliklərimizə işləyir, biz böyük musiqi dənizinin qıjıltı ilə çağlayan dalğalarında, arabir asta-asta gülümsəyən ləpələrində dolanıb gəzirik. ”Koroğlu bizi götürür, biz tamaşanın bitdiyini görüncə, ”nə yaxşı canımız qurtardı” -deyə heç də nəfəsimizi dərib sevinmirik, əksinə tamaşa qurtarınca, biz tükənməz ehtiram hissi ilə başımızı ölməz bəstəkarın - Üzeyir bəy Hacıbəylinin xatirəsi qarşısında əyirik...”.

*Uğur Dündar*

# Yetim erməni uşaqlarının atası Kazım Karabəkir Paşa!



***"Mən Kazım Karabekir Paşanın böyük qızı Timsal Karabekir... Paşa atam həmişə sadəcə öz irqiylə, diniylə, milliyətilə deyil, hər kəslə qardaş olan, bütün insanlarla qardaş olan böyük ürək sahibi idi. Bizimlə söhbət edərkən və keçmişi dilə gətirərkən bütün insanlığa baxış prizması sülhpərvər və qardaşcasına idi. Bax elə bu səbəbdən yetim erməni uşaqlarını digərlərindən ayırmayıb, yetim türk uşaqlarla birgə onlara da sahib çıxdığını danışar və belə deyərdi:***

***- "Əsrlər boyu erməni və türk xalqları bir-birindən ayrılmamışdır. Türk xalqı erməni xalqını həmişə öz qardaşı, qonşusu, vətəndaşı kimi qəbul edib. Amma ingilislər və ruslar min illərlə eyni torpaqlarda yaşayan bu iki xalqı düşmən edib. Daşnak erməni quldur dəstələri kimi quldur dəstələrini yaradıb, təhrik edib silahlandıraraq türklərin üstünə hücuma keçirdilər. Beləliklə, ermənilər yaşadıqları bölgələrdə müsəlman əhalini qırmağa başladılar. İddia etdikləri yerlərdə qırğınlar törədərək, köç edərək türklərin sayını azaltmağa çalışdılar. Hansı xalq, hansı şəxs ona, namusuna, vətəninə, evinə hücum edənləri bağışlayır, onunla vuruşmur? Vandakı uşaqlığımı təsvir edərkən bunu xüsusi qeyd edərdim. Van mənim üçün necə də əyləncəli yer idi; Bol meyvəli, müxtəlif meyvə ağacları olan böyük bağımız var idi. Bizim erməni aşpazımızın biz türklərdən heç bir fərqi yox idi, pəhriz-filanla da maraqlanmırdı. Yalnız arvadından qorxurdu, "Amandır, qulaq asma" deyir və hər şeyi yeyirdi. Arvadı da arabir qonaq olurdu. Erməni aşpazımız bizə kitablardan nağıl oxuyurdu. O, mumla gözəl it və pişik şəkilləri çəkirdi. Yeməkləri də çox dadlı idi. Biz gələnə qədər o, bir il atamın yanında qaldı. Həm atam çox sədaqətlə xidmət etdi, həm də bizə. Azı iki il. Xüsusən də Çar Rusiyasının Şərqi Anadolu üzərindən cənuba doğru irəliləmək istəyinə qarşı İngiltərə müstəmləkələrinə gedən yolun təhlükə altında olacağına inanmış və bu vəziyyət iki dövlətin Osmanlı torpaqları uğrunda mübarizəyə girməsinə səbəb olmuşdu. Bu məqsədlə həm Rusiya, həm də İngiltərə erməni xalqı vasitəsilə təsir və istismar sahəsi yaratmaq siyasətinə başladılar. Rusiya ermənilərin üzərindən cənuba çatmaq niyyətində olduğu halda, İngiltərə də ermənilər vasitəsilə Rusiya ilə müstəmləkə yollarında bufer zona yaratmağa çalışırdı. Osmanlı dövlətində təbəə statusunda olan ermənilər dövlətin müxtəlif bölgələrinə yayıldılar. Şəhərlərdə ticarət və sənətlə məşğul olanlarla yanaşı kənd yerlərində əkinçilik və digər sahələrdə çalışanlar da var idi. Ermənilər Osmanlı İmperiyasında yaşayan ən rahat qeyri-müsəlman cəmiyyəti idi. Kənd yerlərində yaşayanlar əkinçilik və heyvandarlıqla, şəhərlərdə yaşayanlar isə rayon sənayesi, pul dəyişdirmə və bank işi ilə məşğul olurdular. II. Mahmutun hakimiyyəti dövründən (1808-1839) başlayaraq dövlət idarəsində daha yüksək və yüksək vəzifələrə ermənilər gətirildi. Bu dövrdə dövlətin tam etimadını qazanmış dövlət qulluqçularının ərsəyə gətirdiyi bayrağı daşımaq vəzifəsi onlara həvalə edildi. Sultan Əbdülməcidin (1839-1861) dövründə sarayda çoxlu erməni xidmət edirdi. Xüsusən 1821-ci il Yunan üsyanından sonra idarəçilikdə mövqeləri getdikcə artan ermənilərin mövqeləri İslahat fərmanından sonra qubernator, səfirlik, baş müfəttiş, eləcə də vəzir və nazirlik vəzifələrinə qədər yüksəldi. Məlumdur ki, Fateh Mehmetin dövründən müxtəlif dövrlərdə Osmanlı sarayında erməni əsilli həkimlər (Boqos, Manuel, Pavlaki) çalışıblar. Ermənilər həm dövlət təşkilatında, həm də təsərrüfat həyatında mühüm yer tuturdular. Bundan əlavə, erməni və müsəlman əhali ilə digər xristian ünsürləri və müsəlmanlar arasında görünməmiş əlaqələr mövcud idi. II Dünya Müharibəsindən sonra Şərqi Anadoluda ermənilərin vəziyyətini araşdırmaq vəzifəsi verilən General Harbour demişdi: "Türklər Ərzurumda Həcc ziyarəti üçün Məkkəyə gedəndə mülklərini və iş yerlərini etibar etdikləri ermənilərə, ermənilər ezamiyyətə gedəndə də türklərə əmanət edirdilər"***

***Paşa atam üçün bu uşaqların hansı irqdən deyil, "övlad" olması önəmli idi. Ancaq uzaqdan bu günləri görüb heç vaxt erməni uşaqlarını türklərin arasına salmadı. Gürbüz Uşaq Ordusuna qəbul edilən uşaqların şəcərələri məlumdur. Paşa atam deyirdi ki, minlərlə yetim erməni övladı olub, ona görə də ermənilər ona "yetim atası" deyirdilər. Erməni uşaqları küçələrə atılan, yazıq, ac, kimsəsiz qalanda onları himayə edib Trabzonda açılan uşaq evinə göndərirdi. Trabzonda yaxşı baxılan 5 minə yaxın erməni uşağı da Kazım Karabəkiri ata kimi görürdü. Erməni uşaqları tərəfindən hazırlanmış və alt tərəfində "Ferik Kazım Karabəkir Paşa (Yetimlərin atası, qəhrəman Kazım Karabəkir Paşa - Trabzonlu Erməni yetimləri tərəfindən- 9 sentyabr 1338 (1922)" yazılmış kömürlə çəkilən rəsm bu gün muzeyimizdə sərgilənir. Ermənilərin türklərə qarşı qırğın ittihamları yalanlarına qarşı ən yaxşı cavabdır bu rəsm.***

***Paşa atam 'İnşallah bu uşaqlar türklərdən gördükləri mərhəməti unutmazlar' demişdi.***

*Dilimizə uyğunlaşdıran:*
*Eminquey*

# “İncəsənət adamı daim fəaliyyətdə olmalıdır”

***”Musiqi yalnız sevgiyə uduzur. Lakin sevgi özü də bir musiqidir”...***

***(Aleksandr Puşkin)***

***Bu gün mövzumuz musiqidir. Adalat.az saytının budəfəki müsahibi Rəşid Behbudov adına Mahnı teatrının solisti, Azərbaycan Milli Konservatoriyasının nəzdində vokal müəllimi və ifaçısı Kazım Nicat Fəxridir.***

**- Adətən ifaçıııq üçün səs genetik keçir. Musiqiçi ailəsində doğulmadan musiqiyə bu qədər bağlılıq necə olur?**

- Mən bu fikirlə razı deyiləm. Həkimin oğlu həkim, hakimin oğlu hakim olmalıdır deyə bir şey yoxdur . Bu bir istedaddır. Allah tərəfindən insan verilən xüsusi bacarıqdır. Bundan sonra səs, eşitmə qabiliyyəti və ritm qalan qabiliyyətləri zəhmətlə əldə etmək mümkündür.

**- Bu gün hələ siz də gənc nəslin nümayəndəsi sayılırsınız. Sizi, indiki gənc nəslin milli musiqimizə və eftrada vokal sənətinə göstərdiyi diqqət qane edirmi?**

- Əlbəttə mən də hələ gənc sayılıram. Hesab edirəm ki, gənclik insanın ruhunda daxili dünyasında olmalıdır.

Hər zaman gənc ,kreativ olmağa can atıram. Gənclərin bu mənada yanaşmasına gəldikdə isə onu deyə bilərəm ki, burda əsas zövq müxtəlifliyidir. Amma hər janrda istedadlı gənclərimiz çoxdur Maşallah. Bizim musiqi xəzinəmizin belə gənc istedadlarla daha da zəngləcəyinə inanıram.

**- Yaradıcılığınızda nə kimi yeniliklər var və planlar nələrdir?**

- Sualınıza bir az bədii şəkildə cavab vermək istərdim. Mənə görə yaradıcılıq, xüsusilə ilə də incəsənətlə bağlı olan yaradıcılıq, bulaq kimi hər zaman axmalıdı.

İncəsənət adamı daim fəaliyyətdə olmalıdır. Mən məsələyə öncə belə yanaşıram. Şəxsən mən mütəmadi olaraq repertuar üzərində həvəslə çalışıram. Mümkün qədər Retro mahnılarımızı yeni aranjımanda lentə alıram və yeni konsertlərə hazırlaşıram. Təbii ki, gələcəkdə daha çox öz sahəm üzrə uğurlu işlərə imza atmağı əsas istiqamət kimi görürəm.

**- Ölkə prezidenti tərəfindən Tərəqqi medalı ilə təltif olunmusunuz. Yəqin ki, həmin günün sevinci xüsusi olub. Bununla bağlı istərdim ki,təəssüratlarınızı bölüşəsiniz!**

- Bu təəssüratı vallah sözlərlə ifadə etmək çox çətindir. Çox -çox minnətdaram ölkə başçısı - qalib sərkərdə , müzəffər Ali Baş Komandanımıza. Mənim üçün əlbəttə ki, bu təltifin ömür boyu xüsusi dəyəri olacaqdır. Və təbii ki, bu təltif mənə bir sənət adamı kimi yetərincə və zamanında böyük bir motivasiya rolunu da oynadı. Bunun mənim üçün mənəvi dəyəri o qədər yüksəkdir ki, onu sözlərə sığışdıra bilmərəm. Və mən bundan sonrakı musiqi fəaliyyətimdə ikiqat həvəslə ölkəmiz və musiqi sənətimiz üçün çalışacağam.



**- Kazım Nicat Fəxri kimdir? Lütfən özünüz barədə bir az danışasınız!**

- Əvvəla salam olsun bu müsahibəni oxuyan hər kəsə. Özüm haqda deyə bilərəm ki, mən - Kazım Nicat Fəxri, hal - hazırda Rəşid Behbudov adına Dövlət Mahnı teatrının solisti və Azərbaycan Milli Konservatoriyası nəzdində musiqi kollecinin vokal müəllimi və müğənniyəm. Qeyd edim ki, musiqinin bir çox janrlarında ifa edirəm. Bura milli, estrada və klassik janrlar aiddir. Deyə bilərəm ki, buna səs imkanlarım , təhsilim və təcrübəm imkan verir. Musiqi təhsilinə gəldikdə isə ilk musiqi təhsilimi doğulduğum doğma Gəncə şəhərində Fikrət Əmirov adına 1 nömrəli uşaq musiqi məktəbinin xanəndəlik sinfi üzrə Xalq artisti Şahnaz xanım Haşımovadan almışam. Daha sonra təhsilimi Bakıda davam etdirmişəm. İndi dərs dediyim Azərbaycan Milli Konservasoriyasının nəzdində Musiqi kollecinin estrada ifaçılıq üzrə”Fərqlənmə ”diplomu ilə bitirmişəm. Daha sonra Bakı Musiqi Akademiyasını Opera ifaçılığı üzrə bakalavr, Kamera ifaçılığı və Xor dirijorluğu üzrə magistr pilləsində fərqlənmə diplomu ilə təhsil almışam . İkinci Beynəlxalq Vokal müsabiqəsinin laureatıyam. Bir çox beynəlxalq festivalların və dövlət tədbirlərinin fəal iştirakçısıyam. Heydər Əliyev fondunun və Mədəniyyət Nazirliyinin xətti ilə mədəniyyətimizi Fransa, İtalya, Türkiyə, Qazaxıstan, İran, Pakistan, Qətər, Tacikistan, Rusiya və bir sıra ölkələrdə təmsil etmişəm. 2016 - cı ildə Rəşid Behbudovun heykəlinin açılış mərasimində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev və birinci vitse - prezident Mehriban xanım Əliyevanın qarşısında uğurla çıxış etmişəm.

**- Yekun olaraq, vokal sənətinə yiyələnmək istəyən gənclərə və bütün sənətsevərlərə demək istədikləriniz varmı?**

- Gənc nəslin nümayəndələri olan və musiqi sənətinə xüsusi həvəsi və bu sahədə bacarıqları olanlara belə bir xitab etmək istərdim.

İstedadı olan gənclər təhsilə önəm verin!

Səs varsa oxuyum deməyin !

Təhsil alın gördüyünüz işi yüksək səviyyədə yerinə yetirin!

Musiqiçi olmayan gənclərə isə tövsiyəm odur ki, çalışıb zövqlü musiqilərə qulaq asın!

Milli musiqimizi , klassik və estrada musiqimizi diqqətlə dinləyin! Yaddan çıxarmayın ki, gələcək gənclərlə gəlir!

Sonda isə sizə və Adalet.az (”Ədalət” qəzetinə) saytına uğurlar arzu edir və dərin minnətdarlığımı bildirirəm.

**- Səmimi müsahibə üçün biz də saytımız adından sizə uğurlar arzu edirik.**

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

# İzmirin cənnəti Alaçatı

**Alaçatı dar küçələri və daş evləri ilə hər fəsildə əyləncəli və bənzərsizdir. Bu məkan haqqında söz düşərkən, ilk ağıla gələn sörf, külək, daş evlər, dəyirmanlar, dar küçələr və çeşid çeşid dondurmalar olsa da, bu şirin yer haqqında birçox təfərrüat var.**

Alaçatının Osmanlı dövründə Alajaat tayfasının yaşadığı bir kənd olduğu məlumdur.



Adalet.az xəbər verir ki, İzmirin mərkəzindən təxminən 70 km aralıda, Çeşmə rayonunda sahil qəsəbəsi olan Alaçatı qədim dövrlərdən bəri istifadə olunan yaşayış məntəqəsidir. Anadolunun qərbə doğru uzanan ən uzaq nöqtələrindən biridir. Bölgə üçün Aqrillia, Alaatsata, Alajaat və son olaraq Alaçatı adından istifadə olunub. İndiki adını Alajaat tayfasından götürüb. Alaçatının tarixi 1850-ci illərə qədər uzanır. Alaçatı əntiq şəhəri cənubdan Alaçatı körfəzinin, şimaldan isə Ilıca kəndinin ortasında salınıb. Alaçatını görməyən bir çox insan şəhərin dəniz kənarında yerləşdiyini düşünür. Ancaq Alaçatı şəhərin mərkəzindədir və sahil xətti yoxdur. Alaçatının tarixi yaşayış kompleksi iki mərtəbəli türk və yunan memarlıq üslublarından ibarətdir. Daş binalar, dar küçələr və yerli yel dəyirmanlarından ibarət unikal atmosferə malikdir.

Saqqız adasının sadəcə cənubunda bitən saqqız ağacları dünyada nadir bir bitkidir, vətəni Türkiyənin Alaçatı bölgəsidir. Bu ağacların 300-dən çoxu Çeşmə şəhərinin mühafizəsi altındadır.

# Dünya tarixində tibb sahəsində baş verən ən maraqlı və qəribə hadisələr...

**İnsan orqanizmi üçün ən dözülməz ağrılardan biri olan appendisit ağrısını özü əməliyyat edən həkimdən tutmuş ən qəribəliklərlə dolu hadisələr barədə sizə məlumatlar verməyə çalışdıq. Xüsusilə daha qədimlərdə tibb sahəsində istifadə edilən bəzi alətlər böyük təəccübə səbəb olub.**

Tarixin çeşidli dövrlərində tibbi alət kimi istifadə edilən bəzi alətlərdən bəhs edən yazını təqdim edirik:

Bir neçə əsr əvvəl Avropada bir qrup həkim dövrün bəlası olan vəba xəstəliyindən qorunmaq üçün bu paltarların geyinirdilər. Onlar maska içərisinə lavanda çiçəyi qoyaraq gözəl qoxunun xəstəliyi özlərinə keçirmədiyinə inanırdılar.

1937-ci il tarixli bu fotoşəkil əslində böyük bir faciəni göstərməkdədir. Poliomelit- yəni uşaq iflici - o illərə qədər bir çox uşağın ölməsinə, sağ qalanların isə ciddi dərəcədə şikəstliyə məhkum olmasına səbəb olurdu. Bu xəstəlikdən ən çox əziyyət çəkən ölkələrdən biri də Amerika olub. 1955-ci də Dr.Salk peyvəndi tapana qədər isə fotoşəkildəki müalicə üsulundan istifadə olunurdu. Uşaq iflicinə səbəb olan virus bəzi xəstələrdə beyinə yerləşərək buradakı tənəffüs mərkəzini iflic edir və xəstəni nəfəs ala bilməyəcək hala gətirirdi. Buna mane olmaq üçün istifadə edilən bu çörək bişirmə sobasına bənzər alət mexaniki bir ağciyər olub, uşaqların nəfəs alıb verməsinə köməkçi olmağa çalışsa da bu maşında aylarla yaşayan uşaqların hamısı həyatını itirirdi.

Təxminən 1890-1900 illəri arası çəkildiyi bildirilən bu fotoşəkildəki ayağını itirən qadına taxılan taxta protezdir.

Gördüyünüz kiçik ölçüdə lakin peşəkarlıqla hazırlanmış bu fiqur heç də oyuncaq deyil. Katolik kilsəsinin təzyiqçi rejimi altında olan, xristian ölkələrində həkimlərin ( qadınların həkim olması qadağan) müayinə məqsədli belə olsa qadınlara toxunmaları qadağan idi. Bu səbəbdən də qadın xəstələr bədənlərinin şikayətçi olduqları nahiyyəsini göstərə bilmək üçün həkimlər bu maketdən istifadə edirdilər.

Alman amutasiya ( orqan kəsmə ) bıçağı. 18 - ci əsrdə kəşf olunub. Bu bıçaq, xüsusilə cərrahlar tərəfindən ayağı dizin altından kəsmək üçün istifadə edilirmiş. Anesteziya olmadan tətbiq olunan üsul xəstə üçün çox uzun keçsə də yalnız bir neçə dəqiqədən ibarət olurmuş.

17 - ci əsr ambutasiya bıçağı - cərrahlar maddi cəhətdən varlandıqdan sonra



xüsusilə belə tərz tibbi alətlərə pul xərcləməkdən mənəvi zövq alıblar. Xüsusilə qızıl örtməli alətlər dəbdəydi. Təəssüf ki, belə alətlərdə bakteriya törəməsi çox idi və əksər cərrah əməliyyatlar arasında aləti təmizləmirdi.

Fransız güllə çıxaranı. 16-cı əsrin əvvələrində silahların çoxalmasından sonra istifadə olunun bu alət, gülləni çıxarmaq üçün qayçıya bərkidilmiş uzanıb qısalan uzun bir çubuqdan ibarət olub.

**27 yaşlı Leonid Roqozov öz appendisit əməliyyatını 30 aprel 1961 - ci ildə özü edən həkim olaraq adını tarixə yazdırıb.**

**Bünyamin Bünyadzadə**

# DOSTUNU MƏNƏ GÖSTƏR



*Faiq Şahbazlı*
*Filologiya üzrə fəlsəfə doktoru, Qabaqcıl təhsil işçisi, Əməkdar müəllim - Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Sənaye və Texnologiya Kollecinin direktoru*

**Bir kənddə doğulmuşuq. Tarixlər şahidi əzəmətli Çıraq qalanın ətəklərində qərar tutmuş Dəvəçi (indiki Şabran) rayonunun tanınmış, adı, şöhrəti məsafələrə sığmayan, səfalı Orta Əmirxanlı kəndində. Yaş fərqimiz çox deiyl - üç yaş böyükdü məndən. Eyni məktəbdə təhsil almışıq. O məktəbdə ki, gözümüzü açandan Onun anası həmin məktəbin direktoru olub, atası isə müəllimimiz. Sonralar böyük bacısı da bizə dərs deyirdi - yuxarı siniflərdə oxuyanda. O balaca kəndimizdə bu ailə təhsil beşiyini xatırladırdı - Məzəxanım müəllimə, Sədri müəllim və Rəhimə müəllimənin timsalında. Məktəb illərinin şirin xatirələri yada düşəndə bu insanlar da həmişə gözlərim önündə canlanır.**

Biz o vaxtlar tez-tez yığışıb balaca komandalarla kəndimizin hamar yerlərində futbol oynayırdıq, səsimiz bürüyərdi aləmi. İkimiz də həmişə eyni komandada oynayırdıq və qapıçımız Onun qardaşı Sənani rəhmətlik olardı. Qapımızdan top keçəndə Sənaninin üstünə qışqırmaları gözümün önündən getmir - elə bil aləm dağılıb… Doğrudan da, gözəl futbol oynayırdı.

Yaşımız artdıqca Onun dərslərində də nə qədər irəli olduğunu, nümunəvi şagird kimi tanındığını görürdüm. O, çox maraqlı dost idi mənimçün. Əlindən də oxumaqdan və futbol oynamaqdan başqa heç bir iş, yəni başqa yaşıdlamız kimi kənd-kəsək, təsərrüfat işləri gəlmirdi.

Mütaliyəsi isə başqa aləm idi. Kəndimizin kitabxanasında oxumadığı bədii əsər qalmamışdı və yəqin elə bu keyfiyyətlərinə görə çox vaxtı özündən yaşlılarla oturub-durar, söhbətləri tutardı. Özündən böyüklər tərəfindən hər zaman hörmətlə qarşılanar, hətta hərdən yeyib-içərdi onlarla. Mən də həsəd aparardım Ona.



Adını hörmət əlaməti olaraq böyük hərflə "O" kimi göstərdiyim Nizami Əliyev - Rəhmanlı bizim Əmirxanlı camaatının haqqında fəxrlə danışdığı yetirmələrindəndir. Jurnalistika aləmində Nizami Rəhmanlı kimi geniş tanınan bu ziyalı insan səmimiyyəti, canıyananlığı ilə də nümunədir. Qələmə aldığı yazıların heç birində yaxşılıqdan, xeyirxahlıqdan, ədalətdən başqa bir şey tapılmayacağına əminəm. O qədər dostu, yaxını var ki…

Yazıb-pozmağa hələ orta məktəb həyatından başlamışdı. Rayonumuzun "Qurucu" qəzetində, respublika mətbuatında, hətta "Təşviqatçı" jurnalında dərc olunan məqalələri, kiçik hekayələri, təmsilləri bizi də həm sevindirir, həm də heyrətləndirirdi. Kənd içində hər gün heç olmasa bir-iki dəfə rastlaşardıq. Görüşəndə söhbətlərimiz çox vaxt ədəbiyyatdan, bədii kitablardan, ədəbi qəhrəmanlardan düşürdü. Nizami Rəhmanlı elə o illərdən dedikcə maraqlı həm söhbət idi.

Bu gün çoxlu kitabları çap edilib Nizaminin. Məqalələrinin isə mən bilənə görə sayı-hesabı yoxdur. Kənd-kəsəyimizdən yazmaqdan xüsusi zövq alır. Belə yazılarında o, kəndimizə, onun adamlarına qələmi ilə sığal çəkir elə bil - hamıya istəyini, məhəbbətini yetirir. Bu yaşında da o, bütün varlığıyla doğma yurda, uşaqlığını və gəncliyini əmanət qoyduğu kəndimizə ürəkdən bağlıdır. Bir də sözün açığı Nizami Rəhmanlının doğma Azərbaycanımızı, xalqımızı, MDB ölkələrində ləyaqətlə təmsil edən həmyerlilərimiz barəsində yazdığı publisistik əsərləri, kitabları da çox maraqla oxuyuram. Başqa məmləkətlərdə yaşayıb çalışan, iqtisadiyyatın, ictimai-siyasi həyatın, mədəniyyətin, elmin müxtəlif sahələrində özünü şərəflə doğruldan, yüksək ad-san qazanan bu soydaşlarımızla elə mən özüm də qürur duyuram.

On altı yaşında bizim o, unudulmaz dağ kəndimizdən sevinə-sevinə təhsil və kariyera arxasınca Bakıya gələn və hər ikisini qazanan Nizami müəllim indi xeyir-şərə yetmiş yaşında ahıl bir kişi kimi yenə sevinə-sevinə gəlir. Hələ bir toylarda da şirin-şirin oynamağını da unutmadığını göstərir. Nizami müəllimin gözəl ailəsi var. Xanımı hörmətli Hörmət bacı, oğlanları Orxan və Tural, qızı Turan… Onlar onun rahat həyat nizamının pozulmamasının keşiyində olublar həmişə.

Dostları çox sevir onu. Şirin söhbətləri, maraqlı xatirələri, dəyərli məsləhətləri, qayğıkeşliyi ilə ətrafındakılara hüzur verir.

Qürurlu bir ömür yaşadığının fərqindədir Nizami Rəhmanlı.

**Nizami müəllim, mən də yetmiş yaşın həndəvərindəyəm deyə, qocalıqdan yaman çəkinirəm və daha çox yaşamaq istəyirəm elə bil. Həyatdan doymaq olur ki?.. Doymamışıq, Nizami müəllim, elə deyil?... Azad olunmuş torpaqlarımızı, bir daha yenidən çiçəklənən Qarabağımızı qarış-qarış gəzib vəsf etmək, kəndimizin adamlarını daha geniş tanıtmaq, bu dünyanın gözəlliklərindən, rəngarəngliyindən zövq almaq üçün Sizə çox yaşamaq arzusu ilə.**

# Qarabağ haqqında yeni kitabların təqdimatı olub

**"Peşəyönümlü Təhsilin İnkişafına Dəstək" İctimai Birliyinin sədri, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü İradə Əlilinin ( Əliyeva) müəllifi olduğu "Zəfər yolu", "Bir damla göz yaşında torpaq həsrəti", "Laçın həsrətim" və "Xocalı Şahidlər danışır" adlı kitablarının təqdimat mərasimi baş tutub.**

Təqdimat mərasimini giriş sözü ilə açan Nərimanov rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (MKS) direktoru Vəfa Quliyeva qonaqları salamlayaraq onların hər birinə iştirak üçün öz təşəkkürünü bildirib.



Daha sonra çıxış edən tədbirin aparıcısı və kitabxananın əməkdaşı Ülkər Zeynalova şairənin yaradıcılığı və təqdim olunan kitablar haqqında ətraflı məlumat verib.

Təqdimatda çıxış edən "Zəfər yolu" kitabının "Ön söz" müəllifi, Milli Məclisin İctimai birliklər və dini qurumlar, Elm və Təhsil komitələrinin üzvü, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman hərbçilərimiz canları bahasına Vətən torpaqlarını işğaldan azad etdi. Bu amal uğrunda şəhadətə yüksələn qəhrəmanlar hər zaman xalqımızın qəlbində yaşayacaq: "Vətən müharibəsindən sonrakı dövrdə qarşımızda duran mühüm vəzifələrdən biri Qələbəmizi daha da möhkəmləndirmək, eləcə də tarixi Zəfərimizi dünya ictimaiyyətinə çatdırmaqdır.

Biz bu gün çalışırıq ki, Azərbaycan həqiqətlərini dünyaya çatdıraraq erməni vəhşiliyini ifşa edək. Bu baxımdan, belə əsərlərin ərsəyə gəlməsi çox önəmlidir. Diqqətçəkən mühüm amil ondan ibarətdir ki, bu kitab təkcə Azərbaycan dilində deyil, həm də ingilis dilindədir. Yəni, bu gün ən mühüm məsələlərdən biri də odur ki, ingilis, fransız, ərəb və digər dillərdə də belə kitablar nəşr olunsun. Hesab edirəm ki, bu, bizim haqq işimizin təbliğinə dünya ictimaiyyətinə çatdırılması növbəti mühüm töhfə olacaq."

Milli Məclisin Əmək və sosial siyasət komitələrinin üzvü, millət vəkili Vüqar Bayramov qeyd edib ki, bu kitablar Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun gücü və xalqımızın birliyi sayəsində 44 günlük Vətən müharibəsində qazanılan Qələbəmizdən bəhs edir:

"Kitabları oxuyan hər kəs Zəfər tariximizi daha yaxından öyrənəcək, həmçinin onlarda tariximizə, tarixi şəxsiyyətlərimizə, milli-mənəvi dəyərlərimizə və müasir Azərbaycanın inkişaf yoluna diqqət və marağın artırılmasına düzgün yanaşma tərzi formalaşacaq. Bu kitablar gələcək nəslin ölkənin keşməkeşli tarixi keçmişini öyrənməsi, onlarda Vətənə sevgi və vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi istiqamətində böyük rol oynayacaq".

Çıxış edən İraq Respublikasının Azərbaycandakı səfirliyinin Mədəniyyət şöbəsinin rəisi Hudayfa Ziyad Mahmud tədbirdə iştirakından məmnunluğunu dilə gətirərək, ölkələrimiz arasındakı qardaşlıq münasibətlərindən söz açdı.

Vurğuladı ki, Azərbaycan Ordusunun əldə etdiyi tarixi Zəfər dövlət və xalqın mənafeyi baxımından xüsusi əhəmiyyətə malikdir: "Uzun illərdən bəri düşmən tapdağı altında qalmış torpaqların işğaldan azad edilməsi ilk növbədə Azərbaycan xalqının özünə inamını qaytardı, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirdi. Zəfər Günü ilə bağlı yazılan tarixi kitabın ictimaiyyətə təqdim olunması qürurvericidir.

Bu kitablar vətənpərvərlik ruhunda yazılmış əsərlərin təcəssümüdür. Belə nəşrlərin olması gələcək üçün də parlaq bir töhfədir. Bu kitabın nəşrə hazırlanmasında əməyi olan hər kəsə təşəkkür edirəm."

Tədbir zamanı 25 saylı tam orta məktəbin 5 b sinif şagirdi Şəfiqə Kərimli İradə xanımın şeirlərindən səsləndirdi, Milli konservatoriyanın tələbəsi Primov Asim tarda "Alagözlüm" mahnısını ifa etdi və təqdim edilən kitablar haqqında videoçarx nümayiş etdirildi.

Kitabların müəllifi "Peşəyönümlü Təhsilin İnkişafına Dəstək" İctimai Birliyinin sədri, AMEA-nın dissertantı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü İradə Əlili bildirdi ki, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırmaq hər birimizin vətəndaşlıq borcudur: "Təbii ki, indi informasiya silahından daha çox istifadə etmək lazımdır. Biz də Azərbaycan vətəndaşı, ziyalı olaraq tarixi gerçəklikləri dünya ictimaiyyətinə tanıtmalı və bu yönümdə zəruri tədbirlər həyata keçirməliyik. Müəllifi olduğum 14 kitabdan 8-i Qarabağla bağlıdır. Fikrimcə, mənim kitablarım az da olsa Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına öz töhfəsini verəcək. Kitablarım bir neçə xarici dildə tərcümə olunub. Bu, o deməkdir ki, xarici dövlətlərin vətəndaşları da tariximizin gerçəkliklərini müxtəlif dildə oxuyacaq və biləcəklər". Tədbir zamanı 25 saylı tam orta məktəbin 5 b sinif şagirdi Şəfiqə Kərimli İradə xanımın şeirlərindən bir parça səsləndirib, Milli konservatoriyanın tələbəsi Primov Asim tarda "Alagözlüm" mahnısını ifa etdi və təqdim edilən kitablar haqqında videoçarx nümayiş etdirilib.

İ.Əlili tədbirin təşkilinə görə Nərimanov rayon MKS-nin rəhbərliyinə öz minnətdarlığını bildirib və kitabların çapında əməyi keçən hər bir şəxsə təşəkkürünü çatdırıb.

"Laçın Həsrətim" kitabının həmmüəllifi yazıçı Sevinc İbrahimova qeyd edib ki, İradə xanım Qarabağa və qarabağlılara xüsusi dəyər verir. Heç bir maddi-mənəvi dəstək olmadan Qarabağ həqiqətlərindən bəhs edən kitabları öz hesabına kitab nəşr etdirib: "Bütün qarabağlılar, xüsusilə də laçınlılar adından İradə xanıma dərin minnətdarlığımı bildirirəm. İnşallah ki, bundan sonra yazılan bütün kitablarımız Zəfər soraqlı olar. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə cansağlığı versin." "Zəfər Yolu" kitabının həmmüəllifi, "Baku News" internet televiziyasının aparıcısı, jurnalist Vüqar Şahinoğlu bildirib ki, kitabın yazılmasında məqsəd 44 günlük Vətən müharibəsindəki qalibiyyətimizi müxtəlif dillərdə bütün dünyaya çatdırmaqdır. Bu kitab Azərbaycan və ingilis dillərinə tərcümə olunub. Türkiyə türkcəsi üzərində tərcümə işləri artıq yekunlaşmaq üzrədir. Gələcəkdə kitabın daha bir neçə xarici dillərə tərcümə edilməsi nəzərdə tutulur.

V.Şahinoğlu diqqətə çatdırıb ki, bu kitabda əsasən cənab Prezident İlham Əliyevin İkinci Qarabağ savaşına qədər və postmüharibə dövründə etdiyi çıxışlar və xalqa müraciətləri öz əksini tapmışdır.

Eyni zamanda, Qarabağdan olan ictimaiyyət, media nümayəndələrinin və digər peşə sahiblərinin Qələbə ruhunda yazılmış fikirləri də öz əksini tapıb.

**Həmçinin mərasimdə Avropa Azərbaycanlıları Konqresinin baş katibi Arzu Oqtay, Almaniya-Azərbaycan Dostluq Cəmiyyətinin sədri Naibə Hacıyeva, İsveç Krallığında yaşayan Azərbaycan diasporunun tanınmış təmsilçisi və lobbiçisi, Stokholm Bələdiyyəsinin dövlət qulluqçusu Leyla Kiani , Kiyev Azərbaycanlıları Konqresinin Gənclər sektorunun əməkdaşı Mömінə Xatun Səttərova, "Vəfa" sosial problemlərin həllinə dəstək İctimai Birliyinin sədri Fatimə Hacıyeva, Həcər Abbasqızı, Könül Məmmədzadə çıxış edərək kitabların mövzu baxımından böyük əhəmiyyət daşıdığını vurğulayıblar.**

# *Restoranlarda menyunun olmaması müştəri hüquqlarının pozulmasıdır*

**Sosial şəbəkələrdə tez-tez rast gəlirik ki, müştəridən restoranda menyuda yazılan qiymətdən ya çox ödəniş alınır, ya da ki menyu olmur.**

Bununla bağlı Azərbaycan Hotellər və Restoranlar Assosiasiyasının İdarə Heyətinin sədri, Azərbaycan Ekoturizm Assosiasiyasının icraçı direktoru Samir Dübəndi Trend-ə bildirib ki, belə hallar yaşansa da bu kütləvi deyil.

Assosiasiya rəhbəri deyib ki, bu qiymətləri bazar özü tənzimləyir.



"Restoranlarda bahalıqdan şikayət edənlərlə yanaşı qiymətlərdən narazı olmayanlar da var. Baha qiymətlər təklif edən restoranların müştəriləri kifayət qədərdir. Biz Assosiasiya olaraq restoranlara öz fikirlərimizi bildiririk ki, yerli və xarici müştərilərə hesabda artıq pul yazmasınlar. Bundan başqa restoranlarda menyuların olması mütləqdir. Amma bütün restoranlar təəssüf ki, buna riayət etmir.

Bu da restorana gələn müştərinin hüquqlarının pozulmasıdır. Restoranlara gedərkən mütləq menyu tələb edin", - deyə S.Dübəndi bildirib.



*Bəsti Bərdəli*

## *Gül əsər*

*Təcnis*

*Atam mənə ad qoymuşdu Güləsər,*
*Diləyirdi gülə ağıl, gülə sər.*
*Dedim ata, gül üşüyər, gül əsər,*
*Dedi qızım, al yaylığı, gülə sər.*

*Bağrım yandı, yenə atdı, oxu yar,*
*Oxu dərtli, oxu yarsız, oxu yar.*
*Bülbül ahu fəğan edər, oxuyar,*
*Külək bağda, haray salar, gül əsər.*

*Mən atmaram hədəfimə, oxu yan,*
*Nadan atar, oxu əyri, oxu yan.*
*Bərdəlini, sevən, duyan, oxuyan,*
*Alın sizə, bir şah əsər, gül əsər.*

## *Dərdimin*

*Təcnis*

*Mənim üçün qönçə gülü o yarım,*
*Bir dərmədi, beş dərmədi, dərdi min.*
*Bütöv ömru kəsər edər o, yarım,*
*Üz verdikcə dərd eləyər, dərdi min.*

*Həsrətindən rəngim olub sarı gəl,*
*Ey təbibim, gəl yaramı sarı gəl.*
*Zalım olma üzü mənə, sarı gəl,*
*Çarəsi ol, bu sağalmaz dərdimin.*

*Aşiq olan nə istər ki, bir, dənə?*
*Bir dəliyə bir çöl gərək, bir də nə?*
*Sevənə bax, sevəni yox birdənə,*
*Gözü yolda, ruhu xəstə, dərdi min.*

*Göz ağlayar, yaş süzülər, üzə nə,*
*Vəsilə ol, qəm içində üzənə.*
*Bel bağlama ürəyini üzənə,*
*Qoyma çıxa dərt başına, dərdi min.*

## *ÜRƏYİM*

*Hər gələn sabahım dünən əlində,*
*Qalmışam bu dərdin eh, mən əlində.*
*Çırpınır, döyünür düşmən əlində,*
*Qoyub gəldiyimiz dağdı ürəyim.*

*Gördüyü ən gözəl yuxu silinib,*
*Hədəfi silinib, oxu silinib.*
*Hələ nəğməsinin çoxu silinib,*
*Hələ yazılmayıb, ağdı ürəyim.*

*Qor idi, köz idi, indi o küldü,*
*Titrədi, uçundu, əsdi, söküldü.*
*Ələndi, əridi, axdı, töküldü,*
*Sənin ürəyinə, yağdı ürəyim.*

*Göz yaşı durnanın gölü kimidi,*
*Oylağı Məcnunun çölü kimidi.*
*Bax, mənim sinəmdə ölü kimidi,*
*Bax, sənin sinəndə sağdı ürəyim.*

*Uyudu döngədə, dalanda, tində,*
*Beləsi tapılar milyonda, mində*
*At sənin ürəyin bişsin içində,*
*Eşqinlə qaynıyan yağdı ürəyim.*

## *Tanrım nə gözəldi yazı dünyanın*

*Tanrım nə gözəldi, yazı dünyanı.*
*Güləm təbiətin öz nəfəsində,*
*Arzular oyanır söz nəfəsində.*
*Qaya da çiçəkdi yaz nəfəsində.*
*Baharda başlayır nazı dünyanın,*

*Tanrım nə gözəldi yazı dünyanın.*
*Nəğmələr yaradır,hava çaldırır*
*Quruca torpağa nəfəs aldırır.*
*Cücərən zərif ot daşı qaldırır*
*Budur şah nəğməsi,sözü dünyanın..*

*Tanrım nə gözəldi, yazı dünyanın.*
*Ələnir çəmənə yağışı hərdən,.*
*Budaqdan asılan damcılar zərdən.*
*Qırmızı,ağ,sarı,göy çiçəklərdən,*
*Gülür üzümüzə gözü dünyanın..*

*Tanrım nə gözəldi, yazı dünyanın.*
*Yoxuşda şəlalə mələməyi var*
*Çiçək yağışını ələməyi var.*
*Şairi duyğuya bələməyi var.*
*Qərq olur özündə özü dünyanın..*

*Tanrım nə gözəldi, yazı dünyanın.*
*Zülümü,dözümlə yonan Bəstiyəm*
*Bir eşğin qışında donan Bəstiyəm.*
*Sənət zirvəsinə qonan Bəstiyəm.*
*Söykənib üzümə üzü dünyanın...*
*Tanrım nə gözəldi, yazı,dünyanın.*

## *Mən qonmuşam budağına dünyanın*

*Nə qayğısız vaxt varimiş İlahi,*
*Qayıdıram o çağına dünyanın.*
*Səda gəlir qulağıma Murovdan,*
*Atılıram qucağına dünyanın.*

*Hökүm verən günahkarın yanında,*
*Əl isinməz buzun, qarın yanında.*
*Qısılası adamların yanında,*
*Qısılmışam bucağına dünyanın.*

*Bu əyyamda, indi, çarı görəndə,*
*Zirvələrdə axsaq sarı görəndə.*
*Alışmışam məzlumları görəndə,*
*Qalanmışam ocağına dünyanın.*

*Qələm iti, məmur nadan, qapı dar,*
*Ədalətin fəryadına hakim kar.*
*Baş əydirdi igidimə zülümkar,*
*Necə dözüm bu dağına dünyanın.*

*Hər çətinin əlacıdır, xeyir ki,*
*Bəsti də var, nə qədər var şeir ki.*
*Bu şairin nəğmələri deyir ki,*
*Mən qonmuşam budağına dünyanın.*

## *Qıymaram*

*Tikan olub ürəyimə batasan,*
*Təbib gələ çıxarmağa qoymaram.*
*Zülüm versə mənə sənin həsrətin,*
*İnan, bezib bu həsrətdən doymaram.*

*Üzülərsə əlim sənin əlindən,*
*Ayrılığın saçlarıma salar dən.*
*Keçirməsən günlərini mənlə, sən,*
*Bu həyatın varlığını duymaram.*

*Həqiqətin vurğunuyam əzəldən,*
*Xoşum yoxdu yalan sözlü gözəldən.*
*Çərxi fələk salsa məni tez əldən,*
*Özgələrin milyonuna uymaram.*

*Dolanaram qərib, qərib ölkədə,*
*İnsaf elə, qoyma məni kölgədə.*
*Ürəyimi itirərəm bəlkə də,*
*Təkcə səni itirməyə qıymaram.*

*Sənin acığına yaşıyıram mən*
*Arzusu, ümidi talanam, talan,*
*Yaşıyıram yalan, gəzirəm yalan.*
*Ay acıq eyləyib uzaqda qalan,*

## *Sənin acığına yaşıyıram mən*

*Hicrana qəbiri göstərmək üçün,*
*Dözümü, səbiri göstərmək üçün,*
*Yaşıya bilməzdim bəlkə bircə gün,*
*Sənin acığına yaşıyıram mən.*

*Bəstiyəm, dərdlərim axmazdı, göldü,*
*Eşqimin oylağı səhradı, çöldü.*
*Ölərəm, deyərsən mənimçün öldü,*
*Sənin acığına yaşıyıram mən.*

## *Gətirməz*

*Mənim duyğularım günəşin zəri,*
*Mənim nəğmələrim sularda pəri.*
*Mənim məhəbbətim bir ocaq yeri*
*Külü də sovrulub dilək bitirməz.*

*Günahkar olaram dünyadan bezsəm,*
*Sabaha çıxaram gecəyə dözsəm.*
*Sirdaşım olmağa birini gəzsəm,*
*Gələr sinəsi boş ürək gətirməz.*

*Söz mənim ruhumun nəğmə dilləri,*
*Ümidlə gözlədim uzaq illəri.*
*Sənin həsrətinin soyuq əlləri,*
*Mənim baharıma çiçək gətirməz.*

## *Gəl*

*Fikrim qovğalarda, uzaq, yaxında,*
*Ülvi arzularım pas atıb qında.*
*Bu şıltaq qəlbimin qasırğasında,*
*Batarsan, üzməyi bilirsənsə gəl.*

*Güclü axtarmasın gücü qolunda,*
*Gülün də eşqi var, yaza kolun da.*
*Düşəndə borana dostun yolunda,*
*Çətinə dözməyi bilirsənsə gəl.*

*Ən uca zirvələr bürünür çənə,*
*Bəstiyəm deyirəm mən dönə, dönə.*
*Təbiət qoynunda yer verib sənə,*
*Ürəkdə gəzməyi bilirsənsə gəl.*

## *Vaxtın içində*

*Sən harda görmüşdün belə sevgini*
*Qol ata bilmədin,axdın içində.*
*Mən də ümid edib naşı qəvvasa,*
*Çox şey itirmişəm, vaxtın içində.*

*Bitmir ki,gecəsi sökülə danım*
*Bir sual göndərir hər ötən anım.*
*Niyə olmamışam birinci xanım?!*
*Elə oturduğum, taxtın içində.*

*Alver eləmişəm,torpaq satmışam*
*Birdə baxıram ki,itib batmışam.*
*Sən demə başımı qoyub yatmışam,*
*Şansıma qurt düşüb, baxtın içində.*

*Daha eyibinin örtmə üstünü,*
*Yağıya,düşmənə göstər qəstini.*
*Yurdu talan olan,şair Bəstini*
*Bir ucuz söhbətin, yıxdın içində.*

## *Olur*

*Əlinə, dilinə sahib olmayan*
*Elin nifrətiylə o edam olur.*
*Sözünü mərdanə deyə bilməyən,*
*Nə kişi sayılır,nə adam olur.*

*Belə filankəslər,filan adamlar,*
*Nə çoxdu zəhərli ilan adamlar.*
*Dünyanın dərdinə qalan adamlar,*
*Gündüz günəş olur,gecə şam olur.*

*Diz çökməz aqillər zərin önündə*
*Xeyir əyilməsin şərin önündə.*
*Hünərin,qeyrətin,ərin önündə*
*Şir də aciz olur,şir də ram olur.*

*Özgə yalağında yalanmayanda,*
*Zatsıza, köksüzə calanmayanda.*
*Nəfsinin önündə talanmayanda,*
*Belə adamlara ehtiram olur.*

*Başını qoruyub, güdüb gəzənlər,*
*Eşitsin haramı, udub gəzənlər.*
*Rusun ətəyindən tutub gəzənlər,*
*Allaha, imana, dinə, xam olur.*

**Ümit Zileli**

# "Qadın insandırmı?"



**Başlıqdakı sual Səudiyyə Ərəbistanında keçirilən konfransın mövzusu idi!.. Spiker Fəhd Əl-Əhmədi adlı hərifin biridir. Bu iyrənc nitqi oxuyanda köhnə günlərə yenidən nəzər salmaq qərarına gəldim. Hətta təkallahlı dinlərdən əvvələ. Çünki sual təəssüf ki, bəşəriyyətin hər cür inanc və təbii xurafata rast gəldiyi qəbilə sehrbazlarından tutmuş dini liderlərə qədər uzanan minillik macəranın açar suallarından biri idi...**

**İbtidai tayfalardan tutmuş qədim zamanların böyük əkinçilik imperiyalarına qədər qadınlar davam edən nəhəng dövrdə ən ağır şərtlər altında kənarlaşdırılma, aşağılanma və son nəticədə damğalanma prosesini yaşamalı oldular.**

**Tarix dövrümüzə doğru irəlilədikcə, monoteist dinlər kimi tanınan üç böyük dinə çatdıqca, qadınların ümumi sifəti aydın oldu:**

**- Şeytanın yerdəki surəti!**

**Bilirsiniz niyə? Qadının "aybaşı" dövrü, yəni qanı cəhalətin ən pikini yaşayan patriarxal toplumlarda anlaşılmayan və bu səbəblə də "şeytan işi" kimi qəbul olunan bir vəziyyət idi. Və getdikcə qadın quraqlıqdan selə, zəlzələdən vəbaya qədər bütün təbii fəlakətlərin, xəstəliklərin, bədbəxtliklərin səbəbi kimi görülməyə başlandı.**

**Eyni zamanda nə təəssüf ki, qadınlar, qız uşaqları getdikcə "mal", yəni alına və satıla bilən, lap yeri gəlsə məhv edilən bir varlığa çevrildi.**

**Tarixin irəliləyən dövrlərində "matriarxal", yəni qadını əl üstündə tutan toplumlar da oldu. Məsələn, İslamdan öncə türklərin dini Şamanizmdə qadının kişi ilə bərabər söz və hərəkət hüququna malik olduğu qəbul edilirdi. Ancaq böyük işğallar və dağıntılar bu mədəniyyəti tarixə qovuşdurdu.**

**Orta əsrlərdə qadın üçün heç nə əvvəlkindən fərqlənmirdi, əksinə hər şey daha qorxunc hala gəlmişdi.**

**Çünki kişilərin qadınlara qarşı qəzəb və nifrəti institutlaşdı! Məsələn, yəhudilik (yəhudilik), xristianlıq və islamda şayiələr, hədislər, dini liderlərin rəftar və qərarları qadınları köləliyə məhkum etdi.**

**Haqqına danışaq, İslam dini özündən bir az əvvəl "Cahiliyyət dövrü"nün vəhşiliyini məhv etmək baxımından inqilabi sıçrayış etmiş, kiçik qızların "faydasız" düşüncəsi ilə diri-diri basdırılmasına son qoymuşdu.**

**Məsələn, hər üç dində qadın, demək olar ki, alınıb satılan bir mal kimi idi. Ər onun mütləq ağası idi... Xristianlıqda qadına həmişə itaətkar və sakit olmaq, camaat qarşısında danışmamaq əmr olunurdu. Qadınların örtünməsi və evdən çox çıxmaması hər üç dində də mövcud idi.**

**İslamda qadınlar kişilərə nisbətdə "ikinci dərəcəli" elan edilmişdi.**

**İki qadının kişi əleyhinə şahidlik etməsi, mirasdan bərabər pay almaması, lazım gəldikdə döyülməsi və s.**

**1350-ci illərdə katolik inancının ən güclü nümayəndəsi olan İspaniyada başlayan və daha sonra bütün Avropaya yayılan "inkvizisiya" 400 ilə yaxındır qadınların kabusu olub.**

**On minlərlə qadın bu qeyri-insani məhkəmələrdə "cadugərlik" və "şeytanpərəstlik" cəfəngiyyatlarına görə diri-diri yandırıldı. Bu müddət ərzində elə işgəncələr yaradıldı ki, burada təsvir etməyə utanıram.**

**- İstəsəniz, İspaniyadakı "İnkvizisiya Muzeyi"nə baş çəkib, şəxsən baxa bilərsiniz!**

**Xristian dünyası 1500-cü illərin əvvəllərində alman ruhanisi Martin Lüterin "protestant" hərəkatı ilə islahat və intibah dövrünə qədəm qoydu. İnkvizisiyanın təsiri zəiflədi və 1750-ci ilə qədər davam etdi. Mətbəənin böyük təsiri ilə kitablar və qəzetlər, yəni maarifçilik fəaliyyətə başladı. Müstəmləkəçiliyin iqtisadi dəstəyi və fəlsəfənin dəyərinin dərk edilməsi bugünkü "ağ adam sivilizasiyasını" qurdu!..**

**- Bu gün dünya bu çoxşaxəli sivilizasiyanın boyunduruğu altındadır!..**

**Təəssüf ki, İslam dünyası öz islahatını və intibahını edə bilmədi!...**

**Böyük mütəfəkkirlər, böyük filosoflar yetişdirən İslam dini İmam Qəzalidən bəri ilişib qaldığı "formalizm" və "irticaçılıqdan" xilas ola bilmədi.**

**Hələ bir neçə il əvvəl Əl-Əzhər Universitetinin bir alimi fətva vermişdi ki, "Ey camaat, sizi aldadırlar, dünya düzdür, qalanı yalandır".**

**Sonra yenə bir axmaq dedi ki, qızları 1 yaşından ərə vermək olar!**

**Bizdə özlərinə "alim" titulu verən məxluqlar nikah yaşını "6" elan etdilər!**

**Televiziyadakı zarafatları və Hz. Məhəmməd peyğəmbərin başmaqlarının satışı ilə məşhurlaşan "din alimi" qiyafəsində bu əsasları öz fətvaları ilə çaşdırıb: "7 yaşlı qıza kişi müəllim öyrədə bilməz", "Qadınlar təhsil alsınlar. qızlar, allahım!"**

**Ərəbistan yarımadasındakı bütün müsəlman ölkələrinin mövcud olduqları gündən İspaniyada illik 10 min tərcümə sayına belə çatmadığı, neft sərvətlərinə baxmayaraq dünya miqyasında ən aşağılarda olduqları açıq-aşkar göründüyü halda bir hərifin "Qadın insandırmı?" deməsinə təəccübləndiyinizə mat qalıram!**

**Hər gün qətlə yetirilən və zorakılığa məruz qalan qadınlara həsr olunmuş, illər əvvələ gedən bir yazı.**

**"Qadınların azad edilmədiyi cəmiyyətlər nə qədər varlı olsalar da, tapdalanmağa məhkumdurlar" məsəlinin nə dərəcədə doğru olduğunu izah etməyə çalışdım...**

**Qadınlara hörmətlə!**

**Dilimizə uyğunlaşdıran: Eminquey**



FƏZAİL İSMAYIL
BÖYÜKKİŞİ

## GÜLÜM

***Bu nə görkəm, bu nə qamət,***
***Seçilmirsən güldən gülüm.***
***Vallah səni qaçırardım,***
***Utanmasam eldən gülüm.***

***Kimə açım yar dərdimi?!-***
***Xəyal, bəhrə bar verdimi?***
***Məcnunluq şad xəbərdimi?***
***Yığılmıram çöldən gülüm.***

***Çoxalsa da gəlib-gedən,***
***Az tapılar qəlbən sevən,***
***Öz insafın o sən, bu mən,***
***Məhəbbəti böl tən, gülüm.***

## SONAM

*Varlığıma qor doldurub,*
*Nə qaçırsan yana sonam,*
*Gizlin-gizlin can qovurub,*
*Salma məni qana, sonam.*

*Danışıram, naz satırsan,*
*Danışmıram söz atırsan,*
*Ürəyimi oynadırsan,*
*Qorxmursanmı sına, sonam?!*

*Dilbər mindir, sənəm yüzdür,*
*Od püskürən sinəm közdür,*
*Bilirsənki sözüm sözdür,*
*Övladıma ana sonam.*

## GƏZƏRSƏN MƏNİ

*Yamanca keçmişəm dünya cənginə,*
*Yaxana əl çatmaz, çırpam ənginə,*
*Quyruq bulayansan daim zənginə,*
*Yoxsulam asarsan, kəsərsən məni.*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Məsum bir körpə tək boynuna düşdüm,*
*Göz açdım cəhənnəm qoynuna düşdüm,*
*Olmazın küy-kələk oynuna düşdüm.*
*Doğruyam, tapdayıb əzərsən məni.*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Xoşuma gəlməyən başıma gələr,*
*Nə bəlan varsa da qarşıma gələr,*
*Axırda kəfənlə bürmələr, bələr,*
*Çox sağ ol, nə gözəl bəzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Verdin kef-damağı, verdin əclafa,*
*Duymadın mən kiməm kim, ay binəva,*
*Allahlı bəndəyəm çəkirəm cəfa,*
*Bərk sıxır mənganəm, üzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Səni dağıdandı dostun, həmdəmin,*
*Özüsən usdadın, daha nə qəmin...*
*Dərdinə loğmanam, mənəm məlhəmin,*
*Yarana, xorana süzərsən məni,*
*Öldürüb çıraqla gəzərsən məni.*

*Fəzail sel kimi coşar, çağlayar,*
*Səni murdarlardan yuyar, carlayar,*
*Sonra günəşdən də ötə parlayar,*
*Sanarsan ən nurlu əsər sən məni!*
*Öldürüb çıraqla gəzərsən məni.*

## BƏS HARDADI?

***Hey baxıram yola, izə...***
***İsmi-pünhan bəs hardadı?***
***Daşa dönnəm dözə-dözə,***
***İsmi-pünhan bəs hardadı?***

***Bədirlənmiş aydı mənə,***
***Tanrı verən paydı mənə,***
***Axı necə qıydı mənə,***
***İsmi-pünhan bəs hardadı?***

***Tale mənə qəsd elədi,***
***Həm şikəst, həm məst elədi,***
***Ağlım, huşum dəstələdi,***
***İsmi-pünhan bəs hardadı?***

## GÜLƏN VƏDƏ...

***Saflıq oldu ilk diləyim,***
***Bu dünyaya gələndə də,***
***Arxayın ol ay ürəyim,***
***Saf ölərəm, öləndə də.***

***Kim nə deyir desin mənə,***
***Yaşamaram sinə-sinə,***
***Saf eşqimi yarla yenə,***
***Tən bölərəm, böləndə də.***

***Çox sevdiyim bir sözüm var,***
***Körpələrə qibtə apar,***
***Qocalar da könlü oxşar,***
***Körpə kimi gülən vədə.***

## MƏNİ...

***Qalxdım uca dağ başına,***
***Salamladı güllər məni.***
***Düşdüm leysan yağışına,***
***Aparmadı sellər məni.***

***Nə ipəyi bezə verdim,***
***Nə eşqimi üzə verdim,***
***Ömrü-günü sözə verdim,***
***İtirmədi illər məni.***

***Hava çalmaz saz qırığı,***
***İşə keçməz söz sırığı,***
***Fəzailəm haqq aşığı,***
***Yadda saxlar ellər məni.***

Aydın CAN

# Vəli Xramçaylı nə ölür (nə də öləcək!)



***... Kiminin bəxtinə güldü bu şəhər,***
***Kiminin bəxtinə küldü bu şəhər.***
***Mənim gözlərimdə öldü bu şəhər,***
***Gedək bu şəhərdən, mənim ürəyim,***
***Mənim bu şəhərdə nə ölümüm var.***

- rəhmətlik Elçin Səlcuq bu bəndini tez-tez deyərdi Vəlinin...

Sağlığında qiymət verin, - deyirdi Cabir Novruz, - adamlara! Adam adamlardan biri də Vəli Xramçaylıdı, bu gün də Mübariz Məsimoğlu "qanan-yanan" qrafasında hamısını yığıb "qəbrimi butulkavari qazdırın, yeyin-için, sonra sevdirin gedin" deyən arkadaşlarla "dütt" deyincə vurublar.

Araqdan vurub, səhər tezdən xaşdan başlayıb axşama farellə bitirən, digər ləziz təamlarla gün keçirən onlar, yazını yazan mən! Günümə bax də!!! Eynən Puşkinə heykəl qoyulan kimi! A bala, "Mumu"nu mən yazmışam e, heykəli aparıf Vəliyə qoyufsunuz, bağışlayın, arağı Ayazla içifsiniz )))))))))))))))))))))))))) turşulu aş, həftəbecər, cırda... əlqərəz! Di, indi əziyyətə qatlaşın, oxuyun... lütfən!

### QİYAMÇI RUHLARIN AHƏSTƏ SƏDASI

Vəli Xramçaylının özü, sözü və zamanı haqqında ürkək baxışların məcmusu

Vəli Xramçaylı indi Gəncədən o yana sayılan "həqiqi Azərbaycan"lıların eloğlusudur. Elə tanıyırlar. Elə mən də onu dostum, rəhmətlik "Rafiq Qurbanovun eloğlusu" (Osman Sarıvəllinin oğlu) kimi tanımışam - hərçənd bu tanışlığa qədər uzun illər "Azərbaycan" nəşriyyatının dəhlizlərində, çayxana-yeməkxanalarında üz-üzə gəlsəm də. Kimdənsə onu soruşanda da elə belə də deyirlər: "eloğlumuzdu". Özü də fəxrlə. Özü də lap belə "yandı-qırışdı" verməklə. Haqq eləyirlər də. Niyə də olmasın? Adam Sibirdə - Uralda doğulub. Zaman, dövlət, tale onu hara hərləsə də ailəqarışıq, gəlib çıxıb ruhunun qeydiyyatda olduğu məkana - Azərbaycana. O boyda Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirib - qala da bilərdi oyanlarda. Oxuya da bilərdi rüşvətsiz-filansız Sibir ali məktəblərinin birinin hüquq fakültəsində. Vəzifə də, rütbə də alardı. Amma və lakin ruh söhbəti var VƏLİ XRAMÇAYLI isminin. Zatən də təbiət aşiqləri olan saz-söz ocağının övladı gedib hardasa ayrı yerdə də yox, elə "Azərbaycan təbiəti" jurnalında işləyib.

Əslində isə Vəli Xramçaylı Azərbaycanın eloğlusudu - BÜTÖVLÜKDƏ, SÖZ MƏKANINDA!

Əslində Vəli Xramçaylı zamanı, taleyi, hökuməti öz sərhədləri çərçivəsinə salıb da, istədiyini üzünə deyən, istədiyinə mükafat verən, istədiyi cəzanı istədiyinə kəsən hökm-sahibidir, qələm əhlidir, şairdir.

Əslində Vəli Xramçaylı görməzlikdən gəlsə də, elə "ən qəşəng şəkildə" görməməzliyə vurulan ruh adamıdı!

Vəli Xramçaylı qiyamçı ruhların çox ahəstə səslənən sədasıdı - çığırbağır misraların, başaçıq-ayaqyalın bəndlərin, amanabənd "şeir-evcik"lərin ona dəxli yoxdu və elə buna görə də Vəli Xramçaylı gurultulu, hay-küylü, qara-qışqırıq məclislərin heç birində də yoxdu. Heç bir siyahıda da yoxdu.

Əslində Vəli Xramçaylı heç siyahı adamı da deyil - ürək-ruh sahibidi.

Vəli Xramçaylının var olduğu yer elə onun Özüdür. Sözüdür! Zamanıdır!

Özündə, Sözündə və Zamanında var olan Vəli Xramçaylını Özünü, Sözünü, Zamanı bilənlər tanıyır - bir dalğanın, eyni koordinatın sakinləri bir-birini ruhundan tanıyır. Bütün dalğalarda, koordinatlarda olduğu kimi.

Və özü özünə

***Gəldi bic zamana, yoxdu bicliyin,***
***Daha bu zamanda yoxdu dincliyin.***
***Getdi cavanlığın, itdi gəncliyin,***
***Öl indi, öl indi, ay dərviş Vəli, -***

desə də,

***Əlindən aldılar yerlə-göyünü,***
***Gör kimlər pisikir, kimlər öyünür,***
***Eşqin yollarında bu can öyünü***
***Sökdülər, sökdülər, ay dərviş Vəli, -***

bilsə də,

***Kiminin bəxtinə güldü bu şəhər,***
***Kiminin bəxtinə küldü bu şəhər,***
***Mənim gözlərimdə öldü bu şəhər,***
***Gedək bu şəhərdən mənim ürəyim,***
***Mənim bu şəhərdə kimim var axı, -***

qənaətinə gəlsə də,

Dərviş Vəli -

Vəli Xramçaylı nə ölür (nə də öləcək!),

nə sökülür (nə də söküləcək!),

nə də ki köçür (heç köçməyəcək də!) -

çünki Vəli Xramçaylı əbədi sözlə bələnib, sözə bürünüb! Ruhu tükənməz əbədi sözün ifadəsi üçün həmişəcavan və həm də həzin, abırlı, ahəstə sədası ilə vergilənmiş əngin istedadın tunc heykəlidi, üstəlik də... ruhlar nə qaçaq düşür, nə köçkün.



Yaradıcı ruhların kəbinləndiyi çox az ünvanlardan biri də Gəncədən o yana "həqiqi Azərbaycan" sayılan məkandır. Adına "qazaxşina" deyilsə də, həzm olunmasa da... elmin gələn yeri, musiqinin səsləndiyi ocaqlar bəlli olan kimi. Təkzibolunmazdır. "Saz epoxadır" deyənlər haqlıdır:

saz səslənən ocaqlar Ölməz! Yıxılmaz! Sökülməz! - Yaradanın yaratdığını yaratdığı puç edə bilməz.

Ola bilər BU GÜN Vəli Xramçaylı göründüyü kimi yoxluqdadı, amma sabah və həmişə var olacaq: öz elinin-yurdunun söz sahibi olaraq!

Qoy bu sahiblik səmimi sözün ifadəçisi qismində qəbul edilsin.

Qoy bu varlıq bir dərvişlik eşqinə sərgilənən çabalarda qəbul edilsin!

Qoy bu özgürlük miqyasca hamını heyrətləndirməyəcək ənginlikdə sayılsın!

Fəqət... istənilən halda qiyamçı ruhlar qələbə paradı keçirəndə tribunada səf-səf duran, əsgər əllərinin qaş üstünə düzlənən təzimlərini qəbul edənlərdən biri Vəli Xramçaylı olacaq.

Vəli Xramçaylını bu gün qəbul etməyənləri sabah Vəli Xramçaylı qəbul edəcək.

Bax, bu anı yaşadım Vəli Xramçaylının illərlə oxuduğum şeirlərində.

Bax, bu anlarla - qiyamçı ruhların asta-ahəstə etirazları-əndişələri ilə tanış oldum Vəli Xramçaylının illərlə oxuduğum şeirlərində.

Qorxu, həyəcan, təlaş keçirmədən: dağ oynamadı yerindən, içim tərpənmədi - böyrək bağırsağa, mədə dalağa pərçim olmadı.

Pafos yaşatmadı, həyat yaşatdı, təskinlik və təsəlli oldu Vəli Xramçaylı! Rahatlıq gətirdi - bizim də əvəzimizə üsyanlar qoparan ruhların varlığını, bizim də olmalı olduğumuz yerlərdə boşluğumuzu dolduran qəhrəmanların ayıbımızı örtməsini çatdırdı.

Və Vəli Xramçaylının hesabına şeirin-poeziyanın ehtizaz, eyforiya və ləzzət təamını daddıq, dadırıq.

Və Vəli Xramçaylı bizləri aldatmadı, sözlə silahı əvəzləməyə provokasiya etmədi. Gopa basmadı - sözlə harda, kimə və necə qalib gəlməyi də, silahla hara, kimin üstünə getməyi də Vəli Xramçaylı gözəl bildiyindən, sözün də, silahın da funksiyasını, anlamını gözəl ifadə etdi!

Odur ki,Vəli Xramçaylı öz yerindədi - öz sözünün taxt-tacındadı - sözlə əldə edib sözsüzlükdə itirdiyi yerlərdə yox!

Söz taxt-tac da gətirib, gətirir, gətirəcək!

Söz quruca şöhrət də gətirib, gətirir, gətirəcək!

Söz sadəcə və sadəcə, ömür də qazandırıb, qazandırır, qazandıracaq!

Vəli Xramçaylı sözün ömür gətirdiklərindəndir, həyat yaşatdırdıqlarındandır. Çünki o heç vaxt sözün ömrünü kəsmədi, urvatdan salmadı, sözü satmadı.

Baxın yazılanlara - Vəli Xramçaylıda bir giley varmı, alverçi "təfəkkürünə"- deyiminə rast gələ bilərsinizmi?

Əsla!

Vəli Xramçaylı sözlə oynamadı, söz oyununa girmədi, sözü oynatmadı! Vəli Xramçaylı sözü söz kimi dedi, don geyindirmədi, sözü öz donunda təqdim etdi, sözün rənginə rəng qatmadı, nəfəsini yelçəkərə yönləndirib nəfəsini kəsmədi!

Vəli Xramçaylı tərifə gəlmir!

Vəli Xramçaylı tənqidə də gəlmir!

Vəli Xramçaylı gələndə... eşqlə gəlir! dərd-ələmlə gəlir, qucaq-qucaq sevinclə gəlir! Söz-söz, misra-misra, bənd-bənd gəlir.

Vəli Xramçaylının gəldiyini görən olub, getdiyini yox!

Və sonda onu da deyim ki:

Vəlinin ÖZÜNÜ dostları çox istəyir, amma və lakin... o istəyi ifadə etmək dostlar üçün (elə düşmənlər üçün də) dilə gətirmək bir az ürkəklik gətirir!

Bax, bunun niyəsini bilmirəm!

Vəlinin SÖZÜNÜ dostları da çox istəyir, amma və lakin... o istəyi ifadə etmək dostlar üçün (elə düşmənlər üçün də) dilə gətirmək bir az ürkəklik gətirir, eymənirlər!

Bax, bunun niyəsini bilmirəm!

Vəlinin ZAMANINI dostlar da istəmir, düşmənlər də, amma və lakin... hamı dilə gətirir o istə(mədi)klərini!

Bax, bunun da niyəsini bilmirəm!

Amma bildiyim doğrudandamı düzdür: insanlar istəklərini yox, etirazlarını bildrməyi kiməsə, harasa sevgi ifadəsi sayırlar?

Ürkəklik!? Bu qədərmi?

Onda... Vəli Xramçaylı ən qəhrəman dost, ən qəhrəman şair və ən qəhrəman eloğlu!

Sözüylə Özü bir olanlardan gözəl bir nümunə də bu ki... ürəyi dilindədir.

**ƏN AXIRDA:** Vəli Xramçaylı... ürəyi dilində (həm də qələmində) olan gözəl bir nümunə.

İstədim. Yazdım.

Vəlini belə istədim və Vəlidən belə yazdım!

***P.S. Şeirləri nümunə üçün deyil deyə, sitat gətirib özümə güvənclik göstərmədim. Həm də qırıq-qırıq yox, Vəli Xramçaylını birnəfəsə oxuyub birdəfəlik ləzzət almaqdan məhrum etmək istəmədim.***

***P.P.S. Vəli Xramçaylını gərək bütöv oxuyasan!***

# Hippokrat andına sadiqlik

**İnsanlar kimi yazıların da qəribə taleyi olr. Bir müddət əvvəl yazdığım bu yazını müəyyən səbəblərdən verə bilmədim. Mətbuatda çalışdığım illər ərzində müxtəlif təşkilatlardan və həmin təşkilatlarda çalışan işçilər haqqında yazdığım yazılarda bu adamların insanlara göstərdiyi qayğı, səmimiyyət və qabaqcıl iş təcrübələri geniş yayılırdı. Bir neçə dəqiqəyə oxunulası bu yazıda isə Azərbaycanda analoqu olmayan bir təşkilatdan, Mərdəkan qəsəbəsindəki reabilitasiya pansionatından söhbət açacağam. Bəri başdan deyim ki, burada çalışan altmışdan çox işçini bir-birindən fərqləndirmək, çalışdıqları sahədən asılı olmayaraq birinin adını çəkib, digərinin adını çəkməmək necə deyərlər, insafsızlıq olardı. Ona görə də xahiş edirəm heç kəs məndən inciməsin. Bu pansionatda çalışanlar sanki, hamısı bir ailənin, gözü, könlü tox bir ailənin övladlarıdır. Onların taleləri bir-birinə çox bənzəyir. Ömür kitablarına vurulan naxışlar sanki bir rənglə boyanıb. Kollektivin belə olmasının səbəbi isə pansionatın rəhbərliyinin, onun idarəçiliyinin, təşkilatçılığının, insanlara mənəvi tərbiyəni düzgün aşılamasının nəticəsidir. Müalicə alanlar bir yerə yığışıb söhbət edəndə deyirdilər ki, sanki başqa planetdəyik.**

Deyirlər həyat yaradılışla ölüm, beşiklə məzar arasında olan bir yoldur. Hər kəs bu yolu bir cür addımlayır, kimi elin, obanın, xalqın, vətənin yükünü çiyinlərində daşıyır, kimi də vətənə, xalqa yük olub yaşayır. Burada çalışanların şəxsiyyətində humanistlik, sədaqət, pak mənəviyyat, fədəkarlıq, xeyirxahlıq və s. bu kimi insanlığa məxsus mənəvi keyfiyyətlər əsl insana layiq əxlaqi normalar vəhdət şəklində öz əksini tapıbdır.

### İnsanın sənətə gəlişi təsadüfi olmur

İstedad, qabiliyyət onun özü ilə doğulur və nəsildən-nəsilə ötürülərək yaşayır. Mühit isə insanı formalaşdırır, istedadın bütün parlaqlığı ilə üzə çıxmasına şərait yaradır. Ən çətin peşə insan olmaqdır.

Vətəndaş olmağın da yolu insan olmaqdan keçir. Adı çəkilən kollektivdə çalışanların hamısı bu sahənin mahir ustalarıdır. İki dövrü yaşayan insan gördüyü hadisələri daha real, düzgün müqayisə edə bilir. Mən də iki dövrü yaşayan insan kimi, keçmişdə və indi xidmət sahəsində fəaliyyət göstərənlərin vicdanı təmizliyini, adamlara olan münasibətlərini, öz peşələrinə sevgi və istəklərini, mənəvi təmizliklərini görərək keçmişlə müqayisə edib çox sağ olun deyirəm indikilərə.

İnsanın qəlbində yer tapmaq Ulu Tanrı tərəfindən onlara bəxş olunan ilahi bir məhəbbətdir. Burada çalışanların təhsilindən, hansı peşənin sahibi olmasından asılı olmayaraq, hər əməlləri saf, bulaq suyu kimi şəffaf və durudur. Onların hər birinin həyat yolu xeyirxahlıq, kamillik, mənəvi yetginlik zirvəsinə bənzəyir.

Xalqına könül verdiyi sevgisi əbədidir, ülvidir, müqəddəsdir. Onların hər biri öz rahatlıqlarını, könül sevgisini birinə gərəkli olmasında tapır.

Bu da bu insanların böyüklüyündən, ailədə və iş yerində aldıqları düzgün tərbiyədən irəli gəlir.

### Ömür

insanın yaşadığı illərlə yox, onun vətən, xalq naminə gördüyü işlər, nəcib və xeyirxah əməllərlə ölçülür.

El, oba, vətən yolunda ömrünü fəda edənlər heç vaxt unudulmur, yaddaşlarda, xatirələrdə əbədi iz qoyurlar. Mərdəkandakı reabilitasiya pansionatında çalışanların cəmiyyət üçün layiqli vətəndaş və şəxsiyyət kimi yetişmələrində ailə mühitinin, böyük təsiri olmuşdur. Milli təfəkkür, milli kök, balalarımızdan və nənələrimizdən miras qalmış azərbaycançılıq adət-ənənənləri üzərində qərar tutan bir ailədə aldıqları düzgün tərbiyə, valideyinlərinin xeyir duası, daxillərindəki möhkəm iradə və seçdikləri sahəyə olan sonsuz maraqları, həvəsləri onları şərəfli ömür yoluna hazırlamışdır.

***Ulu Tanrı öz bəndəsini yaradarkən ona tale yollarında alın yazısını verir. Həyatın bütün yollarında həmin yazı zaman-zaman insanın həyat fəaliyyətində gözü qarşısında canlanır, sonra insanın müdrikləşməsinə gətirib çıxarır. Müdrik insanlar həyatın bütün pillələrində insanların mənafeyini və maraqlarını öz şəxsi mənafelərindən üstün tutur, vicdanla xalqına, elinə, obasına, vətəninə xidmət edirlər. Bu kollektivin üzvləri Dünyaya sanki yaxşılıq etmək, insanlara, onların dərdlərinə, çətin günlərinə həmdəm olmaq, qolundan tutub qaldırmaq, dərdləri onlara unutdurmaq üçün gəlmişlər.***

İnsan özündən sonra qoyub getdiyi nə varsa Allahın ona bəxş etdiyi bir varlıqdır. Bu varlıq onları özündən sonra da yaşadır. Bu cür insanlar məhz öz fəaliyyəti, təmiz əqidəsi, tutduqları düz yolun nəticəsində yüksəlir və gələcək nəsillərə örnək olurlar. Bu kollektivdə çalışan gənclər mənalı bir ömür yaşayırlar. Pansionata gələnlər arasında nüfuz və hörmət qazanırlar. İnsanların qəlbində yer tapmaq Ulu Tanrı tərəfindən onlara verilən İlahi bir məhəbbətdir. Bir ilə yaxın dövrdə çalışdıqları bu pansionatda onların hər əməli saf, bulaq suyu tək dumdurudur. Alicənablığı, sadəlikləri, təvazökarlıqları, təfəkkürləri ilə adamın gözündə ucalan bu gənclərin tutduğu yol xeyirxahlıq, kamillik, mənəvi yetginlik zirvəsinə bənzəyir.

Zaman keçdikcə insan nəsilləri bir-birini əvəzləyir.

***Dünyaya gələn hər yeni nəsil öz keçmişinə, tarixi yaddaşına nəzər salır, bütün şüurlu həyatını xalqının tərəqqisi, cəmiyyətin inkişafı və s. üçün həsr edir. Gözəlliyin ən yüksək zirvəsi insandır. O, cəmiyyətin, ictimai həyatın yetişdirməsidir.***

Ömür Tanrının insanlara bəxş etdiyi paydır. Bu payın təmənnası xeyirxah əməllər, təbiətə, cəmiyyətə verilən xoş töhfələrdir. Xoş o kəsin halına ki, Tanrının verdiyi əvəzsiz payın müqabilində borclu qalmır, cəmiyyət qarşısında alnı açıq, üzü ağ olur, yuxarıda adı çəkilən pansionatın gəncləri kimi. Bu kollektivin üzvləri xoşbəxt taleli insanlardır. Onların hər biri bunu öz zəhmətləri, yuxusuz gecələri ilə qazanıblar. Çünki, xoşbəxtliyin meyarı zəhmət, zəhmətin qayəsi xoşbəxtlikdir.

***Deyirlər hər bir xalqın, millətin və ölkənin yaşaması və inkişafı üçün üç sənət sahəsi çox vacibdir: təhsil, tibb və hüquq. Cəmiyyətin təhsili yüksək səviyyədədirsə, insanların sağlamlığı keşiyində layiqincə dayanılırsa, ölkəni qanunlar idarə erirsə, belə cəmiyyət nümunəvi sayıla bilər.***

### Bütün zamanlarda

Dünyanın hər yerində insanlar üçün cansağlığı ən əziz nemət sayılıb. İnsanlar daim xəstəliklərlə mübarizə aparıblar. Allah min dərd veribsə, min bir də dərman verib. Bəşər övladı dəfələrlə dərman edənlə də Dünyanın ən əziz, ən sevimli, ən ali sözlərini verib: loğman, təbib, həkim... xalq hər zaman dərdlərə məlhəm qoyan belə insanları unutmur, nəsilbənəsil belə təbiblərin adları və əməlləri yaşayır, hamıya örnək olur. Hər peşənin öz romantikası var. Tibb sahəsi də belədir. Gecə yarı şirin yuxudan oyanıb xəstə yanına gedirsən.

***Təbabət elminin atası sayılan Hippokratın həkimlər arasında cox məhşur olan bir kəlamı var. "xəstə dirilənədək həkimin ürəyi ilə yaşamalıdır." Həkim insanlara verilən əlavə ömrün müəllifidir. Çətin, lakin şərəfli bir sənətin - həkimlik peşəsinin sahibi olmaq bu adı daşıyan hər bir insandan dərin bilik, bacarıq, zəhmət, dözüm, həqiqi mənada yaradıcılıq tələb edir. Nahag yerə deməyiblər ki, xəstəyə ən birinci dərmani onu müalicə edən həkimin, tibb işçisinin şirin sözu, ümidverici təsəllisi, yaratdığı inamdır. Tibb elmi xeyirxaglıg deyilən bəşəri bir məqsədə xidmət edir. O həm də insanların pozulmuş səhhətini bərpa edən xeyirxahlıq sənəti, həyat elmidir. Həyat isə geniş mənada ən böyük gözəllikdir. Tibb işçilərinin həyatında ağır, üzücu dəqiqələr nə qədər çoxdursa, ürəyə sərinlik gətirən sevincli anların sayı daha çox olur.***

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirliyinin tabeliyində olan bu reabilitasiya pansionatında çalışanların demək olar ki, çoxu gənc gızlar və qadınlardır. Onların insanlara göstərdiyi nəvaziş və gayği burada müalicə alanların daha tez sağalmasına kömək edir desəm yanılmaram. Çünki, qadın əli hər yerdə gərəkdir. Bu əl insanlara şəfa gətirir, səadət, xoşbəxtlik bəxş edir, onları şöhrətləndirir. Səadətini əməkdə görənlərin həmişə alnı açıq ağ olur.

### Azərbaycan qadını

əsrlər boyu həyatımızın müxtəlif sahələrində fəal mövqe tutmuş, ağlı, zəkası namusu, fədəkarlığı, mərdliyi vətənpərvərliyi ilə fərqlənmişdir. Əgər gadın şahlıq kimi dəyərləndirilsəydi, ana şahlığın tacı hesab olunardı. Qadın bəşərə yaraşıg, zinət, insanlığa şərəf, şan-şöhrətdir. Qadın ucalıq, ülvilik, bakirəlik məbədi, ismət, qeyrət qüdrət rəmzidir. Bəşəriyyətin yarıdan çoxunu təşkil ədən qadınlar Tanrının Dünyaya bəxş etdiyi müqəddəs bir varlıqdır. Bir hind atalar sözündə deyilir ki, qadın o qədər incə, o qədər zərif məxluqdur ki, onu gül yarpağı ilə də vurmaq olmaz.

Tarixin keçmiş ağır sınaqlarından alnı açıq, üzü ağ çıxmış Azərbaycan qadını bu gün öz Dövlət müstəqilliyini bərpa etmiş ölkəmizdə gedən iqtisadi siyasi mədəni proseslərdə fəal iştirak edir.

***Siz səmanı ulduzsuz təsəvvür edirsinizmi? Doğma torpağımızı insanlarsız nəcə, yəqin ki, bu yer üzünün ən böyük fəlakəti olardı. Bax, həyatımızı da qadınlarsız təsəvvür edə bilmirik. Axı, qadın bəşəriyyətin başucalığı, həyatın əzilidir. Qadın anadır, qadın bacıdır, gadın ömürgün yoldaşıdır. Analı Dünyamızın ilk harayı, ilk səsidir qadın.***

Müdriklərdən kimsə deyib: "Çox şeyı zor və sərvət gücünə gazanmag olar. Amma hörməti yalnız öz əməllərinlə gazana bilərsən. Burada çalışanlar yalnız öz əməlləri və zəhmətləri ilə hörmət qazanıblar.

Daxili təmizlik, vicdani saflıq insan üçün böyük qüvvədir. O, adamı cürətli, alnı açıq, başı uca edər. Mənəvi təmizlik insana məğlubedilməz qüdrət, Vətən, xalq qarşısında hədsiz hörmət verər.

Bu Dünyada insan üçün hər nə işdə olursa olsun, ürəyi ləkəli yaşamaqdan ağır bir şey ola bilməz. Ləkə çox pis şeydir, ləkə insanı cürətsiz, başı aşağı edər, heç kəs bilməsə də o, adamı xəcalət təri içində boğar, onun rahat yuxusunu ərşə çəkər.

Doğru deyirlər ki, insanların ən dövlətlisi, acgöz və həris olmayanı, izzəti nəfsini qoruyub saxlayanıdır.

İnsan ömrünü bəzən axar suya bənzədirlər: gah səsli-küylü dağ çayına, gah da sakit-sakit axan suya. Hər ikisinin öz gözəlliyi, öz məlahəti vardır.

Lakin onların başlıca məziyyəti insanlara xeyir verməsindədir. İnsan da belədir. Onun ən yaxşı keyfiyyətləri məhz bəşəriyyətə, yaşadığı cəmiyyətə, öz doğma xalqına nə dərəcədə gərəkli olması ilə ölçülür.

Hər bir insan Dünyaya gələn andan qismətinə düşən bir ömür pauı yaşayır. Yaşanan ömür payının yaddaşlarda necə qalması insanın özündən aslıdır. Elə adamlar var ki, onun həyatda qoyduğu iz, açdığı cığır, keçdiyi şərəfli ömür gələcək nəsillər üçün bir örnək olur. İnsan daim xalqına, Vətəninə gərəkli olması barədə düşünməlidir.

Hətta belə bir fikir də var. Düşünmə ki, vətən sənə nə verəcək, düşün ki, sən vətənə nə verməlisən? Bu sual qarşısında bəlkə də çoxları aciz qalar.

Amma, haqqında söhbət gedən insanlar bu suala öz işləri, xalqa, vətənə sədaqətlə xidmət etmələri, əsil vətəndaşlıqları ilə cavab verir.

Şöhrət və sərvət dalınca qaçanlar hörməti unudurlar. Yaxşı ad qoyub getmək, qızıl saray qoyub getməkdən yaxşıdır.

Belə bir fikir var: üç məfhum: biri ordu, biri çörək, biri inam olmasa Dövlət, cəmiyyət olarmı?

Ordusuz da bir müddət keçinmək olar, çörəksiz də, amma inamsız heç nə ola bilməz. Gərək hər bir insanın təmsil olunduğu Dövlətə, cəmiyyətə, öz rəhbərinə inamı olsun.

### İnsan ömrünün mənası

onun yaşı ilə deyil, müdrikliyi, cəsarəti və faydalı əməllər sahibi olması ilə ölçülür. Adamlar cürbəcür olurlar. Elələri var ki, çoxdan tanıyırsan, ancaq haqqında danışmağa çətinlik çəkirsən. Elə bil ətrafı çən-duman alıb. Eləsi də var ki, bulaq suyu kimi şəffafdır - aydan arı, sudan duru.

Bu pansionatda çalışanların hamısı bu qəbildəndir. Onların təbiəti xəzərin dalğaları tək coşqun, əməlləri ulu, günəş qədər xeyirxah, qəlbləri bahar çiçəkləri kimi zərif və təravətlidir.

**Bax, beləcə əziz oxucu! Sizi yorduğum üçün bağışlayın məni. Mən uzunçu deyiləm. Görünür burada çalışan işçilərin səmimiyyəti, mehribanlığı, qayğısıdır məni belə çox danışmağa sövq edir. Vaxtın dəyirmanında ömrümüz buğda dənəsi kimi elə əriyir ki, onun sabahından belə xəbər tuta bilmirik. Üzümüzü göy üzündəki buludlara tutub Tanrının varlığına şükür edə-edə ömür karvanımızı bu gündən sabaha sürükləyirik. İllərin, ayların, günlərin zaman kəsiyində bizlərə nəyin qalacağının belə fərqinə varmırıq. Bir də gözümüzü açırıq ki, qərinələri adlayıb əsrin yarıdan çoxunu arxada qoymuşuq. Bizə qalan isə zaman olur. Zamansa öz hökmünü zamanında verir.**

**Vaqif Şükürov**
**Laçın şəhər sakini,**
**Birinci Qarabağ müharibəsinin veteranı**

## "Eren Abluka" əməliyyatının yeddinci mərhələsi başlayıb



**Türkiyənin şərqindəki Tunceli vilayətində "Eren Abluka" antiterror əməliyyatının yeddinci mərhələsi başlayıb.**

Bu barədə Türkiyə Daxili İşlər Nazirliyi məlumat yayıb.

Qeyd olunur ki, əməliyyatın əsas məqsədi - Türkiyənin bu bölgəsində terror təhlükəsini aradan qaldırmaqdır.

Xüsusi təyinatlılar Tunceli vilayətinin rayonlarından birində axtarış əməliyyatı həyata keçirirlər. Fəaliyyət çərçivəsində 40 qrup tərkibində ümumilikdə 600-dən çox jandarma xüsusi təyinatlısı cəlb edilib.

Əməliyyatın ilk günü Buzlutəpə bölgəsində həyata keçirilən əməliyyat-axtarış tədbirləri zamanı terrorçuların 5 sığınacağı aşkar edilib, oradan çoxlu sayda terror təşkilatına aid sənədlər ələ keçirilib.

## Ukrayna MN: "Rusiyanın 23 000 hərbçisi zərərsizləşdirilib"

**Rusiya Silahlı Qüvvələrinin indiyədək Ukraynada itirdiyi canlı qüvvə və texnikanın sayı məlum olub.**

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahından bildirilib ki, döyüşlər nəticəsində Rusiyanın 23 000 hərbçisi zərərsizləşdirilib. Bundan başqa, hücum edən tərəfin 986 ədəd tankı, 2 418 ədəd zirehli döyüş maşını, 435 ədəd artilleriya sistemi, 151 ədəd RYAS-i (reaktiv yaylım atəş sistemi), 73 hava hücumundan müdafiə sistemi, 184 ədəd hərbi təyyarəsi, 155 ədəd helikopteri, 31 ədəd xüsusi texnikası və 4 operativ-taktiki raket kompleksi məhv edilib.

**MEHRİBAN**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 16 (2290) 30 aprel 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycan-Ermənistan bir müstəvidə

## Bu yanaşma mütləq gerçəkləşməlidi, əks halda..

**Bu gün dünyada baş verən siyasi gəlişmələri izləyəndə, təbii ki, bizi daha çox özünə çəkən məmləkətimizlə bağlı istər açıq, istərsə də gizlin gedən oyunlardır. Yəni, dünya mediası, istər yazılı, istər elektron informasiya agentlikləri, həm böyük dövlətlərin, həm də ayrı-ayrı siyasi dairələrin maraqları yayımlayarkən, təbii ki, həm də bir sifarişi də yerinə yetirmiş olur. Bu mənada Ermənistan hakimiyyətinin atdığı addımlar və bu addımlara paralel olaraq, erməni diasporunun və ermənipərəstgüclərin yürütdüyü məkirli siyasi gedişlər mütəmadi olaraq bu və ya digər formada mediyaya sızır. Bəzən bu, bilərəkdən də edilir. Necə deyərlər, baş verənlərin hansı formada üzə çıxmasından asılı olmayaraq, bəlli olan gerçəkliklər göz önündədir.**

Belə ki, Ermənistan tərəfinin bugündə bütünlüklə çökmüş ordusunun yenidən qurmaq üçün atdığı addımlar iqtisadi gücün sıfır səviyyəsində olmasına baxmayaraq, silahlanması, bununla yanaşı, Azərbaycana qarşı hər cür təxribatlara əl atması heç kimə sirr deyil. Deməli, düşmən aparılan, daha doğrusu, imzalanan üçtərəfli bəyanatın şərtlərindən daha çox özünün məkirli siyasətini yürütməyə hesablanmış addımlar atır. Əgər təkcə son ayın baş verən hadisələrini, erməni mediyasının gündəmə gətirdiyi mövzuları diqqətlə araşdırsaq, onda görərik ki, Ermənistan da hələ də Qarabağın dağlıq hissəsini özünün hesab edən, məğlubiyyətlə barışmayan və bunu müvəqqəti hesab edən qüvvələr var və onlar da müxtəlif vasitələrlə həm Azərbaycana təzyiq göstərmək, həm də müharibəni yenidən alovlandırmaq yolunu tutublar.

Maraqlı bir nüans var. Belə ki, son vaxtlar Ermənistan vətəndaşlarının, xüsusilə, köhnə döyüşçülərin "yolu azıb" Azərbaycan ərazisinə keçməsi az qala intensiv bir hal alıbdı. Necə deyərlər, bu ya Ermənistanda və onun vətəndaşlarında yeni bir sindrom - yəni xəstəlik növüdür, ya da bu düşünülmüş addımların nəticəsidir. Yəni, Ermənistan tərəfinin təmsilçiləri bu "yolunu azmış" adamların simasında ərazimizə keçir və burada terror aktları həyata keçirməyə cəhd edirlər.

Təəssüflər olsun ki, ermənilərin bu "yolu azması" rus sülhməramlılarının gözü qarşısında baş verir. Bu da maraqlıdır ki, həmin yolu azanlar, daha çox rus sülhməramlılarının nəzarət etdiyi ərazilərdə "itkin" düşürlər. Və sonrada Ermənistan tərəfinin təmsilçiləri ilə birlikdə rus sülhməramlıları "itkin" düşmüş, "yoluazmış" adamları - erməniləri axtarmağa başlayırlar. Zənnimcə, bu "oyunun" özü də bir psixoloji təxribat üsuludur. Düşmən sərhədçilərimizə, əsgərlərimizə qarşı atdığı bu addım da üçtərəfli bəyanatın Azərbaycan tərəfindən pozulmasına hesablanmış addımı ilə bizə təzyiq göstərməyə çalışır. Burda qeyd etmək yerinə düşər ki, Azərbaycan hərbçiləri, bütövlükdə ordumuz və onun rəhbərliyi Ali Baş Komandanın bu böyük qurumun üzərinə qoyduğu bütün vəzifələri, tapşırıqları planlı və qanuni şəkildə icra edir. Ona görə də ermənilərin bizi təxribata çəkə bilmək istəyi bir arzu kimi onların gözündə qalır və qalacaq.



Hadisələrin mahiyyətinə vardıqca, aydın olur ki, artıq böyük dünya Azərbaycan reallıqlarını bütövlükdə qəbul edib. Aparılan müzakirələr, Azərbaycana və Azərbaycandan olan səfərlər qarşılıqlı şəkildə beynəlxalq aləmə gerçəyi görmək imkanı verib. Bu işdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin keçirdiyi görüşlər, videokonfranslarda etdiyi çıxışlar, eləcə də ölkə prezidentinin köməkçisi Hikmət Hacıyevin və Xarici İşlər Nazirliyinin gördüyü bütün işlər həm Qarabağ həqiqətlərini, həm də Azərbaycan gerçəkliyini hər kəsə daha yaxından tanıdır və təqdim edir.

Təkcə son bir neçə ayda ölkəmizə səfər etmiş siyasi qurumların təmsilçilərinin, dövlət başçılarının, xarici işlər nazirlərinin, senat və parlament təmsilçilərinin, həm Azərbaycan rəhbərliyi ilə görüşləri, həm işğaldan azad edilmiş ərazilərə onların səfərləri... Bax, bütün bunlar bizim 44 günlük müharibədəki Zəfərimizin mahiyyətini sərgiləyir. Hər kəsə birmənalı şəkildə kimin işğalçı, kimin vandal, kimin də öz torpağını azad etdiyini ortaya qoyan gerçək sübutlarla görür. Yəni, fakt özü hər şeyi kifayət qədər təqdim etmək gücündədir.

Bu gün ölkə prezidentinin ardıcıl olaraq vurğuladığı "Status yoxdur, bu artıq arxivə verilib. Dağlıq Qarabağ adlı qurum yoxdur və bir daha da olmayacaq" fikirlərinə rəğmən kimlərinsə sayıqlamaları onu göstərir ki, bizim həqiqətlər bizi sevməyənlərin də yuxusuna haram qatıb. Onlar bu həqiqətlərlə üz-üzə savaşdan çəkinib yalnız verdikləri açıqlamalar, bildirdikləri münasibətlər fonunda Ermənistanı dəstəkləməyə çalışırlar. Hətta Rusiya Prezidentinin imzası olan bəyanata əhəmiyyət verməyən bəzi ermənipərəst rusiyalılar, yəni əslində Rusiyanın mövqeyinə xələl gətirən ayrı-ayrı xəstə təxəyyüllü siyasətçilər özlərinin çıxışları ilə bizim Şimal qonşumuzun prezidentinin də nüfuzuna ləkə salmaqdan çəkinmirlər. Görünür, maddiyyata satılmış bu adamlar gerçəyin nə qədər güclü olduğundan xəbərsizdirlər. Əks təqdirdə, onlar öz prezidentlərinin imzasına hörmət edərdilər.

Çox maraqlıdır ki, Rusiya tərəfidə Ermənistan-Azərbaycan sərhədlərinin Sovet dövrünün xəritəsi ilə müəyyənləşməsi üçün fəaliyyət göstərən qrupun işinə mane olmaq istəyən bəzi güclərin qarşısını almağa nədənsə hələlik maraq göstərmir. Ola bilsin ki, bunun özü də daha güclü maraq sahiblərinin xidmətidir. Amma unutmaq olmaz ki, sərhəd məsələsinin tam şəkildə həll edilməsi Ermənistan üçün də faydalı olar. Ən azından bu qonşu dövlət öz ərazisi çərçivəsində iqtisadi, siyasi əlaqələr qurmaq imkanını tam qazanmış olar. Lakin hadisələrin gedişi göstərir ki, Ermənistanın baş naziri Paşinyan və onun komandası hələ də konkret fəaliyyət planına malik deyil. Çünki bu komandanın ayrı-ayrı üzvləri öz açıqlamaları ilə həm də sayıqlamış olurlar. Yəni, onların sayıqlamaları Paşinyanın mövqeyinə də, imzasına da öz içindən vurulan zərbədir.

Bütün bunların ümumi mənzərəsi ondan xəbər verir ki, Ermənistan kənardan idarə edilən bir qrupun əlindədir. Həmin qrupda dövlətin, erməni xalqının deyil, öz şəxsi istəyindən çıxış edir. Bu istəkdə daha çox qazanc əldə etmək, daha çox varlanmaq niyyətidir.

Ümumiyyətlə, müəyyən qədər ictimai proseslərə nəzarət etmək gücü olan və gerçəyi görməyi bacaran bəzi erməni ekspertlərisə son 30 ildə Ermənistanda baş verənləri bəzi klanların, bəzi qurumların talamaq, zəbt etmək, hərisliyi üzərində qurulduğunun açıq şəkildə söyləməyə başlayıblar. Deməli, onların dediklərinə istinad etsək, onda məlum olur ki, Ermənistanı idarəedənlər və yönəldənlər bu xalqın mövcudluğunun gələcəyini deyil, özlərinin kapitallarının düşünmək yolunu tutublar. Ona görə də Ermənistanda əsgər analarının açıq etirazları dəyənəklə qarşılanır.

**Bəli, Azərbaycan iqtisadi, siyasi və hər bir addımlarını ölkənin daha da güclənməsi, əhalisinin daha da xoş güzəran içərisində yaşaması istiqamətində atır. Məqsəd sülh şəraitində və daha təminatlı şəkildə Azərbaycan insanının yaşamasıdır. Ermənistan isə... Bunu da dünya görür, bunu da yəni, onların nə istədiklərini bütün dünya hələ ki izləyir.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# XALQIN GÖZ YAŞI ROMANI



*MUSA XANBABAZADƏ*
*Filoloq-ədəbiyyatşünas*

**Müharibələri epikləşdirən romanlar, ekranlaşdıran kinofilmlər, səhnələşdirən teatr tamaşaları və habelə sənətin digər növləri belə bir həqiqəti bizlərə təkrar-təkrar bir daha xatırladır: Müharibə ölüm-qandır. Sevinc-şadlıqları qaralayan ahdıramandır. Kəsilən başlar-qollardır. Dağıdılan küçələr-yollardır. Qırılmış talelərdir.Bədbəxtliyə düçar ailələrdir. Kama-kamal çatmamış sevgilər-məhəbbətlərdir. Yandırılmış saraylar-imarətlərdir. Qaçqınlıq-köçkünlük-didərginlikdir. Həbs düşərgələri, sürgünlükdür. Yoxsulluq-kasıbçılıq-dilənçilikdir. Səfalət, xəstəlikdir.Söndürülmüş od-ocaqlardır. Atasız-anasız qalmış körpə uşaqlardır. Əxlaq və mənəviyyatın iflasıdır. Ziraət və iqtisadiyyatın çöküşüdür. Ağlın-düşüncənin susqunluğudur. Və uzun bir yol gəlməsinə baxmayaraq, müharibə(lər) dünyanın bu və ya digər bucağında bu gün də daha amansızcasına, daha dəhşətcəsinə davam etmədədir yəni dünya (fərq etmir, istər qlobal müharibə olsun, istər regional) yenə fəlakətlə, ölüm-qanla, soyuq silahlarla, qanadlı-qanadsız raketlərlə üz-üzədir, baş-başadır. Hədələyir dünyanı müharibənin baxmaq hədəsi. Asılıb dünyanın başı üstündə müharibə Domokl qılıncıtək. Bu barmaq hədəsi hər an dünyanın başına yumruq ola bilər.Bu Domokl qılıncı bir göz qırpımında dünyanın başını bədənindən üzə bilər.Bu dəhşət-vəhşətdən dünyanı xilas üçün ilk növbədə dünyanın aparıcı başçıları, siyasətçiləri həmrəy, həmfikir bi nöqtədə birləşməli, əməli addımlar, praktik siyasi xətt yeritməlidirlər. Qan-qan" qışqıran mürtərc dünya başçıları özlərinin içlisanə fikirlərindən bilmərrə əl çəkməlidirlər.Çünki müharibəyə daha çox can atan elə bu "qan püskürən, atəş sovuran kinli krallardır, şahlar, ulu xaqqanlar, çılğın dərəbəklərdir, altun və qadın düşküni divanə bəbəklərdir, min hiylə quran tülkü siyasilərdir, hər an məzhəb çıxaran, yol ayıran xadimiədyanlardır" (Hüseyn Cavid). Elə dünya çapında dövriyyəyə buraxılan əksər bədii əsərlərin əsas qayə və patosu da elə bu azğın-qudurğan, işğalçı-müstəmləkəçi, faşist-nasist təfəkkürlü prezidentlərin, kral və hersaqların... durdurulmasına cəhddir, müharibə hərisliyindən onları çəkindirməkdir, dünya xalqlarını ayıq-sayıqlığa çağırmaqdır.**

Fikir və mülahizələrimi oxucularla bölüşmək istədiyim "TANRININ ĞÖZ YAŞLARI" ("OL" MMC, 2001) romanı da elə müharibə mövzusundadır, müharibəyə od püskürən romanlar silsiləsindəndir, müharibənin faciələrini, ağrı-acılarını öz çiyinlərində daşıyan, ürəklərində əzizləyən kişi və qadınların parlaq obrazlarına ayna tutan əsərlər mənziləsindədir.

Yazıçı Qafar Cəfərli bu romanında Qarabağ müharibəsindən çoxşaxəli epizod və süjetlər göstərmir, müharibə səhnələrinin təsvirinə geniş yer vermir. O yalnız müharibənin həm ön, həm də arxa cəbhədəkilərə (qazilərə, veteranlara, şəhid ailələrinə, sıravi vətəndaşlara) yaşatdığı ağır sosial-iqtisadi çətinlikləri, əxlaqi-mənəvi cöküsünü bu və ya digər obrazın həyatı fonunda inikaslaşdırır, və bu müharibənin xalqı (bəşəriyyəti) aradan qaldırılması uzun illər çəkən necə ağır çətinliklərlə üz-üzə qoyduğunu Ərənlər və Budaqlı kəndlərinin simasında məharətlə epikləşdirir. Yazıçı Qafar Cəfərli dövrün həyat həqiqətlərinin ən səciyyəvi cəhətlərini bədii həqiqətlər kimi, əsasən doğru-düzgün, təbii-təsirli əks etdirir. Yazıçının bu əksetdirməsində qeyri-real, qeyri-həyati heç nə yoxdur, uydurma-fantaziya ünsirlərinə təsadüf edilmir.Çümki yazıçı təsvir etdiyi hadisələrin həm iştirakçısıdır, həm də canlı şahididir.Yəni müəllif təsvirinə can atdığı hadisələri aynar ocağından çıxmışdır, hadisələri həm gözləri ilə görmüş, həm də yer-göy dağıdan fəryad və etirazları qulaqları ilə eşitmişdir.Yazıçı ön cəbhə həyatına(o, Qarabağ müharibələrinin iştirakçısıdır, veterandır) yaxından necə tanışdırsa, arxa cəbhə həyatı da ona o qədər doğma-əzizdir, necə deyərlər, Qafar Cəfərli iki cəbhə geyimli,iki cəbhə libaslıdır, iki cəbhənin od-alovları içində bərkiyən-poladlaşan əlisilahlı, əliqələmli əsgəri-döyüşçüdür. Hər iki cəbhədə gördüklərini dəqiqliklə, yəni heç nə artırıl-əskiltmədən tələbkar oxucuların ixtiyarına verir.

Yazıçının xəsis, lakin yaddançıxmaz ştrixlərlə oxuculara təqdim etdiyi Nərmin, Cəmil, Babək, Qeyrət, Ədalət, Əziz, Şair, Sədi, Uruş Qulam...obrazları işıqlı-nurludurlar. Sarsılmaz-əyilməz-qürurludurlar. Vətənə -xalqa, el-obaya uğurludurlar. Fəlakətli nikbinlərdir. Məşəqqətli ilkinlərdir.Müharibə, şəxsi həyat uğursuzluqları, sosial-iqtisadi ağırlıqlar onları əzsə də, sıxsa da belə, dözürlər, həyatdan-yaşamaqdan bezmir-usanmırlar. Mənəviyyatlarını ləkələmirlər.Xarakter-şəxsiyyət tamlığını tikələmirlər.Ötəri-köçəri xoşbəxtlik-bəxtəvərlik naminə pozğunlaşmırlar-quzğunlaşmırlar. Yoxsulluğu-kasıblığı qəbul edirlər, fəqət dillənmirlər Zənginlərə əyilmirlər. Varidat sahiblərinə yalmanmırlar.Qabaqlarında diz qatlayıb boyun bükmürlər, əl açmırlar. Özgələrin od-ocaqlarında nə qızınır, nə də isinirlər. Bir-birinə həyandırlar-mehribandırlar. Arxa-dayaqdırlar. Yaraqdırlar. Qaranlıqlarda çıraqdırlar. Elə gələn hər bəlanı, hər dərdi toy-bayram sayırlar.Budaqlı və Ərənlər kəndlərinin xeyir-sərindən ayaqları çəkilmir. Şəhid ailələrini bir an belə yaddan çıxarmırlar. Qazilərdən, veteranlardan, kimsəsizlərdən əsirgəmirlər el köməyini, əl köməyini. Yaddan çıxarmırlar ön cəbhədə qəhrəmancasına vuruşan igid əsgərlərimizi də-cəbhəyə yardım fonduna kimi pal-paltar, kimi yorğan-döşək, kmi qab-qacaq, kmi dünyasını dəyişən övladına aldığı cer-cehizi, kmi aylıq pensiyasını... Kimin nəyə gümanı gəlirsə, onu da yardım fonduna ürəkaçıqlığı ilə təhvil verirdilər. Təhvil verirlər ki, cəbhədəki əsgər daha inamla, daha qətiyyətlə vuruşsun,düşmənə sarsıdıcı zərbələrin uğurlu sayını artırsın, evindən-eşiyindən nigaran qalmasın və əsgər düşünsün ki, arxa cəbhədəkilərlə ön cəbhədəkilər bir tam, bir bütövdür. Bu yazıçının fikrinə görə, qələbəmizin rəhni və əsas səbəblərdən biridir. Bu eyni zamanda, xalq və ordunun vəhdətdə olduğunun ən bariz göstəricisidir.

***Yuxarıdakı abzasların birində sadaladığım obrazlar fəlakətə uğramış vətənin və xalqın timsalıdır, xalq adlanan böyük maddi-mənəvi gücün ən yüksək daşıyıcılarıdır. Ölkə belələrinin çiyinlərindədir, belələrinin gücü-qüvvətilə uğurlu addımlarla sabahlara irəliyəyir. Tərəqqi, gəlişmə və yüksəliş belələrinin hesabına ölkəyə ayaq açır və xalqın-millətin üzünə gülür bolluq-firavanlıq, xoş gün-güzəranlıq. Və belələri dərk edirlər ki,yaratdıqları bolluq da, firavanlıq da vətən üçündür. Vətəni yağı-yağmaçılardan xilasa can atan döyüşən döyüşən-çarpışan əsgər üçündür və nəhayət, qələbə-zəfər üçündür.Dava zamanın bu cəfakeş adamları öz işlərinə məsuliyyətlə yanaşır, dinclik bilmədən çalışır, əliəyrilərə, xalq malına pis gözlə baxanlara, gözdən pərdə asanlara, başqalarının haqqını tapdalayanlara (Mərəz, Bayram, İman..) son dərəcə amansızlıq sərgiləyir, nöqsan və qüsurlarını üzlərinə çırpırlar:( Ədalət-Mərəz xətti; Nərmin- Bayram xətti; Əziz müəllim-Bayram xətti; Urus Qulam-axund Məmmədəli xətti və s)***

Arxa cəbhənin bu mərd - mübariz övladları yalnız ön cəbhənin qayğıları ilə yaşamır, eyni zamanda, arxa cəbhəni də unutmur, burada cərayan edən hadisələrə dərhal reaksiya verir, mövcud nöqsan və naqisliklərə, əxlaqi-mənəvi eybəcərliklərə, ortada yeyib qıraqda hərlənənlərə, el-obanın namuslu-qeyrətli balalarına hərzə-hədyan söyləyənlərə öz dəmir-polad iradələrini ortalığa qoyurlar-onları məzəmətləyir, danlayır, yanlış yolda olduqlarını anladırlar. Və bu qeyrət etalonları, eyni zamanda, saxtalığa-saxtakarlara, yal-yaltaqlara, yalanayalançılara, talana-talançılara, məddahlığa-məddahçılara və hər cür bürokratik əngəllərə dözümsüzdürlər, amansızdırlar.

Barışmırlar ölkədə gündən-günə boy göstərən rüşvətlə və rüşvətxorlarla; ölkə boyu səngiməyən talanlarla; qaz vurub qazan dolduran talançılarla; yalanı, yalançılığı tərəqqi-yüksəlişin yolu bilən yalançılarla; haqqın-ədalətin başını şərin ayaqları altında kəsənlərlə və s. (Qeyrətoğlu Ədalət obrazı)

Barışmırlar ölkədə baş alan işsizliklə, diplomlu-təhsilli balaların dəllal arvadlarla piştaxta arxasında alver etməsində; uşaq pulunun verilməməsinə; neft pullarının sağa-sola xərclənməsinə; məmur və icra başçılarının şahdan, firondan qat-qat yaxşı yaşamasına; xalqın əksəriyyətinin yoxsulluq-kasıbçılıq girdabında ölüb-dirilməsinə; gənc mütəxəssizlərin evsiz-eşiksizliyinə; bahalaşmanın gündən-günə tüğyanına və s (Kommuniş Əmir obrazı)

Barışmırlar seçki saxtakarlığı ilə; bülletenlərin eyni və ya müxtəlif seçicilər vasitəsilə seçki qutularına doldurulması ilə; səs faizlərinin qabaqcadan hesablanıb saxta protokolların imzalanması ilə; seçilmiş(təyin olunmuş) deputatlarla seçicilərin görüşlərinin mümkünsüzlüyü ilə; seçkilər zamanı ziyalıların (müəllim və həkimlərin, mədəni-maarif işçilərinin) saxtakarlıq etməsinə və bunun dövlətə xidmət kimi təqdim edilməsinə (müəllim Əsəd obrazı). Barışmırlar ölkədə hərc-mərcliyin baş alıb getməsilə; "Burda mənəm, Bağdadda kor xəlifə" təfəkkürü ilə; totalitar Rusiyadan öyrənməyimizlə; yurddaşların bir-birinə rəqib-düşmən gözü ilə baxmağıyla, insaf-mürüvvətin, izzət -hörmətin biryolluq aradan götürülməsiylə, böyük-kiçikliyin tanınmamasıyla (Uruş Qulam obrazı)

Barışmırlar nazir, şirkət, komitə sədrlərinin, məktəb direktorları və baş həkimlərin eyni kresloda uzunmüddətli mürgüləməsiylə.

Barışmırlar yüksəkçinli məmur balalarının müxtəlif maxinasiyalar hesabına cəbhəyə yox, kafe, əyləncə məkanlarına istirahətə getmələriylə və s. Yazıçının bədii təhkiyəsindən anlaşılır ki, Ərənlər kəndinin sağlam qüvvələri şüurca yetkindirlər, ictimai-siyasi hadisələri təhlil sücgəcindən keçirməyi bacarır, hadisələrə ayıq-sayıq münasibət bildirməkdən belə çəkinmirlər.

Lakin bu heç də o demək deyil ki, müəllif və qəhrəmanları ikinci, üçüncü dərəcəli hadisə və əhvalatlara uyub əsas məsələdən-müharibənin baş xəttindən kənarda qalırlar.Əksinə, müəllif romanın baş xəttini ikinci, üçüncü dərəcəli xətlərdən qoparılmış halda təsvir etmir. Yardımçı hadisə və əhvalatlar əsas əhvalatla sıx bağlıdır, hadisə və əhvalatlar arasında səbəb-nəticə əlaqəsi tam və bütövdür. Bu müəllifin dialektik qanunlara, dialektik vəhdətə yazıçı sədaqətidir. Yazıçı sağlam təfəkkürlərdən, istedadlılardan, onların uğur-nailiyyətlərindən yaza bildiyi kimi, xəstə təmayüllü adamlardan, onların inkişafa yüksəliş-tərəqqiyə əngəl əməllərindən də yaza bilər və yazmalıdır da. Həyatın mənfiliklərini göstərmək hüququnu heç kimi yazıçının əlindən almır. Nöqsanlar var, eybəcərliklər göz qabağındadır, əliəyrilik, diliəyrilik qulaq kəsir, burun əsir, lakin bunlar küll halında müharibənin gedişini və nəticəsini təyin edən amillərə çevrilə bilmir, qələbəyə əsaslı təsir etmir. Yazıçı qüsur-nöqsanları göstərir ki, onlar gündən-günə çoxalmasınlar, yorğunlaşmasınlar-şişməsinlər, daha geniş vüsət almasınlar, yəni çirkablı-irinli damçılar ağu-zəhərli, duzlu-çamurlu gölə çevrilməsinlər. Yazıçı sözü, yazıçı təhkiyəsi aynadır. Ləkəni (ləri) göstərir. Ləkələri malalamır, aradan qaldırılmasını vacib-zəruri sayır. Yazıçı bilir ki, ləkələrin malalanması müalicə-profilaktika deyil, əksinə, ləkələrin daha dərin qatlara işləməsidir. Onu da qeyd edim ki, məişətdə işlətdiyimiz ayna (güzgü) adamların yalnız çölünü göstərir, içə-daxilə nüfuz etmir. Yazıçı sözü (təhkiyəsi) həm çölü, həm də içi (bati i) əks edir və mənəvi əxlaqi-eybəcərliklər bu aynanın işığından meydana çıxır. Xalq şairi Bəxtiyar Vahabzadə yazıçıların bu şərəfli missiyasını belə poetikləşdirir: "Mən havanın deyil, hadisələrin, könül dünyasının barometriyəm".

***Yazıçı Qafar Cəfərlinin romanındakı obrazlar içində yaşadıqları cəmiyyətə ayna tutur, yaxşıları-yaxşılıqları alqışlayır, pisləri-pislikləri qarğışlayırlar. Xeyirxahları -xeyirxahlıqları çəpikləyir, bədxahları-bədxahlıqları təpikləyirlər. Təpikləyirlər ki, məmləkət işsizlik, rüşvətxorluq, saxtakarlıq, talançılıq, yalançılıq... buxovlarından azad olsun.***

***Təpikləyirlər ki, məmləkət gecə-gendüz gözgörəsi diri-diri soyulmasın, sağmal inək kimi natəmir əllərdə sağılmasın, mən, sən, o axırda quru yerdə qalmayaq. İş dalınca, nisbətən rahat yaşayış ardınca qərib-qürbət ölkələrə ayaq açmayaq.***

Təpikləyirlər ki, ölkədə hər addımbaşı rastımıza çıxmasın nə rüşvətxana, nə də kababxana. Eyni zamanda, ölkədə ucaldılsın xəstəxana, kitabxana, uşaq baxçaları və körpələr evləri. Ölkədə göz oxşasın mədəni-maarif ocaqları, mədəniyyət sarayları.

Təpikləyirlər ki, ölkədə atların meydanı verilməsin eşşəklərə, bu eşşəklər də yerli-yersiz milləti-xalqı "qonaq" etməsin kötəklərə.

Təpikləyirlər ki, ölkədə iş başından biryolluq kürülsünlər əyrilər və oğrular, əvəzləsin onları harda varsa dürüstlər və doğrular.

Təpikləyirlər ki, ölkə etibar edilməsin istedadsız arxalılara, etibar edilsin istedadlı arxasızlara, etibar edilsin ruhu baharlara-yazlara. Təpikləyirlər ki, ölkə, allah eləməsin, yenidən müharibə təhlükəsilə üzləşsə, onda hamı, hər kəs: kasıb oğlu da, varlı oğlu da, nazir oğlu da, məmur oğlu da, cəbhədən yayınmasın, əldə silah odlu-alovlu səngərlərə atılsın.Yazıçı romanda təpiklənməsi vacib bir neçə obrazı diqqətdə saxlayır və sözün zəhərli uçclarını arabir onlara tuşlayır.

***Onlar Ərənlər kəndinin sayılıb-seçilən simalarıdır-kənd icra nümayəndəsi Bayram, kənd bələdiyyə sədri İman və bələdiyyə üzvü Mərəz. Hər üçü el-obaya gərəksiz-faydasızdır. Hər üçü əyri, saxta yollarla vəzifəyə pərçimlənib. Hər üçü saxtakardır, ziyankardır. Hər üçü əliəyri, diliəyridir.***

Hər üçü əsirlik-hərislik bataqlığındadır, yəni hərisdirlər vəzifəyə, əsirdirlər rüşvətə. Hər üçü ziyalıdır, lakin batinləri qapqaranlıqdır. Hər üçü buyruq quludur. Mənsəbcə özündən böyüklərin kölgəsindədirlər. Öz kölgələri yoxdur. Hər üçü üzdə mələk, içdə kələkdir. Hər üçü Ərənlər camaatının gülüş, istehza, kinayə hədəfidir.

Şəhidlərə, şəhid ailələrinə, qazilərə etinasızdırlar, onların ehtiyacları, ağrı-acılarıyla yaşamırlar. Hər üçündə şəxsi mənafe güclüdür. Hər üçü xalq, vətən, partiya deyil çığır-bağır salsa da, vətən-xalq sevgisindən məhrumdurlar.

Bayram vicdansızdır, rəhmsizdir. Şəhid anası Nərminə təcavüzə əl atır. Cəhdi boşa çıxır. Nərmin onun canavar iştahasına təslim olmur. Ilk məhəbbətini-Cəmilin eşqini ayaqlar altına atmır: Görünür məni tanımırsan. Mən yemək deyiləm hər kəsin qabağına çəkiləm... "Mən Cəmilin parasıyam, başqa birinə para ola bilmərəm. Namusu itə atıblar, it yeməyib" (səh 49) Və Nərmin açarları Bayramın üstünə ataraq marketi tərk edir.

**Bayram və yapçı Mərəz gözəllik və namus, mərdlik və dəyanət simvolu Ədalət (qazidir) və Nərminləri addımbaşı eybəcərlik və qaraniyyətli şər qüvvələrin daşıyıcılarıdır. Bu şərə-şurlar təmiz qanlara yol tapan, insanlıq və analıq çeşməsini bulandıran qapqara mığmığalar və milçəklərdir. Bayram və Mərəz xəbisliyin, xainliyin, naqisliyin ölməyən-itməyən, çürüməyən virusları-mikroblarıdır. Bayram və Mərəzkimilər gəlişmə tərəqqi-yüksəlişə, ağbəxt gündüzlərə qara geydirən, safları-sağlamları cürbəcür naxoşluqlara yoluxduran xəstəlik-mərəzlərdir, həm də əxlaqi-mənəvi mərəzlərdir-sözlə, nəsihətlə, danlaqla, ictimai tənbehlə müalicə olunmayan mərəzlər. 60 yaşlı yapçı Mərəz mərəzlən kələfi, mərəzlər toplusudur. Hansı mərəzi istəsən onu Mərəzin xarakterində, Mərəzin təbiətində tapa bilərsən: alverçilik mərəzi, fırıldaqçılıq mərəzi, yaxçılıq mərəzi, ayıqlıq-biclik mərəzi, gopçuluq mərəzi, pulpərəstlik mərəzi, xəbərçilik mərəzi, dəllallıq mərəzi, işverənlik mərəzi, orden-medal mərəzi, yaltaqlıq mərəzi, laqeydlik-biganəlik mərəzi, haqqı-ədaləti boğmaq mərəzi... Romanda Mərəzi, Bayramı ən çox sancan, neştərləyən, ifşa edən, iç üzünü açıb tökən, mərəzlərini bir-bir üzünə çırpan Qeyrət oğlu Ədalətdir.**

**(ardı var)**

«Gəncə Şərab-2» ASC VÖEN 2300015791

## Maliyyə Durumu Haqqında Hesabat

Azərbaycan manatı ilə

| Maddənin №-si | | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| | Aktivlər | | | |
| 1 | *Uzunmüddətli aktivlər* | | 7414032.09 | 7076997.91 |
| 10 | Qeyri-maddi aktivlər | 101-102+103 | 31541.89 | 35046.55 |
| 11 | Torpaq, tikili və avadanlıq | 111-112+113 | 7382490.20 | 7041951.36 |
| 17 | Uzunmüddətli debitor borc | 17X | | |
| 19 | Sair uzun müddətli aktivlə | 19X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **7414032.09** | **7076997.91** |
| 2 | *Qısamüddətli aktivlər* | | 15710507.22 | 16257754.94 |
| 20 | Ehtiyatlar | 20X-208 | 12091834.81 | 12479209.90 |
| 21 | Qısamüddətli debitor borc | 21X-218 | 2444762.08 | 3395690.18 |
| 22 | Pul vəsaitləri və onların ek | 22X | 1086004.01 | 342810.04 |
| 23 | Sair qısamüddətli maliyyə | 23X-235 | | |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | 87906.32 | 40044.82 |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **15710507.22** | **16257754.94** |
| | **CƏMİ AKTİVLƏR** | | **23124539.31** | **23334752.85** |
| | KAPİTAL | | | |
| 30 | Ödənilmiş nominal (nizam | 301-302 | 10685340.00 | 10685340.00 |
| 31 | Kapital ehtiyatları | 31X | 2673936.88 | 2601390.45 |
| 34 | Bölüşdürülməmiş mənfəə | 34X-344 | 4383226.07 | 3564288.98 |
| | **CƏMİ KAPİTAL** | | **17742502.95** | **16851019.43** |
| | **ÖHDƏLİKLƏR** | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 0.00 | 0.00 |
| 42 | Təxirə salınmış vergi öhd | 42X | | |
| 43 | Uzunmüddətli kreditor bo | 43X | | |
| 44 | Sair uzunmüddətli öhdəlik | 44X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKL** | | **0.00** | **0.00** |
| 5 | Qısamüddətli öhdəliklər | | 5382036.36 | 6483733.42 |
| 50 | Qısamüddətli bank kreditləri | | 2332442.12 | 2120977.75 |
| 52 | Vergi və sair məcburi öd | 52X | 760215.60 | 1451422.45 |
| 53 | Qısamüddətli kreditor bor | 53X | 2289378.64 | 2911333.22 |
| 54 | Sair qısamüddətli öhdəlikl | 54X | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏ** | | **5382036.36** | **6483733.42** |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 5382036.36 | 6483733.42 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **23124539.31** | **23334752.85** |
| | Rəhbər | | Baş mühasib | |

## Məcmu Gəlirlər Haqqında Hesabat

| Maddənin №-si | | Qeyd | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | | 15386514.41 | 15594629.34 |
| 70 | Satışın maya dəyəri | | 11219812.46 | 11047456.53 |
| | **Ümumi mənfəət** | | **4166701.95** | **4547172.81** |
| 61 | Sair əməliyyat gəlirləri | | 24748.00 | 18816.00 |
| 71 | Kommersiya xərcləri | | | |
| 72 | İnzibati xərclər | | | |
| 73 | Sair əməliyyat xərcləri | | -50680.56 | -58627.98 |
| | **Əməliyyat (mənfəəti-zərəri)** | | **4140769.39** | **4507360.83** |
| 63 | Kurs fəri+ | 22 | 184176.77 | 221585.12 |
| 75 | Kurs fəri- | 27 | -256948.05 | -273584.73 |
| | Fövqəladə gəlirlər | 23 | | |
| | Ixrac olunan mallara görə təşviq | 22 | | 36673.10 |
| | **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **4067998.11** | **4492034.32** |
| 90 | Mənfəət vergisi | 28 | 813599.62 | 898406.86 |
| 80 | Hesabat dövründə xalis mənfəət (zərəri) | | 3254398.49 | 3593627.46 |
| | Mənfəətdə iştirak payı: | | | |
| | Səhmdarların payı | | | |
| | Azlıqların payı | | x | x |
| | Səhmdarların payına düşən bir səhmin mənfəəti: bir səhmin əsas mənfəəti | | | 0 |

## KAPİTALDA DƏYİŞİLİKLƏR HESABATI

Azərbaycan manatı ilə

| | Qeyd | Nizamnamə Ka | Kapital ehtiyatl | Bölüşdürülmə | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| 1 yanvar 2021 tarixə qalıq | | 10685340 | 2601390.45 | 3564288.976 | 16851019.43 |
| | | | | | |
| Mülkiyyətçilərin karital qoyuluşları | 19 | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| 1 yanvar 2021 tarixə qalıq | | 10685340.00 | 2601390.45 | 3564288.976 | 16851019.43 |
| 2021-ci il üzrə xalis mənfəət-zərər | | | 0.00 | **3254398.488** | **3254398.488** |
| Mənfəətdən istifadə | 19 | | | 2435461.39 | 2435461.39 |
| Kapital ehtiyatına əlavə | | | 72546.43 | | 72546.43 |
| Təsisçinin borcunun əvəzləşdirilməsi | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| 31 dekabr 2021 tarixə qalıq | | 10685340 | 2673936.88 | 4383226.074 | 17742502.95 |
| Rəhbər | | Baş mühasib | | | |

# Vətənə və xalqa həsr olunmuş ziyalı ömrü

**Belə deyirlər ki, çox vaxt yazıçı mövzunu yox, mövzu yazıçını tapır. Məni tapan mövzunun da qəribə taleyi var...**

Bəri başdan deyim ki, qədim tarixə, zəngin mədəniyyətə malik olan Şuşa şəhərinin yaranmasından, bu qədim diyarın türksoylara məxsusluğundan, memarlıq və incəsənət abidələrindən, Zaqafqaziyada təhsil mərkəzi və ziyalılar şəhəri kimi tanınmasından, dünyaya bəxş etdiyi görkəmli şəxsiyyətlərindən, burdakı yüksək milli-mənəvi dəyərlərdən, ədəbi birliklərdən, şəhərin dəfələrlə yadellilərin - ermənilərin işğallarına məruz qalmasından, habelə, 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edən Azərbaycan əsgərinin hərb tarixinə qızıl hərflərlə yazılmış şanlı qələbələrindən xeyli yazılar yazmışam. Əslində bunları özümə mənəvi borc bilmişəm.

***Bu yazımda da ənənəmə sadiq qalaraq bir vətənpərvər şuşalı xanımı Sizlərə tanıdacağam. Səmimi deyim ki, bu insan sözün əsl mənasında özünü odda yandıran pərvanədir, könül dostudur, gözəl anadır, savadlı müəllimdir, şairdir, bacarıqlı təşkilatçıdır. Bir sözlə, xəyal pərisim kimi, dünyanı gəzib dolaşmaqdan yorulmayan ziyalı xanımdır. Onun Vətəninə, xalqına sonsuz məhəbbəti, milli kökümüzə bağlılığı, sadəliyi, təvazökarlığı, gördüyü xeyirxah işlər məni əlimə qələm almağa sövq etdi...***

Mən bu xanımı Şuşada orta məktəb illərindən tanıyırdım. Lakin aradan keçən uzunn illərdə onunla bir dəfə də olsun rastlaşmamışdım. 2015-ci ildə Bakıda ”Azərbaycan-İraq Mədəni Əlaqələr” İctimai Birliyi (QHT) tərəfindən keçirlən bir kitab təqimatında görüşmək bizə nəsib oldu.

Orta məktəbdə əla qiymətlərlə oxuyan, məktəbin ictimai işlərində yaxından iştirak edən, gözəl natiqlik və təşkilatçılıq qabiliyyətinə malik olan bu xanımın adını çəkdiyimiz İctimai Birliyin sədri olduğunu da burda bildim.

Müzakirəsinə yığışdığımız kitabın təqdimatının təşkilatçısı da, aparıcısı da həmin xanım idi. Onun gəncliyi, gözəlliyi, çıxışları, bir az da çılğınlığı xəyalımı orta məktəb illərimizə qaytardı...

***Uzun illərdən sonra gördüyüm, hətta adını unutduğum bu xanım nəzərlərini mənə tərəf yönəldərək: ”Siz şuşalı Əyyub müəllimsiniz, eləmi?”***

Şuşalıma hörmət əlaməti olaraq ayağa qalxıb: ”Bəli, elədir ki, var, - dedim”...

Çıxış üçün doğmalara xas olan hörmət və ehtiramla mənə söz verdi. Təşəkkür edib, təqdimatına yığışdığımız ”Qarabağın toponimləri” (m: Aydın Qarabağlı) adlı kitabla bağlı fikirlərimi bildirdim. Tədbir qurtardıqdan sonra mənə yaxınlışıb hörmətlə hal-əhval tutması, göstərdiyi səmimiyət bu xanımı mənim gözümdə ikiqat ucaltdı. Mənə elə gəldi ki, adını unutduğumu hiss etmişdi. Zarafatyana bir tərzdə: ”Gəlin yenidən tanış olaq, Tahirə Şuşalı”, - deyib, əlini mənə uzatdı.

Nəzakətli davranışı, özünü doğma bir insan kimi aparması, qazandığı hörmət, götürdüyü ədəbi təxəllüsü məndə qürur hissi yaratdı.

Qarşımıza qoyulmuş çayı unudub Şuşanın bəxtəvər günlərindən, məktəb illərimizdən, sahib olduğumuz sənət və peşəmizdən, həyatda qazandığımız uğurlardan, əsasən də Ermənistan silahlı qüvvələri tərəfindən uzun illər işğal altında saxlanılmış şəhər və kəndlərimizin tezliklə düşmən tapdağından azad olunacağına, doğma yurdlarımıza qayıdacağımıza güclü inamımızdan söhbət açdıq.

Söhbət əsnasında məlum oldu ki, Tahirə Şuşalı gözəl şeirlərin, məqalələrin, layihələrin, o cümlədən şəhid və qazilərlə bağlı bir neçə sənədli filmin müəllifidir.

Onun gördüyü təqdirəlayiq işlər, həyatda qazandığı uğurlar məndə xoş təəssürat yaratdı.

Haqqında bir neçə cümlə yazmaq istədiyimi bildirdim. Müsahibə almaq üçün onun iş yerində görüşdük.

Səmimi deyim ki, Tahirə xanımın ömrünün mənalı illərini özündə əks etdirən iş otağı zəngin bir muzeyi xatırladır.

***Onun Vətəninə və xalqına sonsuz sevgisini, milli ruhunu, həyata keçirdiyi layihələrini, yaradıcılığını, konfranslardakı çıxışlarını özündə əks etdirən maraqlı yazılar, sənədlər, qəzetlər, kitablar, jurnallar, Fəxri fərmanlar, medallar, diplomlar, dünyanın tanınmış insanları ilə çəkilmiş foto şəkillər, video kasetlər cild-cild kitablara sığmaz.***

Sevindirici haldır ki, bunlar Azərbaycanın ziyalı xanımının zəhmətinə verilən qiymətdir. Uzun illər ”Azərbaycan-İraq Mədəni Əlaqələr” İctimai Birliyinin sədri vəzifəsini şərəflə yerinə yetirən Tahirə Şuşalının Vətənimizin bir parçası olan Qarabağa və doğulduğu Şuşanın füsnkar gözəlliklərinə hərsr etdiyi ”Ay müqəddəs Qarabağım” adlı şeirindən götürdüyüm:

***Gözəllik var bu şəhərdə,***
***Adam ölməz belə yerdə.***
***Suyu dərman min bir dərdə...***
***Turş suyun, İsa bulağın,***
***Ay müqəddəs Qarabağım!***

- misralar yazacağım yazıya gülab ətri çilədi...

**Qısa arayış:**

Məmmədova Tahirə Məhi qızı 1947-ci ildə Şuşa şəhərində doğulub. 1955-1965-ci illərdə Nəcəf bəy Vəzirov adına Şuşa şəhər 2 nömrəli orta məktəbdə oxuyub və məktəbi əla qiymətlərlə bitirib. Həmin il Mirzə Fətəli Axundov adına Rus dili və Ədəbiyyat İnstitutuna qəbul olub və institutu əla qiymətlərlə bitirib.



**1972-ci ildə keçmiş V.İ.Lenin adına Pedaqoji İnstitutun pedaqogika kafedrasına laborant və müəllim təyin olunub. 1975-ci ildə ailə vəziyyəti ilə əlaqədar Beyləqan rayonuna, bir müddətdən sonra Sabirabad rayonuna köçmələri ilə əlaqədar həmin rayonlarda ixtisası üzrə müəllim işləyib.**

1981-ci ildə ailəsi ilə birlikdə Bakı şəhərinə köçüb və Respublika Tikinti Komitəsinin Texniki Peşə Məktəbləri üzrə Həmkarlar Komitəsinin sədri vəzifəsində çalışıb. Dissertasiya işi ilə əlaqədar ali təhsil aldığı M.F.Axundov adına Pedaqoji İnstitutun ”Rus dili və Ədəbiyyatı” kafedrasında ”Baş müəllim” işləyib.

**Ailəlidir: 2 qızı, 3 nəvəsi var. Qızları və nəvəsinin biri həkim işləyirlər.**

**Onunla görüşümüzdə marağıma səbəb olan ilk sualım bu oldu: Hörmətli Tahirə xanım, ”Azərbaycan-İraq Mədəni Əlaqələr” İctimai Birliyini təsis etmək ideyası Sizdə hansı zərurətdən yaranmışdır?**

**Cavab:** 1994-cü ildə Vahid Azərbaycan Partiyasının 1-ci müavini və ”Vahid Azərbaycan” qəzetinin baş redaktoru kimi İraq dövlətində keçirilmiş Embaqroya aid konfransda iştirak etmişəm. Vətənə qayıtdıqdan sonra məndə ”Azərbaycan-İraq Mədəni Əlaqələr Birliyi təsis etmək, Azərbaycan və İraq xalqlarının milli-mənəvi dəyərlərin, sənət əsərlərin, folklorun, incəsənət nümunələrin, tarixi şəxsiyyətlərin musiqisin, o cümlədən Ermənistanın 1988-1993-cü illərdə Azərbaycan ərazilərinə hərbi təcavüz etdiyini, azərbaycanlılara qarşı həyata keçirdikləri soyqırımları İraqda və dünyanın bir çox ölkələrində tanıtmaq, azərbaycanlılarla dünya xalqları arasında dostluq ünsiyyəti yaratmaq zərurətindən yaranmışdır.

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 20 aprel 2007-ci ildə rəsmi olaraq qeydiyyatından keçmişik və fəaliyyətə başlamışıq.

Artıq 15 ildir Tahirə Məmmədova adını çəkdiyimiz İctimai Birliyin sədri olaraq daşıdığı vəzifəni şərəflə yerinə yetirir. Həyata keçirdiyi uğurlu layihələr onun bacarıqlı təşkilatçı olduğunun əyani sübutudur.

Tahirə xanım Birləşmiş Millətlər Təşkilatının nəzdində olan iki böyük qurumun:

**1 -** ”Dünya Sülh Federasiyası” (”Dünya Sülh Səfiri”)

**2 -** WANQO-nun da üzvüdür.

Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi ilə ”Dəyərlərimizi tanıdaq, həqiqətlərimizi çatdıraq!” layihəsi çərçivəsində keçirilmiş rəngarəng sərgilər iki qardaş xalq arasında əməkdaşlığı və mədəni əlaqələri gücləndirmişdir.

...2016-2018-ci illərdə ”Vətəndaş cəmiyyəti” jurnalında Tahirə Şuşalının layihələri əsasında həyata keçirilmiş işlərlə bağlı mətbuatda maraqlı yazılar verilmişdir. Onun 2022-ci ildə nəşr olunmuş ”Qarabağ dünən və bu gün” adlı kitabında (Azərbaycan, ingilis və rus dillərində) 1988-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü, 1 milyondan artıq azərbaycanlıların doğma yurdlarından zorla qovularaq qaçqın və məcburi köçkün düşənləri, 20 faiz ərazilərimizin işğalı, Xocalı soyqırımı və s. hərtərəfli təhlil olunmuşdur.

Tahirə Məmmədovanın ”Güllələnmiş, qətlə yetirilmiş Qarabağ mədəniyyəti” və ”Yalnız irəli” adlı layihələri, həmçinin 44 günlük Vətən müharibəsində şəhid olmuş şuşalı Allahverdiyev Allahverdi Əli oğlu və Həsənov Nurlan Nadir oğlu haqqında hazırladığı sənədli filmlər əsl vətənpərvərlik nümunəsidir.

**Elə bilirəm ki, bu kiçik yazı ilə mənalı və şərəfli ömür yolu keçmiş vətənpərvər, cəfakeş bir şuşalımızı Sizlərə tanıda bildik.**

**Əyyub Şırlanlı,**
**şair-publisist, AYB-nin üzvü,**
**əməkdar müəllim,**
**”Məclisi-Üns” - ”Söz gülüstanı” ədəbi birliyinin rəhbəri**



*Eka Kevanaşvili*
*(Gürcüstan)*

**1977-ci ildə Tiflisdə doğulub. 2002-ci ildə Tiflis Dövlət Universitetində Beynəlxalq Jurnalistika fakültəsində magistr təhsili alıb. "Yaşıl dalğa" radiosunda aparıcı kimi çalışıb. Yeddi kitab müəllifidir; beş şeir, bir qısa hekayə, bir də esse kitabı yazıb. 2014-cü ildə "SABA" Şeir Mükafatını qazanıb. 2020-ci ildə qısa hekayələr kitabı "Anam haqqında heç nə" Gürcüstan Yazıçılar Birliyinin mükafatını qazanıb. Şeirləri ingilis, rus, alman, italyan, İsveç, Ukrayna, çex dillərində dərc olunub**

## Anam gəldi

*Bu iki kəlməlik cümlədən gözəl*
*nə ola bilər ki: "Anam gəldi".*
*Anam gəldi.*
*Onun artıq 67 yaşı var.*
*Qeyri-ixtiyari mindi avtobusa,*
*hərlənib-fırlanıb yanıma gəldi.*
*Onu qarşıladı yorğun,*
*güzəran qayğılarından quruyan,*
*tükənən qızı.*
*Anam gəldi*
*və dibimə su tökdü.*
*Anamdan payız qoxusu gəlirdi,*
*həqiqət qoxusu, yarpaq qoxusu...*
*Mənə atamdan,*
*heç neçəyə satdığı üzümdən danışdı.*
*Mən yaşayan şəhərə*
*qablaşdırılmış yaz mövsümünü*
*anam gətirdi.*
*Uşaq vaxtlarımdakı vərdişlərimi,*
*davranışlarımı və qadağalarımı da o*
*gətirdi*
*və mən evə qayıtdım.*
*Anam gəldi:*
*Heç belə də şeir mövzusu olar?*
*Hər gün nəhəng şəhərdə*
*onsuz da kimsə anası kiminsə*
*qonağı olur,*
*öz yaylığı, kəndləri və hərarəti ilə.*
*Yaxşısı budur ki,*
*şəhərin özbaşınalıqlarından yazım,*
*rəhbərin heyvani qərarları barədə,*
*döyülən qadınlar xüsusunda,*
*amma mən yenə də*
*anam haqqında yazmaq istəyirəm.*
*Çünki o üç yüz kilometrlik*
*yoldan gəlib,*
*dolanbac yollar doqquz dəfə haldan*
*salıb sürücünü,*
*o maşını saxlayıb,*
*özünə gələndən sonra*
*üzr istəyərək yoluna davam elədi.*
*Hər şey haqqında yaza bilərəm;*
*Daha çox oxunan*
*və daha çox insanın marağını*
*özünə çəkən məsələlərdən.*
*Amma o yazılan belə nadir bir*
*əhvalat olmayacaq.*
*Necə ki, bir ananın*
*balaca şəhərindən*
*öz böyük şəhərinə gəlməsi kimi.*
*Anam gəldi.*

## Qədim sevgi nəğməsi

*Dolabı səliqəyə salanda*
*corabımın itən tayı yerə elə düşdü ki,*
*eynən bir foto albomun*
*ortasından cırılmış şəkilin sən olan*
*tərəfi kimi.*
*İndi peşmanam,*
*niyə səni itirdim ki?*
*Niyə axı mümkünsüzdür*
*sənin mənim böyük,*
*amma əvvəlki eşqim olmağın.*
*Belə olsa bunu bütün dünyaya*
*çatdırardım,*
*amma yenə də heç kəsin acığı tutmaz,*
*kimsə "gözünün üstə qaşın var" deyə*
*bilməzdi.*
*Deyərdilər ki, ötən əsrin eşqi haqda*
*bu yaşdakı bir qadın nə çərənləyir?*
*Amma əldən nə gəlir ki,*
*yanan sönübsə*
*niyə belə qorxursunuz qədim*
*və ayağı bu dünyadan çəkmiş*
*eşqlərdən?*
*Və yenə də eşqi gözəgörünməz*
*bir yerə təpirik*
*bir tayı itən corab kimi - dolabın*
*dərinliklərinə.*

# Türkiyə hava məkanı 3 gündə 30 dəfə pozuldu

**Təhlükəsizlik mənbələrindən əldə edilən məlumata görə, yunan təyyarələri 3 gün ərzində Türkiyə hava məkanını 30 dəfə pozub.**

Axar.az xəbər verir ki, Yunanıstan Hərbi Hava Qüvvələrinə məxsus təyyarələr ilk dəfə aprelin 26-da Türkiyə hava məkanını 6 dəfə pozub. 27 aprel tarixində baş verən pozuntularda Yunanıstan Hərbi Hava Qüvvələri Didim, Datça və Dalaman da daxil olmaqla, Türkiyə hava məkanında 22 pozuntu törədib.

«Gəncə Mehmanxana» ASC VÖEN 2300020851

**Maliyyə Durumu Haqqında Hesabat**

Azərbaycan manatı ilə

| Maddənin №-si | | Qeyd | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|---|
| | Aktivlər | | | |
| 1 | *Uzunmüddətli aktivlər* | | 838768.90 | 911204.25 |
| 11 | Torpaq, tikili və avadanlıq | 111-112+113 | 838768.90 | 911204.25 |
| 12 | Qeyri-maddi aktivlər | 101-102 | | |
| 17 | Uzunmüddətli debitor bor | 17X | | |
| 19 | İnvestisiyalar | 19X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | **838768.90** | **911204.25** |
| 2 | *Qısamüddətli aktivlər* | | 854612.26 | 805291.03 |
| 20 | Ehtiyatlar | 20X-208 | 20673.96 | 20673.96 |
| 21 | Qısamüddətli debitor borc | 21X-218 | 12629.09 | 18433.00 |
| 22 | Pul vəsaitləri və onların el | 22X | 2988.22 | 8.09 |
| 23 | Sair qısamüddətli maliyyə | 23X-235 | 818320.99 | 766175.98 |
| 24 | Sair qısamüddətli aktivlər | 24X | | |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | **854612.26** | **805291.03** |
| | **CƏMİ AKTİVLƏR** | | **1693381.16** | **1716495.28** |
| | KAPİTAL | | | |
| 30 | Ödənilmiş nominal (nizam | 301-302 | 355842.00 | 355842.00 |
| 31 | Kapital ehtiyatları | 31X | | |
| 34 | Bölüşdürülməmiş mənfəə | 34X-344 | | |
| | **CƏMİ KAPİTAL** | | **355842.00** | **355842.00** |
| | **ÖHDƏLİKLƏR** | | | |
| 4 | Uzunmüddətli öhdəliklər | | 0 | 0 |
| 42 | Təxirə salınmış vergi öhdə | 42X | | |
| 43 | Uzunmüddətli kreditor bo | 43X | | |
| 44 | Sair uzunmüddətli öhdəlik | 44X | | |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKL** | | **0** | **0** |
| 5 | Qısamüddətli öhdəliklər | | 1337539.16 | 1360653.28 |
| | Vergi və sair məcburi ödə | 52X | | |
| 52 | Qısamüddətli kreditor borc | 53X | 1337539.16 | 1360653.28 |
| 53 | Sair qısamüddətli öhdəlik | 54X | | |
| 54 | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏ** | | **1337539.16** | **1360653.28** |
| | CƏMİ ÖHDƏLİKLƏR | | 1337539.16 | 1360653.28 |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **1693381.16** | **1716495.28** |
| | | | | |
| | Rəhbər | | Baş mühasib | |

**Mənfəət və zərər haqqında hesabat**

| Maddənin №-si | | Qeyd | 2021-ci il | 2020-ci il |
|---|---|---|---|---|
| 60 | Əsas əməliyyat gəliri | 20 | 145268.81 | 219126.98 |
| 70 | Satışın maya dəyəri | 24 | 209539.15 | 239412.75 |
| | **Ümumi mənfəət** | | **-64270.34** | **-20285.77** |
| 61 | Sair əməliyyat gəlirləri | 21 | 18205.00 | 18810.9 |
| 72 | İnzibati xərclər | 25 | 9059.8 | 9827 |
| | **Əməliyyat (zərəri)** | | **-55125.14** | **-11301.87** |
| 63 | Pandemiya görə maliyyə yardımı | 22 | | 10789 |
| 75 | Maliyyə xərcləri | 27 | | |
| | Keçmiş illərin mənfəətdən çıxılası zərəri | | | |
| | Fövqəladə gəlirlər | 23 | | |
| | Fövqəladə xərclər | 26 | | |
| 90 | **Vergitutmadan əvvəl mənfəət (zərər)** | | **-55125.14** | **-512.87** |
| 80 | Mənfəət vergisi | 28 | 0 | 0 |
| | Hesabat dövründə mənfəət (zərəri) | | | |
| | Mənfəətdə iştirak payı: | | | |
| | Səhmdarların payı | | -55125.14 | -512.87 |
| | Səhmdarların payına düşən bir səhmin mənfəəti: bir səhmin əsas mənfəəti | 29 | | |
| | Rəhbər | | Baş mühasib | |

**KAPİTALDA DƏYİŞİLİKLƏR HESABATI**

Azərbaycan manatı ilə

| | Qeyd | Nizamnamə Kapitalı | Kapital ehtiyatları | Bölüşdürülməmiş mənfəət | Cəmi Kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2021 tarixə qalıq** | | **355842** | **0** | | **355842.00** |
| 2020-ci il üzrə xalis mənfəət | | | | | **0.00** |
| Mülkiyyətçilərin karital qoyuluşları | **19** | | | | **0.00** |
| Elan edilmiş dividendlər | | | | | |
| Keçmiş illərin zərərin bağlanması | | | 0.00 | | 0.00 |
| **31 dekabr 2020 tarixə qalıq** | | | | | |
| 2021-ci il üzrə xalis mənfəət | | | | | **0.00** |
| Mülkiyyətçilərin karital qoyuluşları | 19 | | | | **0.00** |
| Təsisçinin borcunun əvəzləşdirilməsi | | | | | |
| Elan edilmiş dividendlər | | | | | |
| **31 dekabr 2021 tarixə qalıq** | | **355842** | **0** | | **355842.00** |
| Rəhbər | | Baş mühasib | | | |

# "Musiqi - gözəl səslərə çevrilən düşüncədir..."

***Biz yenə də musiqidən və incəsənətdən danışırıq. Müsahibimiz isə peşəkar musiqiçi, skripka ifaçısı - Məhsəti xanım Əliyevadır.***

**- Lütfən oxucularımıza, özünüz və musiqi fəaliyyətiniz barədə məlumat verməyinizi istərdim.**

- Mən - Əliyeva Məhsəti Cəmil qızı, musiqi fəaliyyətim haqqında onu deyə bilərəm ki, musiqini ta uşaq yaşlarımdan sevmişəm. Musiqiyə xüsusi marağım olub. Buna əsas səbəblərdən biri də kimi musiqiçi ailəsində böyüməyimdir. Bu sahəyə sevgim həmişə tükənməz olub və indi də belədir. Beləlikə bu sahə üzrə ali təhsil aldıqdan sonra əsasən bu istiqamətdə pedaqoji fəaliyyətlə məşğul olmağa başladım. 23 il Gəncə şəhərində musiqi müəllimi kimi çalışmışam Artıq yeddi ildir ki, Goranboy rayonu, Dəliməmmədli musiqi məktəbində direktor vəzifəsində çalışıram.

**- Musiqiyə olan sevgi sizdə haradan qaynaqlanır?**

- Musiqiyə sevgi məndə ta uşaq yaşlarımdan yaranıb. Musiqiyə həmişə xüsusi marağım olub. Buna əsas səbəblərdən biri də kimi musiqiçi ailəsində böyüməyimdir. Çünki atam , bibim musiqiçi olublar. Ziyalı - musiqiçi ailəsində ilk musiqi tərbiyəmi almışam deyə bilərəm. Atam - Cəmil müəllim zamanın ən peşəkar tar ifaçılarından olub. Bu sahəyə sevgim həmişə tükənməz olub və indi də belədir.

**- Nə zaman musiqinin həyatınızın ayrılmaz bir hissəsi olduğu anladınız?**

- Mən musiqini həyatımın hər an ayrılmaz bir hissəsi kimi qəbul edirəm. Həddin çox bu sahəyə olan sevgimə görə də övladlarımın da musiqiçi olmasına çalışmışam. Üç övladımın üçünün də musiqi təhsili var. Qızlarımın hər ikisi Bakı Musiqi Akademiyasını uğurla bitirib. Oğlum isə hazırda Gəncə Musiqi Texnikumunda təhsil alır. Bütün bunlar, mənim sevimli peşəmə - musiqiyə olan böyük məhəbbətimdən qaynaqlanır. Musiqi insanın ruhuna qidadır. Və musiqini sevmək mədəniyyətə sahiblənməkdir.

## *"Musiqi elə bir xəzinədir ki, xərcləndikcə daha da çoxalır..."*

**- Bir çox musiqiçinin həyatında sevimli bəstəkarı və əsəri olur. Sizdə bu necədir?**

- Mənim ən çox sevdiyim bəstəkar Bethovendir. Hesab edirəm ki, dünya durduqca Bethovenin möhtəşəm musiqi əsərləri də yaşayacaqdır. Və bu sənət əsərlərinin müəllifi Bethoven bütün dövrlərdə seviləcək və dinləniləcəkdir. Onun bütün əsərləri fəlsəfidir. Bethoven bəşəriyyətin ən dahi bəstəkarlarından biridir.

**- Uğurlarınıza görə kimə və nəyə borclusunuz?**

- Uğurlarıma görə birinci təbii olaraq Allahıma borcluyam. Və hər zaman buna görə Allaha şükürlər edirəm. Daha sonra valideynlərimə və dövlətimə borcluyam. Çünki hər zaman Azərbaycan dövləti, mədəniyyətə və incəsənətə xüsusi diqqət ayırıb. Əgər dövlətimiz bu sahəni daim diqqətində saxlamasaydı bu gün bu qədər uğurlar əldə edə bilməzdik. Ölkəmiz, xalqımız və dövlətimiz hər zaman var olsun deyirəm.

**- Yəqin ki, şagirdləriniz arasında gələcəyinə böyük ümid bəslədiyiniz uşaqlar var. Bu barədə də fikirlərinizi bilmək istərdim.**

- Təbii ki, şagirdlərimizin sırasında gələcəyinə böyük ümidlər bəslədiyimiz şagirdlərimiz var. Amma qismət, tale məsələsi var bu yolda. Çünki hamımız bilirik ki, real həyatın öz sərt qaydaları var. Bununla belə mən şagirdlərimiz arasında yetərincə istedadları görürəm və hiss edirəm. Əminliklə deyə bilərəm ki, onların sırasında elə istedadlı yeniyetmələr var ki, onlar gələcəkdə Azərbaycan mədəniyyətinə gözəl töhfələr verə biləcəklər. Və mən də bir müəllim kimi bu yolda sonuna qədər onlara dəstək olmağa hazıram.

**-Deyirlər ki, musiqi qəlb oxşayan səslər xəzinəsidir. Sizcə, bu xəzinədən yetərincə qədər istifadə edə bilirikmi?**

- Özünüz də qeyd etdiyiniz kimi musiqi bir xəzinədir. Bəli musiqi həqiqətən də xəzinədir özü də tükənməz xəzinədir . Əksinə bu xəzinə getdikcə hər ötən zaman kəsiyində daha da zənginləşir. Musiqi elə bir xəzinədir ki, xərcləndikcə daha da çoxalır. Musiqi dünyası həm də ucu - bucağı olmayan misilsiz bir aləmdir.



**- Müsahibəmizin sonuna gəldik. Son olaraq musiqisevərlərə və gələcəkdə musiqiçi olmaq istəyən gənclərə nələr demək istəyərdiniz?**

- İlk növbədə musiqiçi olmaq istəyən gənclərə sözüm budur ki, sənəti sevsinlər. Çünki sevgisiz görülən işdə uğur qazanmaq müşkül məsələdir. Ona görə də əvvəlcə seçdikləri peşəni sevdiklərindən əmin olsunlar. Daha sonra isə birmənalı olaraq zəhmət əsas şərtdir.

Zəhməti sevməyən insan nə qədər istedadlı olsa da lazımınca uğur qazana bilməyəcək. Mənə görə sənətdə 3 məhfumun vəhdəti ilə uğur qazanmaq mümkündür. Birinci sevgi, ikinci zəhmət, üçüncü isə qabiliyyət - yəni istedaddır. Bunların nəticəsində istənilən bir gənc peşəkar musiqiçi ola bilər.

Bu nüanslar olmadan uğurlu musiqiçi olmaq mənə görə mümkün deyil. Həm də musiqidə bacarıqlı olmaq fitri istedadla da bağlıdır. Yəni insan musiqiçi doğulur. Bütün ruhuyla musiqini duyur. Sənətə olan sevgi və bu yolda əzablara qatlanmaq uğura və peşəkarlığa aparır. Beləlikə sonda peşəkar musiqiçi olmaqla bərabər ölkənin, xalqının qürur duyduğu şəxsə çevrilirsən.

**- Maraqlı müsahibə üçün sizə təşəkkür edirəm və bundan sonrakı fəaliyyətinizdə sizə və şagirdlərinizə uğurlar arzu edirəm.**

- Mən də sizə və Adalat.az saytına minnətdaram ki, mütəmadi olaraq mədəniyyətimizi ,musiqimizi diqqətinizdə saxlayırsınız və bu sahədə fəaliyyət göstərən istedadlı adamlar barədə insanları məlumatlandırırsınız!

**Söhbətləşdi:**
**Bünyamin Bünyadzadə**

## Şəhriyar Məmmədyarov Maqnus Karlsenə qalib gəldi




**Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov norveçli dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi "Champions Chess Tour" onlayn seriyasının üçüncü mərhələsində sonuncu görüşünü keçirib.**

Qol.az xəbər verir ki, millimizin üzvü 7-ci turda Maqnus Karlsenlə qarşılaşıb.Görüş Məmmədyarovun 2.5:0.5 hesablı qələbəsi ilə başa çatıb. Bu qələbə ilə xalını 11-ə çatdıran Ş. Məmmədyarov Le Kuanq Lyemlə (Vyetnam) birlikdə turniri 5-ci pillədə başa vurub. Qalib isə 14 xalla Yan-Kşiştof Duda (Polşa) olub. Karlsen (Norveç, 12 xal) və Rameşbabu Praqnanandhaya (Hindistan, 12 xal) 2-3 pillələri bölüşdürüblər.

## 8-ci mərtəbədən düşərək ölən reperin sevgilisi də danışdı

**Aprelin 25-də, səhər saatlarında Beta adı ilə tanınan türkiyəli reper Berk Bayındır İstanbulun Kağıthane ilçəsində yaşadığı evin 8-ci mərtəbəsindən yıxılaraq dünyasını dəyişdi.**

31 yaşlı reperin hündürlükdən hansı səbəbə düşməsi hələlik məlum deyil. Hadisə bir neçə dəqiqə sonra polis və təcili tibbi yardım dəstələri əraziyə gəldi, Həkimlər tərəfindən ilkin müayinə və müalicə aparıldı. Lakin bütün səylərə rəğmən Berk hadisə yerindəcə həyatını itirdi. Reperin cəsədi ekspertiza üçün Ədliyyə Tibb Qurumuna aparılıb. Hadisə zamanı evdə olan Berkin sevgilisi Simla Enerin ifadəsi isə alınmaq üçün Gültepe polis idarəsinə aparıldı



Adalet.az Habertürk-ə istinadən xəbər verir ki, Bayındırın şoka düşən sevgilisi Simla Ener, "3-4 gündür bir yerdə qalırdıq. Səhər oyananda Berk qeyri-adi hərəkətlər edirdi. Eyvana çıxdı. Eyvanın məhəccərinin üstünə çıxdı, Mən onun arxasınca qaçana qədər, artıq onun yıxıldığını gördüm".

Sevgilisinin ölümündə şübhəli bilinən Ener mətbuatda yer alan bəzi iddialardan sonra sosial media hesabından yeni açıqlama verib: "Canımdan can qopdu. Pis iddialara və ya çirkin düşüncələrə əhəmiyyət verməyə belə halım yoxdur. Özümü yalnız Berkimin pərəstişkarları üçün yazmağa məcbur hiss edirəm. Güclü olmalıyam! "

Qeyd edək ki, Qəza tətyicəsində əlil arabasına məhkum olmuş reper ölümündən bir neçə gün əvvəl sosial mediya hesabında belə bir paylaşım etmişdi:"Həkimlər tezliklə yeriyəcəyimi deyirlər. Hörmətli məni tanıyanlar...Gözəl mesajlarınız, şəfa diləkləriniz və dəyərli dualarınız üçün sizə nə qədər təşəkkür etsəm azdır.

**Pərəstişkarlarımı motosiklet qəzası ilə narahat etdiyim üçün çox üzr istəyirəm. Mənə inamınız sayəsində güclü qala bilərəm".**

**Əntiqə**

## *Aktyor atasının yasına gələ bilmədi, övladı kimi saymadığı oğlu dəfndə onu əvəz etdi*

**Türkiyə tamaşaçısından başqa bizi də ekrana kilidləyən "Yaprak dökümü" serialı ilə bir zamanlar haqqında çox danışılan seriallardan olub. Həmin serialla məşhurlaşan türkiyəli aktyor Tolqa Karel bu serialdan sonra bir çox layihələrdə iştirak etmədən aktyorluğu tərk etdi. O, Amerikada məskunlaşaraq yük maşını sürücüsü kimi fəaliyyətə başladı.**



Hazırda yeni ailə qurub Floridada yaşayan Tolqa Karelə ağır itki üz verib. Keçmiş aktyorun atası dünyasını dəyişib.

Adalet.az Türkiyə mediasına istinadən xəbər verir ki, atasının dəfn mərasiminə gələ bilməyən Karel mərasimdən kadrları sosial şəbəkədə paylaşıb. Kadrlardan görünür ki, Karelin iştirak etmədiyi dəfn mərasimində oğlu Cihangir Can Karel iştirak edir. Kadrlarda o da görünür ki, çox kiçik yaşlarından atasının dəstəyini görməyən Cihangir Can Karel babasının tabutunu tərk etməyib, qəbrin başının üstündə göz yaşı tökür.

Qeyd edək ki, Tolğanın oğlu Cahangir Türkiyədə məşhurlaşan azərbaycanlı model Günay Musayeva ilə 29 avqust 2011-ci ildə baş tutan evliliyindən doğulmuşdu. Günay və Tolqa 2015-ci ildə ayrılıb. Günay ötən il TV kanalların birində həm Tolqanın, həm də onun valideynlərinin nəvələrini görməyə gəlmədiyindən şikayətlənmişdi: "Cahangir atasının kim olduğunu bilmir. Heç adını, soyadını bilmir. Balaca olanda pedoqoq vasitəsilə dedik, sonra danışmadıq. Uşaqlar Cahangirdən soruşub, atan haradadır? O da "buludların üzərində gülümsəyir" deyib. Tolqa, oğlumuz Cahangir sənin öldüyünü düşünür. Ayda bir dəfə onu zəng edib, varlığını göstər. Tolqa, səndən heç nə gözləmirik. Arada zəng edib oğluna varlığını göstər. Məni belə axtarma, Cahangirin köməkçisi var, ona zəng et. Pul, heç nə istəmirik. Oğlum "necəsən" deməsi, Cahangirin onun varlığını bilməsi bəsdir".

**Tolqa Karel ikinci dəfə Sara Skot adlı əcnəbi xanımla ailə qurub. O, hazırda ABŞ-da yaşayır. Aktyorun bu nikahdan iki övladı var. Sara hazırda üçüncü uşağa hamilədir.**

**Əntiqə Rəşid**

**Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 saylı qərarı ilə mərhumə Əliyeva Xədicə Abbas qızının adına verilmiş AN 056671 nömrəli 1147 kv.m torpaq sahəsinin ölçü-plan sənədləri itdiyi üçün etibarsız sayılır.**

***

**Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 nömrəli qərarı ilə mərhum Məcidov Əlipaşa Abdul oğlunun adına verilmiş A N 013639 nömrəli 799 kv.m torpaq sahəsinin ölçü-plan sənədləri itdiyi üçün etibarsız sayılır.**

***

**Kürdəmir rayon Aqrar İslahat Komissiyasının 24.07.2004-cü il tarixli 01 nömrəli qərarı ilə Məmmədov Vaqif Yusif oğlunun adına verilmiş 402.03 kv.m torpaq sahəsinin ölçü-plan sənədləri itdiyi üçün etibarsız sayılır.**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**



Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**



**Tiraj: 1500**
**Sifariş: 76**
Çapa imzalanmışdır: 29.04.2022